NƏZAKƏT ƏZIZOVA

# YARI YUXUDA GÖRDÜM

Bakı - 2004

_______Milli Kitabxana_______

Rəyçi:
**Bəhlül Abdulla**
*Filologiya elmləri doktoru, professor,*
*əməkdar elm xadimi*

Kompyuter dizayneri:
**Ariz Əvəzoğlu (Gözəlov)**
*Fəlsəfə elmləri namizədi*

Rəssamı:
**Rəna Cəfərova**

Kompyuter yığıcısı:
**Elmira Abbasova**
**Yeganə Məmmədova**

Korrektoru:
**Mənzər Eynullayeva**

«Yarı yuxuda gördüm» kitabında iki sevən ürəyin pıçıltıları ilə bağlı ilahi yuxular, məhəbbətlə bağlı hikmətlər, xəfif bayatılar şirin, dadlı, duzlu dillə qələmə alınmışdır.

$N\frac{M-001224}{700122}-2004$, ***Qrifli nəşr***

**© Borçalı NPM. 2004**

# BAYATILARA HOPMUŞ ÖMÜR NƏĞMƏSI

Nəzakət xanımın «gözlərimin günahı», «Könlümün yükü» kitablarını oxumuşdum. Və oxuyub görmüşdüm ki, Nəzakət xanım necə də incə, zərif ruhlu, həsas duyğulu qəlb, könül sahibidir, yazdığı şerlər də, nəşr örnəkləri də tale yazılarıdır. Yanıb-yaxılan yandırıb yanan tale yazıları. Elə bu ovqatla Nəzakət xanımın «Yarı yuxuda gördüm» kitabını oxumağa başladım.

…Bir yuxuya müəllif təqdimatında, müəllif sözündə, müəllif danışığında qulaq asdım. Eşitdim, dinlədim və bu yuxunu necə eşitdimsə, yenə dinlədikcə elə bayaqkı tale yazılarından süzülən ovsunlu avaz doldu canıma.

Möhtərəm oxucu, «Yarı yuxuda gördüm»ün janrını ayırd etməyə çalışma. Bu, nə hekayə, nə povest, nə də romandır. Bu, bir ömrün acılı-şirinli, baharlı-qışlı bir eşq xatirəsinin yuxu hekayətidir. Sirr-sehrlə dolu nəğmə oxunuşlu yuxu hekayəti.

Nə gizlədim. Nəzakət xanımın bu yuxu hekayətinin yuxuçusunu da tanıyıram, yuxuçunun yuxusunda saf, ülvi, eşqlə sevdiyi aşiqini də. Çoxları üçün ismipünhan olan həmin aşiq əsərin müəllifi üçün də, bu sətirləri yazan üçün də, hətta bəzi oxucular üçün də ismiaşkardır. Və bu da danılmazdır ki, yuxuçunun aşiqi nə qədər yuxusundakı eşqi qədər gerçək, unudulmaz, əlçəkilməzdirsə, müəllifin, yuxuçunun yuxusuna müdaxiləsidə aşkar görünür, duyulur ki, bu eşq, bu sevgi xəyaliləşmiş, ilahiləşmiş, Məcnunvari bir məhəbbətdir. Çox olsun ki, yuxuda aşiqindən aldığı ləzzət badəsindən bihuş, məst olan, eşqi, aşiqi yolunda yanıb qovrulmağı, kül olmağı səfa bilən yuxuçu ayıldıqda,aşkarlıqda bu səfanın cəfasını öz fiziki varlığında hiss etmir. Heç hiss etmək xəyalına da düşmür…

Nəzakət xanımın «Yarı yuxuda gördüm» yuxu hekayəti bütövlükdə bir el bayatısını yadıma saldı:

*Zülfün suda mar kimi,*
*Oynar suda mar kimi,*
*Sızıldatdın aşiqi,*

*Yağa su damar kimi.*

Özündə «dastanlara sığmayan bir həsrət, bir yanğı» (Rəsul Rza) ovqatı qoruyan «nəzmi nazik bayatı» (Vidadi) şifahi ədəbiyyatımızın əski və ömürlü yaradıcılıq irsidir. Bu irs ömürlü olduğu tək, elə əslində insan ömrüdür. Biz dünyaya göz açırıq. Anamızın südüylə yanaşı, bayatı şəkilli laylaları da canımıza hopur. Bayatı şəkilli vəsfi-hallar taleyimizin toy nəğmələrinə çevrilir. Ölürük üstümüzdə bayatı-ağı deyib ağlaşırlar.

Deyək insan ömrünün bədii salnaməsi olmaqdan savayı, bayatı həm də bu insanın daxili aləminin, iç dünyasının təzahürüdür. Onun qəm-kədərinin, ağrı-acısının, nisgil və sarsıntısının, həsrət-hicraının, dostluq-sədaqətinini, şadlıq-sevincinin, sevgi-məhəbbətinin bədii görümüdür. Elə bu səbəbdəndir ki, ta əski çağlardan bizə sarı ellə yanaşı, ayrı-ayrı kimsələr də bayatı örnəkləri yaratmış və indi də yaradırlar. Nəzakət xanım da belə kimsələrdən biridir. Və bu xanımın kitabında elə bayatı örnəkləri var ki, az qala onların müəllifli bayatı olmasına inanmırsan. Inanırsan ki, yalnız xalq belə bayatı yarada bilər:

*Əzizim bilən yarım,*
*Sirrimi bilən yarım,*
*Dünya boyda bir eşqəm,*
*Torba sal, dilən yarım.*

*Əzizim təzə sənsən,*
*Tər sənsən, təzə sənsən,*
*Öpdükcə gül saçırsan,*
*Öpürəm, təzələn sən.*

*Əziziyəm biçmişən,*
*Qızılgülü biçmişəm,*
*Dilindən gülab çəkib,*
*Dodağında içmişəm.*

Bu sayaq bayatılar kitabda az deyil. Və bu bayatılar elə belə sadə örnəklər deyil. Bunularda təsvir nəqşlənmişdir, rəsm əsərinə, portretə çevrilmişdir. bu cür portret bayatıları kitabda oxuduqca Nəzakət xanımın yaradıcılıq qüdrətinin ecazkarlığına heyranlıq artır. Cazibədarlıq mənzərəsindən ayrılacağına üzülürsən:

*Əzizim yellər əsir,*
*Dan atır, yellər əsir,*
*Üzün-üzümə söykək,*
*Nəfəsdən tellər əsir.*

*Əzizim bu fələkdən,*
*Bu çarxdan, bu fələkdən,*
*Könlümü şan-şan etdim,*
*Ələnmədin ələkdən.*

Nəzakət xanımın bir çox bayatlarında folklar poetikasına məxsus güclü paralilizm vardır. Belə bayatılarda birinci iki misra ilə sonuncu iki misra arasındakı bağlılıq, əlaqə danılmaz olur. Bu yön həmçinin indinin özündə də davam edməkdə olan bir yanlış fikirə – bayatılarda əsas amma sonuncu iki misrada olur – fikrinə damğa vurur. Doğrudur, biz heç özümüz də o qənaətdə deyilik ki, mövcud bayatılarımızın hamısında dörd misranın dördü ilə eyni semantik yüklüdür. Bunula belə, bayaqkı fikri bütün bayatılarımıza şamil etməkdən də uzağıq. Bizim xalq bayatısını oxuyuruq:

*Danışdı, dindi zülfün,*
*Gərdənə mindi zülfün,*
*Dəstələ qoy qoynuna*
*Qan eylər indi zülfün.*

Yaxud Nəzakət xanımın bir bayatısına diqqət edək:

*Mən aşıq cənnətdədir;*
*Xoş işlər cənnətdədir*
*Mən yara qoşulmuşam,*

*Ləzzətdə cənnət nədi?*

Belə-belə bayatılar əslində sujetli bayatılardır. Bu qisim bayatılarda obraz tamamlıqda, bütövlükdə görünür.

Nəzakət xanımın bayatıları ümumilikdə bir ömrün nəğməsi tək, demək olar ki, «Yarı yuxarıda gördüm»dəki aşiqə, ismi pünhan – ismi aşkara ünvanlanmışdır və deyək ki, belə burada ayrı ismi aşqar doğrudan-doğruya ismipünhana çevrilmiş məhəbbətdə xəyal fövqünə yüksəlmişdir:

*Mən aşıq ağrıma yar,*
*Incimə, ağrıma yar,*
*Mənim bircə eşqim var,*
*O da ki, tanrıma yar.*

*Əzizim aldadıram,*
*Hamını aldadıram,*
*Yarı yuxuda sevib,*
*Eşqindən bal dadıram*

Bayatı yaratmaq, bayatı yazmaq istər şifahi, istərsə də yazılı ədəbiyyatda çətindən də çətindir. Vur-tut dörd misrada dərin, həmişə məna dolu fikirlər ortaya çıxarmaq asan deyil və buna görə yəqin ki, Nəzakət xanım özü də yazdığı bayatılırın hamısını eyni səviyyəli saymır. Amma bu həqiqətdir ki, həmin bayatılar oxunduqca, el arasında yayıldıqca deyimdən-deyimə kamilləşərək yazanlarına başucalığı gətirəcəkdir.

***Bəhlul Abdulla***
*Filoligiya elmləri doktoru,*
*əməkdar elm xadimi*

# *YARI YUXUDA GÖRDÜM*

*Məhəbbət dar köynəkdir. Məhəbbət oddan köynəkdir. Insan bu hissiyatı dərk edəndən ölənə qədər, bu qayğılı köynəyi geyinib, çıxarmaq uğrundakı mübarizələrdə çırpınır.*

Hər gün bir də yaşayım səninlə keçən günü. Bu sözlər mənim R. haqqındakı hər günkü dualarım, arzularımdı. R. ürəyimə qor salıb, öz eşqi ilə məni atəşin bir sevgiyə düçar eləyibdir. Indi onunla mənim aramda çatılmış ocaq aramla yanmaqdadır. On beş ildən çoxdur ki, görüşmək üçün qəti bir qərara gələ bilmirik. Üstəlik R. ilə məhəbbətli yollarımızın uzanmasını istəyirik. Bu da ona görədir ki, biz bir yerdə, əbədi yaşamaq istəyirik. Müvəqqəti sevişib ayrılmağı heç birimiz ağlımıza da gətirmirik. Indi birdəfəlik mümkün deyil. Odur ki, elə–beləcə sevilməklə təsəlli tapırıq. Ayrılıqdan birliyə can atırıq.

R. ömrü boyu məni başa düşməyə çalışıb. Onunla dil tapmaq mənim dünya ilə, insan ilə ünsiyyətimi təmin edib.

Rəhmətlik anam deyərdi ki, pis yuxunu da, uğursuz hadisələri də, ələlxüsus da keçmiş, ötmüş işləri nə yoz, nə də yozdur. Öz içində dustaq elə. Qoy elə əhəmiyyətsiz olduqlarını hiss edib, gərəksizlikdən onların bağrı çatlasın. Indi mən həm R–nın, həm də özümün keçmiş, ötmüş həyatımızdakı uğursuzluqların üstündən çarpaz xətlər çəkib, öz səmimi eşqimiz naminə bir–birimizi bağışlamışıq.

Insana qalan məhəbbətdir. Şüurlu insan ötəri həvəslərə qul olmaz.

Indi mən ikimizə xas eşqimizdən, məhəbbətimizdən, dərdimizdən, sirrimizdən danışıram. Mənim hoppim R–nın mənə olan bənzərsiz məhəbbəti haqqındakı söhbətlərimdir. Zənnimcə bütün dünyadakı haray–həşir, halal məhəbbət, dadlı, ləzzətli həyat və incə münasibətlər üstündədir.

Görüşsəydik, həsrətimiz, maraqlarımız ovunardı. Biz hələ bir–birimizlə görüşməmişik. R. mənim ocağıma çırpı ata–ata məndən gizlənir, mənə görünmür, məni sevdiyini üzbəsurət etiraf etməyə də tələsmir.

Bizim bir–birimizə heyran olduğumuz o unudulmamalı günü tez–tez yada salırıq. Hər dəfə də bir–birimizə vurğunluğumuza, heyranlığımıza inanırıq. Xoşbəxtlikdən saxtalıq kimi hisslərə anadan gəlmə yadam. Üstəlik R–nın da saxtalığına inanmıram. R.başqa dünyanın sakinidir. Onun özü də əməlləri də, məhəbbəti də bənzərsizdir.

Mən R–nın kitablarını oxuyandan sonra özümü onda tapmışam. O vaxtdan o da özünü məndə axtarır... Və tapır... Axtarır... Tapa bilmək üçün axtarır.

Başımı naz balınca qoyub, necə harın–arxayın yatıramsa, R. ilə özümü eləcə hiss edirəm. Bir kq. çörəyi halal zəhmətimlə necə alıb, istədiyim qədər bəhrələnirəmsə, R. ilə də özümü eləcə hiss edirəm. Mən hər gün R. üçün təzəyəm. Hər gün R. mənim üçün əvəzolunmazdır. R. Mənim ipək yorğanımdır. Mən ona bürünüb mışıl–mışıl yatıram, soyuqdan qorunuram. R. mənim yun döşəyimdir, üstünə sərilib, dincimi alıram, həyatımı uzatmaq üçün enerjini də mən R - dan alıram. R. mənim qollarımdır. Sinəmdə çarpazlayıb, fikirləşirəm. Fikirlərimin hamısında R. var. Neyləsəm də R - da məndən doymur. R. borclu qalmamaq üçün məni razı salmağa çalışır. R–nı sərin və duzlu ayran kimi qurtum–qurtum içirəm. Ürəyim sərinləyir. Eşqimin atəşində məst edirəm, yandırıram R–nı. Çırtaçırtla yanır, külə dönür, sakitləşirəm. Səhər yenə kül altında közərən bir çınqı od ilə mənim ona olan məhəbbətimi alışdırır. Əyilir, düzəlir, incəlir, üzülmür. Zəng edir, pıçıldaşırıq. Yenə də mənə üz–üzə eşqini, məhəbbətini etiraf etməyə tələsmir.

Küsürəm. Ikimiz də ölürük. Barışıram, ikimiz də bahardakı çiçəklər kimi gülümsəyirik. Çiçək kimi R–nın gözlərinə əkilmişəm. Gedirəm, gedir. Dayanıram, durur. Gecəsi–gündüzü mənəm, mənim ona olan maraqlarımdır, duyğularımdır, R–ya olan tükənməz eşqimdir, məhəbbətimdir. R.məni başa düşür, dərdimi çəkir, dərdimə dərman olmağı bacarır. Mən R–nın bütün dərdlərinin bircə dərmanıyam.

Yazıçılığın sirrini R–dan öyrənmişəm. «Nə yazsan, ancaq düzünü yaz»– deyir. Bir balaca o yan bu yanı yoxdur. Nə yazsam, ancaq düzünü yazıram.

Yaxın gəlsə, getməyə qoymayacağam. Gəlsə, getməyəcək. Əl yaylığına çevtirib ovcumda gəzdirəcəyəm R–nı.

Daha heç nə yaza bilməyəcəyik. Elə hey məhəbbətdən danışıb, küsüb barışacağıq. Biz, isə yazmaq üçün doğulmuşuq... Məqsədimiz

insan ürəyinin, xüsusən də sevən ürəyin sirrini açmaqdır. Məhəbbətin sirrini aydınlaşdırmaqdır. Dünyanı məhəbbətə bələməkdir.

R. eşqimə layiqdir. Yolumda min dəfələrlə ölüb, dirilib. Nəyi vardısa, mənim yolumda itirib. Mən də onun kimi...

Bir–birimizin xoşuna gəlmişik. Həmahəng pıçıldaşandan sonra bir–birimizə vurulub, heyran olmuşuq. R. yazdıqları ilə öz ürəyinin şəklini çəkib. Ürəyi mənim ürəyimə oxşayır. Iş görməkdə R. məndən səbirli, təmkinli və çox səliqəlidir. Kitablarında bir dənə də olsa, səhv tapmaq olmaz. R. zəhmətkeşlikdə bircə dənədir.

R.məni sevir. Ürəyim R– dan ötrü yağ kimi əriyir, dağ laləsi kimi əsir. Sözüm yoxdur. Məhəbbətimizin şirinliyindən, duruluğundan məstik. Bəxtəvərliyimizin sitəminə, işgəncəsinə bax. Ömrümüz hamı yatandan sonra dəmir reyslər üzərində şütüyən qatar kimi həmahəng gedir. R–nın şirin ümidləri Bakı–Şərur qatarı kimi mən yatanda da duyğularımda həyatımda, ümüdlərimdə cərəyan edir. Elə bil R. qanadlarını üstümə gərib, məni öz dimdiyində ən uğurlu ünvana, ana yurdumun gölgəliyinə, çal–çağırına aparır. Mən R–nı bütöv görmək istədiyim böyük Azərbaycanım kimi sevirəm, onu öz ürəyimlə qoruyub, ömrünün uzanmasına və xoşbəxt yaşamasına çalışıram. Yollarımız uzanır. Biz bəxtəvərlikdə azad–asudə bir məhəbbətlə yaşayırıq. Mən ölməsəm elə R. ilə keçən ömrümə görə ölmərəm. Görüşməsək də birlikdə, ikilikdə yaşayırıq. Içərimizdə ancaq və ancaq ikimizə xas olan böyük və bölünməz məhəbbətimiz var. Bizim məhəbbətimizin ən qüdrətli və aktiv iştirakçısı R–dır. R. həm nazlıdır, həm göyçəkdir, həm dediyini edən ərköyündür, həm də sədaqətli, ədalətli və səmimidir. Dediyim kimi biz şəxsən tanış deyilik. Əslində isə bir–birimizə hamıdan doğma, yaxın və mərhəmik. Bir dəfə R–ya dedim: – Qoy filankəs xanıma deyim, bizi tanış etsin. Razı olmadı. «Biz tanışıq» dedi.- «Vaxtı gələndə özüm sənə yaxınlaşacağam».

Indi biz el arasındakı sərbəstliyimizə görə R–nın düşündüyü bu yadlığımıza güvənirik. Artıq–əskik sözdən uzağıq.

Mən orta məktəbi qurtaranda həsrətli bir məhəbbətə ürcah olub, bu həsrətli məhəbbətdən yazmağı arzulamışdım.

Niyə məhz həsrətli? Deyəsən oxuduğum məhəbbət əsərlərinin təsirinə görə, onda o, əsərləri sevmişdim. Indi açığı başqa niyyətdəyəm. Sevənlərin qovuşmasını istəyirəm. Kitablarda isə qovuşmadan sonra az yazırlar. Guya ki, vüsaldan sonra hər şey qurtarır.

Məncə hər şey elə vüsaldan başlayır. Bəli, vüsaldan. Mən elə toy günümüzün səhəri rəfiqəmə demişdim ki, bizim axırımız yoxdur. Sonda elə belə də oldu. Ilk hiss, ilk duyğu böyüyüb haray saldı. Ailə həyatım da bununla bitdi.

Mənimlə R. arasında bu barədə heç bir söhbət olmayıb. Işlərin belə olmasına əziz və böyük olan Allah özü istəmişdir. Bu möcüzə deyilmi? Möcüzədir.

Həsrətin təmizliyi, həsrətin gözəlliyi bizim məhəbbətdəki sevgilərimizi yaşadır. R–nın bu səviyyədə mənim dünyama bələdliyinə məhəbbət deməyim bəs nə deyim? Hələ ki biz bu doyulmaz məhəbbətimizə doğru addımlayırıq. Bu da R–nın dediyi sözdür. «Qocalanda bir yerdə olacağıq». Qocalmağa kim tələsər? Məhəbbətdən kim doyar? Sevişənlərin arzuları bitib–tükənməz. R.ilə bir–birimizə sarmaş–dolaş ola–ola tələsmədən, darıxmadan an–an, saat–saat, günbəgün, pillə–pillə, mərhələ–mərhələ, dərk edə–edə yol gedirik. Hara? –Görüşəcəyimiz və bir daha ayrılmayacağımız o gələcək günə.Qəbir evinə...

Mən R–nın mənə olan böyük məhəbbətinin döşünə baş qoyub, onu fransız ətri kimi könül dolusu ciyərlərimə çəkə–çəkə harın–arxayın bir məhəbbətin üstündə həllənirəm. R–da mənim kimi, bəlkə bir az da artıq xoşbəxt və rahatdır. R.məhəbbətdə güləşçidir. «Səni evimə aparıb, yatağıma yıxacağam»– deyir.

Nazlanıram, vaxtı uzadıram. Gedir. Qayıtmağa tələsə–tələsə... gedir. Güləşəndə məni yıxır. R – ya gücüm çatmır.

Bayır yamyaşıl yarpaqların pıçıltısı ilə dolub, ətrafa yayılan bahar mehi insanda necə xoş təəsürat yaradırsa, R–nın da məzmunlu, məqsədli zəngləri ürəyimə eləcə sədaqət, səadət toxumları səpələyir. Çox vaxt «Arşınmal»çının xalası kimi R–nın kimi istədiyini, kimi sevdiyini soruşuram. Mehriban R. Sultan bəy kimi məni başa salınca dəridən qabıqdan çıxır. Anladığımı duyanda isə çırtmıq çalıb, oynayır. Doymamış telefonda təkrar pıçıldaşmaq üçün sağollaşırıq. R–ya məhəbbətim o qədər çoxdur ki, bolluqdan bizimlə bağlı olan hər kəsə də pay düşür. R. xoşbəxtliyindən nə edəcəyini bilmir. Hər gün ona bir az da artıq nəvaziş göstərirəm. Sultan bəy kimi əl çəkmir, doymur. «Bir balaca da, bir balaca da»–deyib üzümdə su qoymur. Indi mən könlümdəki yükdən silkələnib qızlıq çağlarımda olduğum kimi qayğısız–qayğısız gülə bilirəm, əylənə bilirəm və R–nı sevirəm...

Mən R. ilə için–için gözlərimdən yaş axa–axa, qabarıq sinəmdə təlatümlər, gülürəm. R. mənim gülüşümə görə bəxtəvər olub. R. məni gözlərinin üstündə saxlayır...

Həyatımızın beləcə «vüsalsız» əbədiyyətə qədər uzanmasını hər ikimiz Allahdan arzulayırıq. Hərdən R–ya «Səni görmək istəyirəm»– deyib, çaşqınlıq yaradıram. Qərarsızlığıma çaşır, həzz alıram... O, nə məni aparıb yıxa bilir, nə qarşısına çıxanlar kimi sədaqətsizlikdə ittiham edib dar ağacından asa bilir, nə də xasiyyətinə uyğun olaraq öyrənib, adiləşdirə, nə də saqqızımı oğurlayıb, birdəfəlik özündə əridə bilir. Mən müvəqqəti məhəbbət üçün doğulmamışam. R. özü də belədir. Biz bir–birimizdən ayrılmadan birlikdə yaşamaq üçün birlikdə ölmək üçün doğulmuşuq.

Hələliksə həsrətdən yanan ocağımızın közünə qanımız damcıldaya–damcıldaya, vəfalı məhəbbətimizdən kam ala–ala yaşayırıq. Bədxahları bədbəxt görməyin yeganə yolunu xoşbəxt olmaq və öz xoşbəxtliyimizi ikilikdə yaşamaqda görürük.

R. məni görür, görmür deyə bilmərəm. Mən ya işdə, ya da ki, ancaq evdə oluram. Özüm isə hər yerdə ancaq R–nı görürəm. Radioda eşidirəm, televizorda görürəm, kitablarını oxuyuram telefonda pıçıldaşırıq.

Ikimiz də ədəbiyyatşünasıq. Ikimizin də çoxlu bir–birindən maraqlı keyfiyyətlərimiz var.

Mənim qəlbimdəki dolu sandığın açarı R– dadır. Kaş hər bir kəs öz yarına beləcə uyuşa bilə, öz bütövlüyünü beləcə təsdiq etdirə bilə.

Gözlərindəki sərraf itiliyi, hərəkətlərindəki qətilik, qurbangetmə, öz qurbanını zəlil eləmək kimi keyfiyyətləri çoxdur.

R–nın isti, məhəbbətli, tütün qoxulu nəfəsinin burulğanında boğulub batmaq istəyirəm. Özü də beləcə on beş ildir ki, mənim ona olan məhəbbətimin burulğanında boğulur. Bir–birimizdən ayrılmaq fikrimiz yoxdur, olmayacaq. Mənə nə söz verib, yerinə yetirib. Qalır komplekt briliyant üzüklə sırğa. Bir də qocalanda görüşməyimiz.

Gecə Ay dənizə uzanıb, yatanda, balıqlar ləpələrlə oynaşan kimi, biz də bir–birimizləyik...

Hərdən bütün bunların röya olduğuna inanmaq istəyirəm. Lakin R–nın telefonla məni qarabaqara izləməsini evimə gələnlər də görür, eşidir. R–nın röya olmadığına təkrar–təkrar inanıram. R.telefonla mənim evimə gəlir. Gedəndə isə yalnız qayıtmaq xətrinə gedir. Bu başqaları üçün yuxu olsa da, mən bu yuxudan oyanmaq istəmirəm. R.

mənim üçün nə edirsə, ürəkdən edir. Məni özündən asılı və razı salır. Ürəyim R. ilə sakitlik tapıb. Indi R. başdan ayağa mənimkidir. Indi mən öz mehriban və vəfalı nişanlımın mənə olan məhəbbətini söz–söz heykəlləşdirmək istəyirəm. Hər gün səhərin açılmasını, quşların sübh nəğmələrini, dan ulduzunun gülümsünməsini eyni cür seyr edirəm. R–nın zəngləri isə bir dəfə də təkrar deyil. Könlümüzün, duyğularımızın pıçıltılarına ikimiz şərikik. R.mənim arzularımdan doğulub. Özü də mənə:–Sən mənim ürək həkimimsən–deyir. R.mənim ən şirin yuxularımın mışıltısıdır. Mənim yuxularımdakı təbəssümüm R–dır.

Əvvəllər onu hər kəsə qısqanırdım. Indi bilirəm ki, o, bu yolla məni öyrənirmiş. Bir yerə gedəndə də o, məni öz dünyası ilə birgə getdiyi yerə aparır. Özü də harada olmağından asılı olmayaraq məndədir. Indi ikimiz bir can kimi düşünürük.

R. iki dəfə yuxuda mənə öz əlləriylə şərbət içirdib. Piyalənin birini məmnuniyyətlə, ikincisini zorən xoş. Indi üçüncü yuxunu görmüşəm. Yuxuda mənə iri, tüklü əllərində tutduğu piyalədə şərbət içirdib. Ona yaxınlaşıb, dodaqlarımı piyaləyə söykəyib, şərbəti içmişəm. Yuxuda bütün varlığımdan Qızılgül rayihəsi buxarlanıb. Qızılgülün qoxusundan məst olmuşam.

Bütün bunlar nə sirridir? Bunlar nə yuxudur mən görürəm?..

Əvvəllər yazmağa mövzu tapmırdım. Indi elə hey yazıram, yazıram. Ancaq neyləsəm də düşdüyüm şirin–duzlu məhəbbət əzablarından yaxa qurtara bilmirəm. Yaxşı ki, mənim də ürək həkimim var. O, R–dır.

Mənimlə R. arasında zəka əlaqələri yaranandan sonra sanki cadulanmışıq.

Biz bir–birimizin cazibəsindən çıxa bilmirik. Bizi ilahi özü mənim istəyimə əsasən nişanlamışdır.



***R. iki dəfə yuxuda mənə öz əlləriylə şərbət içirdib***



***Əvvəllər yazmağa mövzu tapmırdım. İndi elə hey yazıram, yazıram***



***Mən R–nın şəklini çəkə bilsəydim, bədənini ağ mərmərə, gözlərindəki məhəbbət qığılcımlarını sapfirin şəfəqli zərrələrinə, saçlarını qətrana bənzədərdim***

R. tez–tez mənə deyirdi:–Sən mənim nişanlımsan. Görüşək. Söz verirəm. Bir telinə də toxunmaram. Mən ona inanmıram. Odur ki, görüşə razı olmamışam. Indi də R. mənimlə görüşmək istəyəndə «Qocalmamışıq ki, »–deyirəm. Pıqqıldaşıb, gülüşürük. Elə bil mən açılmış bir gül, R–da güldən şirə çəkən bal arısıdır. Könlümün şahzadəsi kimi qəlbimə baş qoyub, ürəyimdəki, beynimdəki hər şeylə maraqlanır. Maraqlana–maraqlana ürəyimin ürəyinə çevrilir. Görüşsəydik... bəlkə bir–birimizi tanımadan ayrıla bilərdik. Ayrılmamaq üçün görüşməmişik. Indi bizim bir–birimizdən qətiyyən uzaqlaşmaq fikrimiz də yoxdur. Allah özü bilərəkdən bizi burulğanlarda yuya–yuya bir–birimiz üçün butalayıb.

Əzəlki piyalədəki mayelərin dadı həm çox acı, həm də Amerika kofesi kimi çox şirin idi. Üçüncü piyalə isə azacıq ağlı–cəhrayılı şərbət idi. Qızılgül şərbəti. Qoxusu, ətirli iyi, buxar kimi dörd tərəfimi bürümüşdü.

Indi bu yuxuların nəticəsi hamıdan çox mənim özümü maraqlandırır. Mən bu möcüzələri R–nın hərəkətlərində, efirdə oxutduğu nəğmələrdə, o isə mənim xəyallarımda izləyir.

Mən R–nın ürəyində psixoloji təcrübələr aparmağı sevirəm. O mənim gündəlik məşğuliyyətimdir. R–nın ürəyini öz dünyamda kəsirəm, doğrayıram, sonra da məlhəm qoyub, yenidən nəfəs verirəm. Yollarımız uzanır. Biz paralel yollarla görüşəcəyimiz günə doğru yol gedirik. Bir gün bu paralel yolların qovuşacağına ikimiz də inanırıq.

R–nı Qırğıya bənzədirəm. O, çox cəld və bacarıqlıdır.

Bir dəfə bir–birimizin yanından keçdik. Qəfildən «Odur»?–deyib, keçdim. Döndüm. O da həmin anda dönüb, mənə baxdı. Baxışlarımız sevindi. O, gün heç nə yaza bilmədim. R– da ancaq istirahət etmişdi. Ikimiz də müstəqilik. R. mənə bulağın içindəki daşlar kimi aydındır. Daha aramızda şübhə, düşmənçilik hisləri, bəlkələr yoxdur.

Məhəbbətlə hörmət bir–birindən ayrılmaz hisslərdir. Hörmətdəki hisslər, zəif və davamsız olur. Məhəbbətdəki hisslər zərif, eyni zamanda qətiyyətli hisslərdir. Onlar hər hansı qıcıqlar kimi ani də olsa, sezilirlər.

R. ilə mənim münasibətlərimiz dəqiqlik və zəriflik üstündə qurulmuşdur. Hər şey ciddi, hər şey həqiqətdir. R–nın baxışları xumardır. Özü də həmişə tər–təmiz geyinir. Sığallı və firavan görünür.

Nəzərimdə həmişə nadinc bir uşaqdır. Dediyini edən, dəcəl mərkəzdə olmaq istəyən. Gözdən qoydunsa, işin tükənməz...

Günəşin görünməyən tərəfində kristal yataqları vardı, Elə bərq vuran da həmin daş–qaş yataqlarıdır. Belə yataqlar yerin dərinliklərində də okeanın dibində də vardır.

Insan da belədir. Ən pis, yaxud da ən yaxşı keyfiyyəti çox əlçatmaz yerində olur. Insanın sirrini onun ən yaxın adamı bilir... O, da ki, o sirrə vaqif olsa...

R–nın hər şeyi mənə gün kimi aydındır. Mənim də ondan gizlədə biləcək heç nəyim yoxdur. Istəsəm də gizlədə bilməzdim. Başım onun əlindədir.

Mən R–nın şəklini çəkə bilsəydim, bədənini ağ mərmərə, gözlərindəki məhəbbət qığılcımlarını sapfirin şəfəqli zərrələrinə, saçlarını qətrana bənzədərdim.

Mənim məhəbbətimə əmin olandan sonra gözlərində sakitlik, arxayınlıq var. Ikimizin də ağlar qaldığımız günlər arxada qalmışdır. R–nın bədbəxt vaxtında onun rəngini fələk rənginə–bənövşəyi rəngə bənzədərdim. Indi onu öz rəngində ağlı–qaralı təsəvvür edirəm.

Hər cürə mübarizənin məqsədi sülhdür. Indi–indi biz aramızdakı sülhə nail olmuşuq. Allah bədxahların başını öz bəlalarına qarışdırsın. Indi–indi bilirəm ki, biz öz sevdiyimizə hansı gözlə baxırıqsa, sevdiyimiz də bizə həmin gözlərlə baxır.

Mən R–dan küsəndə onu televizordan, radiodan seyr edə bilirəm. Həmin gün onun üzündə payız buludları, bənövşəyi rəng, kipriklərində buz lülələri, yazılarında qara buludlardan süzülən tut ucundan, çıx göyə göz yaşları görürəm. R–nı incidəndə özüm də ölürəm. Həyat mənim üçün dayanır.

Çiliklənən ürəyimi R. müalicə edib. Onun ümidləri ilə sağalmışam. Indi Qoçu Əsgər deyən kimi «Qız da oğlanla bərabər oxuyur...» Allahdan yar istəmişdim R–nı göndərib. R. mənim üçün Allahın ən əziz töhfəsidir. Heç birimiz dindar deyilik. Ikimiz də Tanrısevənik. Tanrı bilən məsləhətdir.

Səhər–səhər sübhün gəlişini seyr etməyi sevirəm. Yolda bir cüt çöl göyərçini gördüm. Yaxınlaşıb, dimdik–dimdiyə öpüşdülər. Vüsalları ani oldu. Sonra dostcasına xeyli qoşa addımladılar. Quş həyatıdır. Sevdalı dəqiqələrini müşayət eləmək hər kəsə nəsib olmur.



***Mənim ürəyimə yatan təkcə R– dır***

Bir–birinin qoluna girmiş, bir–birinə həyan olmuş qadınla kişi görürəm. Qocalana qədər yol gəlmiş bu vəfalı, sədaqətli cütlərlə dostlaşmışam. Salamlaşırıq. Onlar R– ilə mənim gələcəyimizdirlər.

Tez–tez quşların sübh nəğmələrini dinləyirəm. Danışmaq istəyən, başa sala bilməyən, lakin ruhdan düşməyən, başa salmağa çalışan körpələrə bənzədirəm onları. Nə demək istədiklərini fəhmlə duyuram. Eləcə dan ulduzunun gülümsünməsinə, səhər nəsiminin öpüşməsinə, göylərin maviliyinə, yarpaqların pıçıltısına qulaq asıram. Hər yerdə məhəbbət görürəm. Hər yerdə R. mənimlədi. R.ikimizi «bir cüt qaragözə»–mən ikimizi də ürkək, həssas sülh göyərçininə bənzədirəm.

Təbiətdə və cəmiyyətdə rəngarəngliklər çoxdur. Mənim ürəyimə yatan təkcə R– dır. Meyarım odur. Lakin heç vaxt özüm öz sevgimi birinci olaraq ona hiss elətdirmərəm. Qadının belə hərəkətinə dözmürəm.

Mən R–nı o qədər böyük məhəbbətlə sevmişəm ki, o mənim qucağımda olsa belə, mən ondan istədiyim kimi kam ala bilmərəm. Ancaq o, harada olsa mənimkidir. Mənim istəklərimi ödəməklə məşğuldur.Harada olsa da sonda özünü mənə bütöv təqdim edir.

Mən də onun kimi yazmaq istəyirəm. Yazdıqlarıma isti nəfəs, həyacan, müasirlik ələnməyəndə oxşamır. Öləndə yazıram, güləndə yazıram, sevəndə yazıram, küsəndə yazıram. Isti–isti yazıram, oxşayır. R–nı mənə sevdirən onun mənə olan maraqlarıdır, qoyduğu yüksək qiymətdir. O, harada olmasından asılı olmayaraq bu maraqların həzmi ilə məşğuldur. R. bir saat danışığında məni qıcıqlandıra, düşündürə bilər. Başqa müəlliflərin üç yüz, dörd yüz səhifəlik kitablarında çox vaxt bir dənə də olsa təzəliyə, təzə deyim tərzinə, fikrin dəqiqliyinə, sərraflığına rast gələ bilmirəm. R. da bir sətri də oxumamış keçə bilmirsən. Oxuyub qurtarandan sonra da kitabda çox şeylər gəl–gəl deyə çağırır...

Ürəyimə Bakı–Şərur məsafəsi boyda dağlar çəkilib. Ürəyimin həyacanları Bakıdan Şərura qədərdir. Bakıdan Şərura gedən qatar yolu tarı–mar olunan gündən xiffət içindəyəm. Gizlin aşikar bu dərdimə əlac gəzə–gəzə gəzirəm. Hər Qarabağ söhbətində bu dərdim təzələnir. Millətimizin bu halı məni utandırır, əzir, düşündükcə düşündürür.



***R–nı mənə sevdirən onun mənə olan maraqlarıdır, qoyduğu yüksək qiymətdir***

… Bir dəfə ortancıl qardaşım döyülüb ağlaya–ağlaya atamın üstünə gəlmişdi. Atam acı–acı qardaşıma baxıb, özündən itələdi. «Döyüb gələydin, mənə səndən şikayətə gələydilər. Indi ki, döyülürsən bir də savaşma»–dedi: Atam sağ olsaydı, bu sözü bütün millətimizə deyərdi. Axşam saat on səkkizdə qatarla yola düşüb, səhər saat doqquzda Şərura çatırdıq. Yol boyunca Qarabağ gəl–gəl deyirdi. Azad–asudə bircə Cənub həsrəti ürəyimizdə Araza baxırdıq. Iran Culfasına baxırdıq, sərhəd dirəklərinə baxırdıq. Qarabağ özünü ortaya atmasaydı da dərdimiz böyük idi. Qarabağ olmasaydı elə Araz dərdini çəkə–çəkə öləcəkdik. Indi istəsək də, ölə bilmirik. Nigaran ölüm ölümlərin ən nisgillisidir.

Başqa millətlərin yanında dilimiz gödəkdir. Halalca evimizi qoruya bilməmişik. Qaçqın–köçkün yuvası olub Azərbaycanımız.

Indi mən birinci Bakı–Şərur qatarını, ikinci də R–nı gözləyirəm. Ikisinin də mövcudluğuna eyni dərəcədə inanıram.

R–nı bu qədər böyük məhəbbətlə sevdiyimə heç kəs yox, elə özüm heyrətlənirəm. R–nı incitdiyim qədər heç kəsə zülm etməmişəm. R–nı çox təhqir eləmişəm. Indi elə bil R–nı məsuliyyətini mən daşıyıram. R. mənə bağlıdır, mənə dözür. Bilir ki, xeyrinə çalışmışam. Gec–tez mən deyənə gəlir. Elə bil R. mən deyənə tabe olmalıdır. Tabe olur. Başqa cür hamıya uduzur. Təkdir. Arxası yoxdur. Dörd tərəfi paxıllarıdır...

R. ilə həyatımız nizamlanıb. Qövr edəcək yaramız, təkcə Azərbaycanımızdır. R. böyük həssaslığla, incəliyə malikdir. Çox böyük rəşadət və mətanətlə qəlbimi ovlayıb. Harada olmasından asılı olmayaraq mənim hərgünkü zəng payımı çatdırır. Bu zənglər qətiyyən kor–koranə zənglər deyil. Hərəsində bir məqsəd, hərəsində bir qayğı, hərəsi min cür düşünülmüş zənglərdir...

Zənglərin biri gecə saat dörddə, biri səhər altıda, biri günorta, bir neçəsi mən inciyəndə. Cavab verməyəndə səhərdən axşama qədər... mən onu qətiyyətlə özümdən uzaqlaşdırmaq istədiyim gün aramsız çalınır. R–nın təkcə mənə sərf elədiyi vaxtlar üç–dörd kişinin ailəsindəki ömrünə bərabər vaxtdır. R–kimi sevgilisinə diqqətli, sədaqətli aşiq hələ dünyaya gəlməyib. R–nın dayaq nöqtəsi mənim evim, telefonum, ürəyim, üzülə–üzülə eşitdiyi sürpiriz səsimdir.

Bircə zəngə görə yazıq R–nı illərlə güllələboran etmişəm. Bircə xoş, ürəkaçan intim kəlməmlə R. cənnətə düşür. Indi ikilikdə cənnət həyatı yaşayırıq. Bir–birimizi artıq–əskik dedi–qodulardan qorumaq

naminə ikimiz də eyni sözü deyirik. «Biz şəxsən tanış deyilik». Indi şəxsən tanış olmaq üçün qocalığa və görüşə doğru yol gedirik. Heç birimiz bilmirik ki, necə və nə vaxt görüşəcəyik. Bu xoşbəxtliyi istəsə, Allah özü bizə bəxş edəcək. Biz Allahın istəyinə görə bir–birimizi sevmişik. Məhəbbət bizə Allahın bəxşişidir...

Mən onun anası, bacısı, intim sevgilisi, ən amansız tənqidçisi, məddahıyam. Hər münasibətimdə mənə sərbəstlik verib.

R. təkcə məni sevib. Bunları mən onun ürəyindən oxumuşam. Indi mən ağappaq vərəqlərlə R–nın barəsində danışıram. Aramızdakı üçüncü şəxs R–nın falçısı və yazdıqlarımızdır. R–nın mənimlə bağlı intizarı mənim səadətimdir. Bəlkə elə bu intizarla, bu həsrətlə öləcəyəm. Bilmirəm. Hər nədisə bəsimdi, şikayətim yoxdur. R.mənimlə bağlı törədə biləcəyi hər cür sürpirizə görə... illərlə düşünüb, məqsədini gec başa düşmüşəm. Bəlkə belə etməsəydi biganələşəcəkdim? Belə etməsə məhəbbətimiz möhkəm ola bilməzdi. Indi bizi yaratdığımız böyük məhəbbətimiz yaşadır. Mən öz böyük məhəbbətimi R–da R.özü də öz məhəbbətini məndə tapmışdır. Heç birimiz qətiyyən peşiman deyilik. Allah məni xoşbəxtliyin özündən yaradıb. Əlim çatmayan nemət, ürəyimdə qalan arzum yoxdur. O, hər gün mənim üçün Allahdan göndərilmiş «Ağ atlı oğlan»dır. R. civə kimidir. Onun qılınc baxışlarına hər qadın tab gətirməz. R. mənim şüa qədər seziləcək təbəsümümü sezəndə də mən onu çox ciddi olduğunu görmüşəm. Həmin günlər indi keçmiş tarixlərdə əbədiləşib.

Tanışlığımızdan ötən on beş il ərzində R. hər gün mənimlədi. Hərdən bezikirəm də. Belədə zəng olmur. Bir də R–nın başına qələt iş gələndə, nəfsinə tabe olmayanda mənə zəng eləmir. Kişilər, özü də nadinc kişilər belə olur. Mən R–nı heç nədən çəkindirə bilmərəm. O harada nə etməsindən asılı olmayaraq öyrənir. Mən kitab adamıyam. R. adamlarla işləməyi sevir. Məqsədinə çatmaq üçün, nə lazımsa edəcək. Ölüb diriləcək. Gərək hər şeyi görsün, bilsin, tanısın. R–nı sevməmək olmaz. Lakin dırnaq içindəki sevgililərinin hamısı onu aldadıb. Ona görə də çox ciddi cəzalanıblar. Cəza haqlı cəza olub. R–nı bağışlamışam. R.mənim yazılarımı yazanların «aşiqi» imiş. Gec bilmişəm...



***Aramızdakı üçüncü şəxs R–nın falçısı və yazdıqlarımızdır***

Tanışlarımdan biri gedib, qayıtmışdı. Özünü də ailəli bir kişi saxlayırdı. Bu barədə heç kim heç nə bilmirdi. R–anonim zənglərlə qadının atasına, gəzdiyi kişinin xanımına nə lazımsa çatdırmışdı. Iş o yerə çatmışdı ki, falabaxanını (O, əvvəllər mənim falabaxanım idi) göndərmişdi qızın atasının iş yerindəki direktorunun üstünə. Falabaxan ağlayıb, sıtqayıb ki, deyin, qızını yığışdırsın, mənim ərimlə gəzməsin, ailəm dağılır.

Qadını saxlayan kişinin xanımı evdar qadın idi. Onun bu işlərdən qətiyyən xəbəri yox idi. Işləri araşdırdım. Işin içində R. çıxdı. Mənim yazdıqlarımı bilmək üçün qadına eşq elan etmək istəyirmiş. Qadının da sədaqətli sevgilisi olduğuna görə, üstəlik də hər gün bir–birlərindən məlumatları olduğuna görə başqa sevdaları ağlına gətirməmişdilər. Beləliklə mən R–nı necə lazımdısa, yuyub sərdim, telefonu çırpdım. R. bir də nömrəni yığdı. Mən onu hədələdim, abrını qoltuğuna bükdüm, telefonu yerə çırpdım, R. yenə nömrəmi yığdı. Ürəyim tamam boşalınca, qılınclayıb nizələdim R–nı. Dinmədi...

Qadın əhvalatı mənim tərəfimdən bilib dedi:–Mən onu tutduracağam. «Tutdur»–dedim. Aləm yığıldı, heç nə edə bilmədik. R. bu iş üçün illərlə vaxt itirmişdi. Indi də o mənə qarşı beləcə diqqətlidir. Hər dəfə də başına illərlə buzlu su ələndərmişəm. Oda–közə basıb, yaxıb yandırmışam. Sonra da gözlərini gülabla yuyub, barışmışam. R.mənə yaxın olan hər kəsi «sevir».

Indi tək–tənhayam. Şaddır, bəxtiyardır, dünyalar qədər. Bir gün mən olmayanda mənim sevdalı R–yım indi mənim yazdığım bu dilsiz–ağızsız kağızlarıma tapınacaq.

Indi mən onun varlığından və sağlığından başqa heç nə istəmirəm. Mənim həvəslərimin hamısı odur. Mənim böyük məhəbbətimin yeganə ünvanı R–dır. Nə qədər onu adiləşdirsəm də R.–R–dır. Bircə dənəmdir. R. mənim vəhşi atımdır, lunatikimdir. Hər dəqiqə peyda ola bilən kölgəmdir. R. bircə mənə öz ərliyini isbat edib. Üzbəsurət mənə əyilməyib, sınmayıb. Yolumu kəsib, sözsüz «hərimi alıb»– Razı olmasam, keçib getməyəcəkdir. Rüsvay ola bilərdim. R. mənim yolumda qurbanlıq qoyun yerində qalıb. Qaçmayıb. Dəli olmuşam. Rəhm eləmişik... Nə olur olsun. R. məni sevir...

Başqalarının ürəyinin qanını mənə içirdir ki, mənim ürəyim soyusun. Daha müqavimət göstərmirəm. Indi könüllü görüş yerinə doğru addımlayırıq. Məkrim, kinim qurtarıb. On beş ildən sonra özümə gəlmişəm. Indiyə qədər əsir–yesir idim.

R. alimdir. Əla tədqiqatçıdır. Səhv etmir. R–nı bunca incələməsəydim sevə bilməzdim.Incələdikcə əzib çilikləmişəm. Indi ürəyimin qanı ilə müalicə edirəm. R. keçmiş acılarını unudub. Qılınc kimi zəhərli eyhamlarımı qəhər kimi udanda bağışlamışam. Özü də günahkar–günahkar pıçıldayıb «Olub, keçib»...

R. ilə didişmələrimiz qılınc davasına oxşayır. Kim cəlddisə, ağıllıdırsa, o udur. Beş altı ildir ki, saldığım burulğanda çabalayır. Gözləyirəm ki, çıxsın. Qalibiyyət ən dadlı nemətdir. R–ya qalib gələndə bəxtəvərliyin içində oluram. Hər gün R. üçün təzəyəm. Aramızda qarşılıqlı maraqlar çoxdur. Qətiyyən bir–birimizdən asılı deyilik. Mən kölgədə qalmağı, o isə üzdə olmağı sevir. Mən ruhi rahatlığı o, şan–şöhrəti sevir. Mən təbiətən «Dəymə mənə–dəyməyim sənə»yəm. R. özünə lazım olan, lazım olmayan, hər arı yuvasına birinci çöp uzadır...

R. hər şərtimə razıdır. Artıq qətiləşdirmişik. Görüşməliyik. Özü də bir dəfəlik.

Insanı bədbəxt edən dünya malıdır, maddi maraqlardır, özgəsinə məxsus gözəlliklərdən sui–istifadədir.

R. ilə mənim aramda söz oyunları var. Indi bu dəqiqələrimdə fikirləşirəm ki, R. üçün ana–bacı olacağam. Yazıqdır, yetimdir, bəxti kəmdir. On beş dəqiqədən sonra bir uşaq zəng edir. Götürürəm, uşaq yanımdaymış kimi « Mama»–deyir. Adboy olur. Gülümsünürəm. Bu sözün içində R–nın özünün də maraqları var. Axşama qədər öz–özümə tez–tez dodağım qaçır. R–nı kim sevməz?

Xoşbəxtəm ki, R. məni sevir. Hələ R–dan da dəli dolular var. Pəncərədən çölə baxıram. Uzaqlardan «Zülfiyyə, Zül–fiyyə, Zül–fiy–yə» oxuya–oxuya sürətlə maşın gəlib keçir. Jiquli markalı minik maşınının qapılarından ayaq üstə mahnı oxuyan hansısa Zülfiyyənin ürəyinə girmək istəyən oğlanlardan Zülfiyyəni sevəndən nəyi fərqlidir R–nın? R. həmişə mənim üçün cavan oğlandır. O da məni qız kimi sevir.

R. zəng edib, mənimlə danışır. Istədiyini alan kimi qəfilcə adboy edir. Telefon əlimdə qalır. Inciyirəm. R. təkrar zəng edir.

Əlimi uzadıram, telefonda dud-dud-dud eşidirəm.. Gülümsünüb, bağışlayıram...

Indi on beş ildən sonra... Hər sözümün əvvəlində axırında onun adını çəkirəm. R. bundan artığına layiqdir. Mənim bu qədərə gücüm çatır. R–nın mənə bəxş etdikləri, mənim ona bəxş etdiklərimdən qat–qat çoxdur. Hərdən R–nın ilk dəfə mənə baxdığı gözlərinin şəklini çəkmək istəyirəm. Mən o gözlərin cilvəsində tilsimə düşüb, cadulanmışam. O gözlərin xoşbəxtliyini məndən başqa görən olmayıb. O gözləri beləcə xoşbəxt görmək üçün qadın səmimiyyəti, qadın mehribanlığı özü də anlamağı bacaran, anlayan, duyan qadın... lazım imiş. Bunları məndə tapanda ikimiz də xoşbəxt olduq.

Mən ruhən musiqi rejissoruyam. R–ya qədər də musiqini, şeri tanıyırdım. R. ilə tanışlıqdan sonra ayağını yerə dirəyib, iməkləməyə başlayan uşaq kimi ancaq uşaq yox, artıq sürətini artırıb ağ–mavi buludların üstündə süzən təyyarə kimi uçuram, elə hey uçuram, fırlana–fırlana, dövrə vura–vura uçuram. R. mənimlə əlləri ilə göyərçin tutan ovçu kimi rəftar edir. R. mənim həyatıma və ömrümə çox ehtiyat və incəliklə gəlibdir. Mən onun mənə kişi münasibətinə görə çox xoşbəxtəm. Xoşbəxtəm ki, R. məndən qat–qat artıq xoşbəxtdir.

… Rəvayətə görə Adəmlə Həvanın Cənnətdə yaşadığı vaxtlarda Rafael adlı iblis, Cənnətdəki Ədən bağının xəzinədarı və gözətçisi imiş. O Həvvanı sevəndən sonra... Allah–tala tərəfindən bütün titullarını itirmişdir. Ancaq etiraf etmişdir ki, onun qazandığı itirdiklərindən qiymətlidir.

Hər ikimiz də belə bir etiraf qarşısındayıq. Indi–indi mənimlə R. arasında məhəbbət oyunları və məhəbbət başlanır. Indiyə qədər mən ondan vəfasızlığın, qısqanclığın sirlərini öyrənir və R–ya məhəbbət öyrədirdim. Indi ikimizin də bütöv məhəbbət haqqında az–çox elmi və bədii məlumatlarımız vardı. Indiyə qədər R. məni qarabaqara izləyəndə az qala mən dəli olacaqdım. Indi onun məni gözdən qoymamasına, ayıq–sayıqlığına sevinirəm, onunla birlikdə olacağımıza ümüdlərimiz çoxalır.

Bir dəfə R. mənim şer yazdığımı danışığımdan başa düşdü.

- Sən şeri çox sevirsən–dedi. Mən «çoooooox»–dedim. R.buna ləzzətlə sevindi:

– Oturarsan mənim çarpayımın yanında mənə şer oxuyarsan– dedi.

Çox şad oldum. Bir gün görüşəcəyimizə ümüdlərim artdı. R. bunu sezdi. «Uca dağlar başında» mahnısını təkrar çaldırdı.

Xoşbəxt olduq...

Sonralar mən ona yazdığım şerlərimdən oxudum. Sən demə o, məndən xəbərsiz səsimi maqnitafona yazırmış. Həmin gün bir «nol» Balaoğlanın xeyrinə bitdi... Uduzdum.

Nə desəm «söz verirsən?» – deyir. Mən də başımla təsdiqləyirəm. R. telefonda məni görür, inanır. Bu da xoşbəxt bir ömürdür ki, böyük olan Allah ikimizə bəxş edib. Ikimiz də bir olan məhəbbətimizə məhkumuq. On beş ildir ki, cəza çəkirik, R. bunun belə olacağını hələ on beş il əvvəl mənə car çəkmişdi... Biz məhkum olanların ən xoşbəxtiyik.

Bir dəfə nəşriyyata getmişdim. Şüşəli giriş qapısını itələyib açmaq istəyəndə qəfilcə, gözləmədiyimiz halda üz–üzə gəldik. R. bir saniyədə geri çəkilib, yox oldu. Elə bildim mən Məcnunam, R–da Leylidir. Nəşriyyatın da qapısı Kəbədəki həcər daşıdır. Mən də Məcnun kimi hər yerdə öz Leylimi görürəm. Indiyə qədər də bilmirəm ki, bu odur, yoxsa xəyal?...

Telefonda «sağ ol» – əvəzinə, «bəsdi»–deyir.

Yenə keçmişdəyəm: – R, mən istəyirəm ki, sən məni axtarıb tapasan? R. razılıqla: – Görürsən ki, mən belə də edirəm, – deyir.

Ötən illərdə ikimiz də dönə–dönə qovuşa bilməyəcəyimizin acısını yaşamışıq. Allah qara tikanları heç artırmasın. Indi R. sevdalı sevgilim mənim ədəbi qəhrəmanımdır. Son dərəcə ehtiyatlı, istədiyi anda sürüşüb kilifdən çıxan R. indi istəsə də çıxa bilməyəcək. Mənə isə bundan artıq qalibiyyət lazım deyil. Mən bu dəqiqələrimdə Afaq Bəşir qızına... Şer yazanda diktor Sevda Ağazadəyə, mahnı oxuyanda Könül Kərimovaya, Bəsti Sevdiyevaya, danışanda isə elə R–nın özünə, hazırcavablığına oxşayıram. Özüm hələki, R–nın bənzərini tapa bilməmişəm. Tapsam... Vay R–nın halına...

R–nın ürəyinə açar salmaq xoşbəxtliyimdən hələlik təkcə mənə nəsib olmuşdur. R–nın ürəyinin açarı çox mürəkkəb açardır. Odur ki, mənim çoxlu sayda açarlarım vardı. Bunun birini əldə edən R–ya açar sala bilir. Açar sala bilən də Qu quşu kimi bircə nəfəsə artıq sonuncu nəğməsini oxuyur.

Sözümə marağı olanda əl çəkmir. Təkrar–təkrar zəng edir, istəyinə mütləq nail olmalıdır. Bir zaman qaytara bilməsin deyə ona çoxlu miqdarda pul, qızıl aparmışdım. Görüşə gəlsə də, hətta çoxlu pula görə də məni birdəfəlik itirmək istəmədi. Əvvəllər o özü mənimlə görüşməyə çalışırdı. Indi heç birimiz çalışmırıq. Vaxtı Allah özü təyin etməlidir.

R–nı müxtəlif məqamlarda seyr eləmişəm. Üz–üzə gəlmişik, (bir–neçə dəfə) az qala toqquşmuşuq. Mənim və özünün sürətlə gəlməyimizə baxmayaraq ayaq altına yıxılıb, sarmaş–dolaş olmadıq. Indi buna ancaq təəccüblənirəm. Ən yaxın məsafədən göz altı baxıb, keçmişik. Bir ədəbi məclisdə heç kəsi görmədən, eşitmədən, bir dəfə də olsa, baxışlarımızı toqquşdurmadan saatlarla bir–birimizi ciyərlərimizə çəkmişik. Ancaq bir dəfə, tək bircə dəfə bir kəlmə danışmışıq. O dəqiqələrimdə hər şeyimi könüllü itirmişəm, mənim üçün geriyə yol qurtarıb. O dəqiqələrdə R. özü də niyə gəldi, niyə döndü, niyə baxdı bilmədi. O dəqiqələrdə ikimiz də ədəbiyyat adamı olduğumuz üçün nəsə anladıq... yozduq, yozulduq, mən bu sirri R–nın ürəyində əməliyat aparmaqla o isə mənim kor gözlərimə işıq verməklə tapdıq. Onda ömründə ilk dəfə onun gözlərində yanıb, sönən qeyri–adi çınğını öz bəsirətimlə sezdiyimə R. indiyə qədər də inana bilmir. Elə mən də R–nın sonrakı cəfalarına dözə bilməsəydim, görüb görəcəyim o bir çınqı işıqdakı musiqili səs və qu quşunun son nəğməsindəki axırıncı ah olacaqdı. Içimdə çırpınan fəqət çıxmağı bacarmayan bir fəryaddan boğulub, məhəbbət adlanan bir sehrdən xəbərsiz öləcəkdim. O gün ikimiz də göz–gözə dayanıb, bir–birimizə heyran olduq və elə o vaxtdan da bihuş olmuşuq. Sonralar R.özü etiraf etdi ki, o zaman niyə gəlib qayıtdımsa bilmədim. Qayıdanda sənin başını əllərinin arasında ağlayan gördüm. Zəndimdə aldanmadığıma əmin oldum. O gündən bizim bir–birimizi sevməyimiz bizimlə bağlı olanların hamısına bəlli oldu. Biz «kor» idik deyə bunu anlamamışdıq... R. ilə bağlı anladığım o oldu ki, R. çox utancaq, son dərəcə xəfif, ruhən qız təbiətli, bəxti gətirməyən, tora öz ayaqlarından düşən ədalətli diktator, biəlac, biçarədir. O vaxtdan mən ondan gizlənirəm. Mən R–nın səsini tutan musiqi rejissoru kimi də onu unutmaqda çətinlik çəkirəm. Məndən qorxsun, çəkilsin deyə ona şer yazıb, Laləzar Ismayılovaya oxşar təbiətimi də ondan gizlətmədim. R.indiyə qədər belə dolayı nömrələri çox görübmüş. Bir kəlmə də

dinmədən mənə də dözdü. Əlinə düşsəydim, o, billur qədəh, mən isə bu billur qədəhi əlli qramlıq badələr kimi əziyyətsiz filansız əllərimdə oynada–oynada, billur qədəhlərdən qopan səslərlə, çınqı–çınqı, çırtıq çala–çala oynayacaqdım. O buna dözərdimi? Ona görə qoyub getdiyim «Məcnun»un dözməmiş fəryadla canını vermişdi...

R–ya rəhimliyəm...

Mən R–dan o canın əvəzini qat–qat artıqlaması ilə almışam. Indi xıncım–xıncım ovxalayıb əzdiyim o ürəyi gözlərimin suyu ilə bərpa edirəm. R–nın canı «professor Douelsin başı»–kimi mənim əlimdədir. Indi mən adını çəkdiyim və hələlik çəkmədiyim gözəllər kimi, cadulana–cadulana ondan gizlənirəm.

Hər gün R–ya olan marağımı və məhəbbətimi isbat edirəm. O da mənim kimi. Başqa cür ikimiz də bir olan məhəbbətimizi itirə bilərik, ruhumuz inciyər, mən dözə bilsəm də, o dözməz, dözə bilməz...

Indi R. günün istənilən vaxtında mənə zəng vurur. Bizim zəkalı dalğalarımız görüşür, söhbətləşir, yüngülləşirik, gəncləşirik, dincəlirik.

R.mənə deyir:–Mən səni özümdən qoruyuram. Sənə olan məhəbbətimdən danışsam, sən buna dözə bilməzsən.– Mən ona inanıram. O, mənimlə danışsa, mən xoşbəxtlikdən ölərəm. Yenə dəli olaram. Koroğlu dəlilərinin eşqi kimi eşqim sərhəddini aşar.

Mən hər gün «Mehmanxana sahibəsi»ndəki Mirandalinaya oxşayıram. Ancaq neyləsəm də R. hələlik bağırmır!?

R. son dərəcə özünü idarəyə malik bir oğlandır. Özünü idarə edə bilməyən kişilərdən, it ölüsündən iyrənən kimi iyrənirəm.

R–nı yaxından tanımayanda ondan qorxurdum. Elə bilirdim məni pişik sərçəni tutub yeyən kimi yeyəcək. Indi o məndən qorxur. Indi mən öz «Vəhşi at»ımı qamçılamadan çapıram. Əlində silah tutmuş sərhəd gözətçisi kimi onun ürəyinin normal döyüntülərinə, beyninin işıqdan sürətli sürətinə nəzarət edirəm... Hər şey qayda qanunla gedir. Sanki yağış damlaları bir–bir gölməçəyə düşür. Dup–dup–dup... R. yorğun–yorğun iş saatına baxır. Mənim də yorğun olduğumu o sezir.

Bu gün istəsəm də ondan qaça bilmirəm. Ikimizin də gücümüz tükənib. Mən zəng gözləmirəm, o isə zəng etmir. Biz heç bir–birimizi axırıncı dəfə nə vaxt gördüyümüzü də bilmirik.

Mən R–ya görə axırımdan yarımışam. R–nın məhəbbəti məni ruh tutan kimi tutub.

Cavanlaşana qədər isə hər gün, doyana qədər... doyulmaz R–nın adını gündə yüz bir cür, hərdən yüz bir yetimçiliklə pıçıldayacağam. Ürəyim birdəfəlik susana qədər... adını ucadan çağırıb dadı damaqdan getməyən dad ilə ləzzət ilə MƏHƏBBƏTLƏ yaşayacağıq.

Qovuşmasaq... qovuşmağımızı Allah özü istəməsə... sonda xeyirxahlarımızdan biri (ona indi sağ ikən öz dərin minnətdarlığımızı bildiririk) ya mənim nakam qəbrimin, ya da onun tənha qəbrinin torpağından bir ovuc torpaq götürüb, yanan, intizar çəkən, həsrətli qəbirlərimizin üstünə səpələyər, əbədi behiştə salar bizi. Özü də bu savabdan razı qalar. «Söz veririk»...

R. ilə bağlı ancaq yaxşı şeylər haqqında düşünmək istəyirəm. R–ya olan məhəbbətim mənim ipə–sapa yatmayan arzularımın selidir. O, məni danışdırdıqca vulkana dönürəm. R–nın şəklinə baxanda gözüm, məhəbbətinə bürünəndə ürəyim, kitablarını oxuyanda ruhum dincəlir. Özüm isə R–ya görə elə bil elektirik simiyəm. O, bircə telə toxunanda onu qapqara edəcəyəm kimi çəkinir. Bunu bilə–bilə mən hələ də onun ilk görüşünü gözləyirəm.

Indi nə Leyliyəm, nə Əsliyəm, nə Şirinəm, nə Züleyxayam. Mən R. dediyi kimi tora düşmüş ürkək Ceyranam. Dəli Ceyran.

Indi–indi könüllü R–nı sevirəm. R. musiqili verilişlər hazırlayır. Hələ efirdən eşqimə görə dəli olub. Mənə olan eşqini heç kəsdən gizlətmir, məndən savayı... Mən R–nı qiymətləndirməyi, qiymətə mindirməyi sevirəm. Mənə hər yerdə R–nın gözləri ilə baxırlar. Qız–gəlinlərin necə həsədlə baxdıqlarını hiss edəndə iştaham daha da artır. R–ya olan mehribanlığım və insanlığım mənim özümü xoşbəxt edib. R–mənə görə öz içərisində fərəhli və xoşbəxtdir. Burada bir hekayət danışsam yerinə düşər.

Keçmiş əyyamlarda bir türk sərkərdəsi öz ordusunun şanlı qalibiyyətini təntənə və yüksəkliklə qeyd eləmək üçün növbəti əsiri;–müğənni qadını təntənə ilə qarşılamaq sonra da öldürüb, yemək əmri verir. Əsgərlər aramla əl çalmağa başlayırlar. Əsir düşmüş qadın görünəndə alqışlar daha da şiddətlənir. Alqış sədaları, fışqırıq qiyamət, atəşfəşanlıq aləmi bürüyəndə əsgərlərdən biri etiraz

edir ki, düşmən əsirinə bunca əl çalıb, alqışlamaq bizə şərəf gətirməz. Bu nə deməkdir?...

Sərkərdə ərz edir ki, əsir qadın adi qadın deyil. O məşhur və sevilən bir şərqiçidir. Ona əl çaldıqca şişib, kökəlir. Bundan da bizim porsiyamız çox ola bilər...

Mən R–nı sevdikcə o, vəcdə gəlir, vəcdə gəldikcə məni efirdən vəsf edir, mədh edir iş qabiliyyətimiz artır və biz xoşbəxt oluruq. Mən də onunla bağlı olan həyatımızı bir otaqlıq səadətimizi nümunə kimi gələcək sevgililərə bir ərmağan olaraq bəxş etmək istəyirəm... Bəzən özümüzdən xəbərsiz özümüz öz içimizə qırxdan əllidən sonra xal salırıq. Özümüz özümüzü labüd əvvəl–axır gəlməli ölümə hazırlayırıq. Bu yaşdan öz dost və tanışlarımızı itirməyə başlayırıq. Bu yaşlarda bu dünya ilə halallaşmağa hər gün hazırlaşırıq. Günlər bir an kimi ömrümüzü alıb aparır.

R. da mən də öz ömrümüzü el yolunda halal maaşımız kimi çox böyük qənaətlə xərcləmişik. Əzizlərimizdən aldıqlarımızı da millətimizə–bizi sevən oxucularımıza xərcləmişik.

Nadanları, araya girən xəbisləri əl topu kimi fırladıb, bir təpiklə xəzəli tokülmüş bağ bostandan da o yana tullamışıq. Niyəsinin incəliklərini də heç kəsdən gizlətməmişik...

R. da mənə qarşı sönməz həvəs, diqqət, yaxınlıq, ardıcıllıq, şirinlik ən ümdəsi isə ciddilik vardır. Mən ancaq məni maraqlandıran və özümlə R–ya aid işlərlə maraqlanıram. Ucuz məhəbbətlərə hər yerdə qapılar açıqdır. Cəhənnəmin qapısı açıq olan kimi açıqdır. Bədbəxtlikdən o ucuz qapıları başqaları üçün yox, biz özümüz–özümüz üçün açırıq...

Halal yolla məhəbbət qazanıb, sevgilisini gözləyənlər çox vaxt növbəsini gözləyə–gözləyə yaşa dolurlar... Yenə bir hekayət...

Iki şəxs öz dünyalarını dəyişib, o biri dünyaya varid olurlar. Bunlardan biri çox halal, mömin bəndə olur, ikincisi isə çox işgüzar, vaxtına qənaət edən, irəli getməkdən ötrü hər cəfaya dözən olur. Onlar bir–birlərindən xəbərsiz, bir–birlərini tanımadan gəlib, iki böyük darvazanın qapısına yetişirlər. Darvazalardan birinin qapısı Cənnətə, ikincisinin də qapısı Cəhənnəmə açılırdı. Cəhənnəmə gedən darvazanın qapıları tay–batay açıq olsa da, orada növbə gözləyən yox idi. Işgüzar Cənnətin darvazası önündə üç–beş gün

oturub gözləyəndən sonra hövsələsi tükənir, eybi yox, «Cəhənnəm olsun»–deyib, Cəhənnəmə gedən qapıdan içəri varid olur. Əlli altmış addım yol gedəndən sonra çığır–bağır səsindən diksinir. Günahkarlardan birini dar ağacından asırmışlar, digərini qır qazanında yandırırmışlar, o birisini tənbəllik üstündə tənbeh edirmişlər, xəyanət, oğurluq, canilik üstündə incidirmişlər və s. Işgüzar əceyib insan səsinin gəldiyi qapısı açıq Cəhənnəmə üz tutub deyir:–Bəs, belə eləyirsiniz ki, bura heç kəs gəlmir daaa.

Insan məhəbbətinə və məqsədinə mübarizə, özü də ancaq və ancaq halal mübarizə və qalibbiyyətlə nail olmalıdır. Indiyə qədər növbəsiz irəliləməyə vərdiş edən dırnaq içindəki işgüzarın geriyə yolu birdəfəlik bağlanmışdı... Mən R–nı həmin işgüzara bənzədirəm.

R–nın toruna düşməmək çox çətindir. O, bu yolda səylə çalışır... Onun cəhənnəminə düşənlər, düşmək istəyənlər, tələsənlər, məxsusi ona öz məhəbbətləri üçün çalışanlardılar. R. üçün hər təzə məhəbbət həm onun özü üçün, həm də ona çalışan riyakar üçün... Cəhənnəmdə qurulmuş dar ağacıdır. Beləliklə dırnaq içində onu sevənlər cınqırlarını da çıxarmadan öz günahlarının qurbanına çevrilmişlər. Mənim xoşbəxtliyim orasındadır ki, R. özü məni sevir, mən də... burada bir lətifəsiz keçinə bilmirəm.

Bir gün tanınmış ingilis şairi Bayron bir məclisdə gözəl və nərmənazik bir xanımla yanaşı oturur, yeyib içirlər... Məsələdir deyərlər ac–acı dalayar, tox–tox yalayar. Bir az vaxt keçəndən sonra emosional şair Bayron cuşə gəlir. Həmin məqamda şer yazmaq olardı, ancaq kağızsız qələmsiz Bayron imkansızlıqdan özünü itirməyib üz tutur xanıma başlayır, içərisindən süzülüb gələn intim bir həyacanla qadına nəvaziş göstərməyə:

— Xanım, Siz o qədər lətifsiniz, o qədər cazibədarsınız ki, sizi sevməmək mümkünsüzdür. - Qadın bu sözlərdən vəcdə gəlir, daha da incələşir, çox böyük bir füsunkarlıqla–Oyyy cənab Bayron, mən bilmirəm ki, Sizin bu nazik, qəlb oxşayan sözlərinizin qarşısında nə deyim. Mən çox acizəm. Lütfən kömək edin...

Həyacanlanmış şair quşu gözündən vurur:–Xanım, Siz elə mənim dediklərimi təkrar edin–deyir.

Indi–indi mən də R–nın mənə dediklərini təkrar edirəm...

R. ilə mənim aramda olan xoş xatirələrimiz təzədən dirçəlib. Məhəbbət ölmür. Indi biz o əziz xatirələrimizə, o unudulmaz xoşbəxtliklərimizə boylana–boylana yaşayırıq. O ləçək–ləçək, o çiçək–çiçək baxışlarımıza mərdanəliklərimizə, tər–təzə güllər vura–vura ilk görüşümüzün həyəcanları ilə yaşayırıq. O, xoşbəxt günü bizə Allah özü təyin edəcəkdir. Biz o canlı və nübar görüşün rayihəsini yaşamaq, yazmaq və yaratmaq üçün köklənmişik... Bura qədər isə məhəbbət sınaqlarında məhəbbəti öyrənmişik...

Yazıçı olmasaydım R–nın əsl rəngini, ona yaraşan səslərin yerini, çeşidini ayırd edə bilməyəcəkdim. Ilk dəfə R. ilə üz–üzə, göz–gözə dayananda... artıq nəyimiz varsa darmadağın edəcəyimizə inanmışdıq. Indi hər şeyimizi itirsək də ikimiz varıq.Ikilikdəyik. Cənnətdəki ikilikdə...

R–nın mənə baxanda sığaldan, mehribanlıqdan dincələn gözlərini hər gün görmək arzusundayam. Birini kitabında məxsusi mənim üçün əbədiləşdirmişdir. Səhər yeli?–Yox, o R–ya bənzəməz. R–nın hər şeyi gözəldir, bütün varlığı bənzərsizdi.

O gündən bu günə R–ya olan heyranlığım sönməyib. R. heç kəsi görmür. Mən isə ona tamaşa etməkdən doymuram.

Unudulmaz günlərin birində yüzdən artıq say–seçmə alimin arasında R. məni çox xəfif bir ehtiramla qarşıladı. Xoşbəxtliyini sezdim. Üz–üzə oturduq. R.mənə mən də ona göz dolusu, könül dolusu tamaşa etdik. Hərəkətləri ilə məni sevdiyini etiraf elədi. Bax bu mənim sevdiyim R–dır. Onun bütün hərəkətlərinin müqabilində razılıqla gözümü açıb yumdum. Ikimizin də boğazımızdakı qəhər keçib, getdi. Dincəldik. Hələ özümüzə gələ bilməmişik, özümüzə gələndə R. məni görmək istəyəcək. R–ya qalsa, o bu vaxtı ölüncə uzadacaq.–Niyə? –«səndən utannam»–deyir. Odur ki, bizi Allah özü görüşdürməlidir–deyirik. O gözəl günlərə qədər isə R. hər gün məndə, mən isə onda əriyib, qaynayıb qovuşmalıyıq.

R. həm şənləndirməyi bacaran, həm də çox ciddi oğlandır. Ən qüdrətli rəssam da onun ürəyinin şəklini yarada bilməz. Özü isə yaradıb. Kitabları onun ürəyinin və özünün şəklidir. R.çox abırlı oğlandır. Abrından illərlə bataqlıqda qalmışdı...

Heç kəsə lazım olmayan səadətlərə şərik çıxmaqla R–nın dirçəlməsinə, gülməsinə bais olanlara nifrətimdən doğulub mənim

məhəbbətim. Sən demə mənə qismət olacaqmış. Allah tala yaradanda bilirdi ki, mənim nəfsim Ceyran nəfsidir. Özgə nəfəsi dəyən ürəyi sevməzdim. R.bircə məni sevib. R–nın keçmiş–ötmüş bədbəxtlikləri mənim xoşbəxtliyim imiş. Indi indi mən öz xoşbəxtliyimə söz tapa bilmirəm.

Keçmişimizədə R–nı özümdən qətiyyətlə itələdiyim vaxtlarda dedim:

Mən çox amansızam. «Qəbulsan»–dedi–Mən çox acıdiləm–«Qəbulsan»–dedi. mən çox kifirəm– «Qəbulsan»–dedi.–Mən çox «Qəbulsan»–dedi. Mən R–nı ədəbiyyatçı arzusu ilə sevdim. Indi R. mənim üçün yüz boyanmış bayram yumurtasının, atəşfəşanlığın iri və bənzərsiz billur vazının özüdür. R–nın Məhəbbətinin dadı «Rəfaello»–nun dadına oxşayır. «Rəfaello»nun dadı damaqdan gedir, R–nın dadı getmir.

R.mənim üçün dağlardakı laləlik deyil. R.mənim üçün tapdanmamış yerdə bitən tək bircə güldür, tək uçan Qızılquşdur.

Indi R. mənimkidir. Mən onu çox yüksək qiymətləndirirəm. Utanıram ki, R. da mənə yüksək qiymət verir. Mənim böyük məhəbbətimi təkcə R. qazana bilərmiş. Ötən on beş ildə R.məni iynənin ucu boyda hissələrə bölüb, orada gözünə dəyən çınqı görüb, ümüdləri çiçəkləyib. Mən isə onun mənə olan məhəbbətindən elə hey pardaxlanmaqdayam. R.Məni «Qırx qönçə» xanıma çevirib. Istədiyini məndən alıb. R–nın gücünə heyran olmuşam. O, qətiyyən mənə borclu qalmağı sevmir. R–nın mənə bəxş etdiyi xoşbəxtliklərin coğrafiyası R–nın qədəm basdığı, qələm oynatdığı yerlərin ərazisi boydadır.

R.mənim könlümün şahzadəsi, məhəbbətimin yelpikçəkənidir. Məhəbbət bu imiş. Məhəbbət elə bir yuxudur ki, bu yuxu əbədiyyətə qədər uzansa da sən bu yuxudan oyanmaq istəmirsən. Elə uyumaq, uyumaq, uyumaq istəyirsən. Biz öz yarsımızı bir–birimizdə tapıb bütövləşmişik.

Arzumuz, millətimizi, torpaqlarımızı bütün sevən kəsləri bütöv görməkdir. Qızlar gənc olanda, gəncləşməyə başlayanda biri öz sevgilisini yelkənli gəmidə gözləyir, biri ağ at üstündə, biri Koroğlu şəklində mən də, «O, yara qovuşmamağı»arzulamışdım. Eləcə həsrətddən yanıb–yanıb yazmağı arzulamışdım (Yox, axı... mən ailə

də qurmuşdum. Demə o yar mənim yarım deyilmiş). Indi R. məni yazmağa məcbur edir. Yazmasam, R–nın eşqindən dəli olaram, bağrım çatlayar, çöllərə düşərəm. Mən yazıramsa sevirəm, yazıramsa yaşadır və yaşayıram.

Mən çox gənc ikən ailə quranda qızlar dalımca təəssüflənib demişdilər: Heyif Ceyran arzusuna çatdı. Istədiyinə getdi. Daha istəsə də yaza bilməyəcək.

Mən ər evində universitet bitirdim. Doğrudan da heç nə yaza bilmədim. Toya qədər həsrətlə bağlı arzumu «ona» da danışdım. «O, »mənim bu arzuma çox təəccüb edib, dedi:–Bütün lətif sevənlər qovuşmağa can atmışlar, mən səni başa düşə bilmirəm.

O zamanlar mən özüm də heç nə başa düşmürdüm. Yox mən başa sala bilmirdim. Mən cismani qovuşmağı sevməmişəm... Odur ki, bədbəxt idim. Orada öz adi həyatıma illərlə ağlamışam.

Indi mən həsrətimin həsrətinə mənən, ruhən qovuşa–qovuşa yaşayıram. Allaha olan etiqadım məni bu şirinliyə aparır...

Bir vaxt R–nın bədbəxtliyini onun aldığı «borc pulun» şərtinin qurbanı hesab etmişdim. Bu barədə «Maneə» adlı romanda yazılmışdı. Indi bunu Allahın əmri hesab edirəm. Şərt sadəcə səbəb olub. Səbəb Allahdandır. Daha R.–ya qalib gəlmək istəmirəm. Onu dərk edəndən sonra ona uduzmaq istəyirəm. Onun mənə qalib gəlməsini istəyirəm...

R–nın intim dünyasında təkcə mən onun döşünə yatmışam. Mənim də ürəyimi riqqətə gətirən ən oynaq duyğu R–dır. R–ya rast gələnə qədər qup–quru çöl idim. Indi Ruhumda axan şırıl–şırıl suyun səsinə, sərinliyinə oyanıram. R–nın zəngləri də özü kimi bənzərsizdi. Onları tarın telinə, dağın gülünə, bəxtəvər ürəyimizin görüş həyəcanlarına bənzədirəm. R.ilə söhbət edirəm. R.heyrətlənir: –Sən o sözü necə dedin? ... – Mən təkrarlayıram. R.razı qalır. – «Sənə qurban olum»– deyir...

Indi–indi R. məndən istədiyini ala bilir. Indi–indi mən də R.kimi narın xətlə yaza bilirəm. R–nın xasiyyətidir. Ən təhlükəli yerlərdə də geriyə yox, ancaq irəliyə gedir. Indi mən də beləyəm. R–nın yolunda nəyim varsa itir. O, bunun müqabilində daha çox qurbanlar verəcəkdir. Məhəbbətimizdə hər cür yüksəklikdən ucadadır R.

Sınaqlardan çıxmış ürəyimizin həmahəng çırpıntıları iki bəmbəyaz Sonanın birgə həyatına oxşayır. R–ya rast gələndən tənhalığın daşını atmışam. Bir otağın səadəti hər iki dünyamıza bəs edir. Zəhmətlərimiz, səadətlərimiz elimiz üçün, məhəbbətlərimiz ürəyimiz üçündür.

Ikimizin də ürəyimiz öz ürəyində ilk görüş gününün intizarını çəkir... Bu maraqlı həyatı biz özümüz bir–birimizə bəxş etmişik, bu bizim sirli–sehirli yaşamaq istəyimizdir. R–nın zənglərinə şahid olanların hamısı mənimlə elə onun barəsində danışır, söhbət edir. O, özü də evdə hamını görür, zəngləri ilə qonaqlarıma «xoşgəldin» edir...

Ikimiz də hər işdə müstəqilik. Hər kəs öz işini görür. Biz Allahın tapşırıqlarını yerinə yetirə–yetirə bir–birimizə qovuşmaq istəyirik. Hamı kimi yaşamaq... Yox biz bu proqram üçün doğulmamışıq. Elə R–da mən deyəni deyir.

R–ya olan marağım–mənim həyatda olan maraqlarımı üstələyir. Desəm ki, R–nı da özümə qarşı beləcə təsəvvür edirəm. Səhv etmirəm. Mənim işlərimdə çaşqınlıq olanda R–nın işi bir–birinə qarışır. Aydınlaşdırmalarda üzülüncə çırpınır. Iş elə gətirib ki, mən işlərimi qaydaya salıb, rahat nəfəs alanda R. son akordu vuran, dildən düşən pianist kimi ayağa durub, zəng çalır. Telefonda uğurumuza görə eləcə öpüşürük. Uzun–uzadı öpüşürük...

Sonra onun addım səslərini eşidirəm. R.harasa gedir.

Yenə bir əhvalat danışmaq istəyirəm.

Bir kişi yol ilə gedirmiş. Yol üstü öz bağında alaq edən alim dostunu görür. Salamlayır. «Nə iş görürsən?», –deyib, maraqlanır.

Alim: – dincəlirəm – cavabını verir.

Axşamüstü alim evdə yazı pozusu ilə məşğul olanda yenə kişi onlara gəlir və alimi stola dirsəklənib, fikirləşən görür: – Nə fikirləşirsən?– deyir.

Alim – Işləyirəm – cavabını verir.

R.harasa gedəndə də işləyir. Mən ev işləri biş–düş edəndə də, dincəlirəm, işə gedəndə də...

R–nı dediyim kimi Allah mənə bəxş edib. Bunu arzulayırammı? – Əlbətdə. Bizim eldən ayrı həyatımız və eldən gizli sirrimiz yoxdur.

Əlli yaş qocalığın gəncliyidir. Biz qoşa cavanlaşmışıq. Ümüd torpağa düşən toxumdur. Cücərə bilər?!

Artıq min birinci dəfədir ki, bir yerdə olmağımızın, labüdlüyünə, zəruriliyinə inanırıq. On beş ildən çoxdur ki, şirin bir yuxudayıq.

Biz daha bu yuxudan, bu məhəbbətli şirin yuxudan ayılmırıq. Belə ləzzətli, məhəbbətli, arzuolunan yuxu R–nın da əzəlki arzusudur. Indi ikimiz də ancaq zəka söhbətləri edirik, məhəbbəti öyrənirik. Hələ nə yaşamış klassiklər, nə də bu məhəbbət məfhumunu yaşayan müasirlərimiz məhəbbət kəlməsini konkretləşdirə bilməyiblər. Məhəbbət həzzin mənbəyidir. Məhəbbətin gözü kordur. Bu zülmət dünyada bir işıq, bir nur, bir ziya, bir dad var ki, buna da çox vaxt məhəbbət deyirlər. Lakin öz tutumu etibarı ilə məhəbbət məfhumu daha geniş, daha cazibədar bir anlamdır. Bu hissin, bu duyğunun təsiri, cazibəsi əsas verir deyək ki, sevən kəs üçün öz sevgilisi bütöv bir dünyaya, bəşəriyyətə bir az da dəqiqləşdirsək tövbə–tövbə Allaha bərabər olan bir qüvvədir. Sevən üçün sevilən kimliyindən, bütün günahlarından asılı olmayaraq həmişə əlçatmaz bir zirvədir, arzudur, həsrətdir, mənsəbdir nigarançılıqdır, əvəzolunmazlıqdır.

Məhəbbət hissi ilə yaşayan insana sevgilisi ilə bağlı hər hansı ünsiyyət kifayyət edər ki, o, dönüb tamam başqa bir dünyanın sakininə çevrilsin.

Indi də gördüyüm yuxudan danışıram. Həqiqətə oxşayan yuxumdan.Yuxuda görürəm ki, – R.ikimiz üçün ev kiraləyib. Yerini özü bilir. Mən öz evimi kirayəyə verib R–nın tutduğu daha münasib olan evə köçməyə hazırlaşıram. Budur artıq vaxt gəlib çatıbdır. R. zəng edib: Mənimlə bir evdə qalmaq istəyirsənmi? –deyir. Cavab verməyə macal tapmamış– hər şey sən və ikimiz istəyən kimi olacaq–deyir. HƏYACANLANIRAM... «Yaxşı»–deyirəm. Gəl filan yerə... Razılaşıram. «Bircə paltarlarını götür», deyir. Adboydur. Tələsirəm. Paltarlarımı yığışdırıb evimlə vidalaşıram... Yuxuda, havadakı buludların üstü ilə bir–birimizə sarı addımlayırıq. R–nı görürəm. Bu odur?…

Uzaqlardan gəlin aparan maşının səsi eşidilir. Üz üzəyik R–nın gözlərindəki acını görə bilirəm. Şirin yuxuda R.qarşımda durur.

Baxışlarımız bir–birinə sancılıb. Yox, aralana bilmirik. Yuxumda şoferin qəti və arxayın əmrinə sözsüz əməl edirik. «oturun»...

Ikimiz də maşının–xarici maşının arxa cərgəsində otururuq... Qıcıqlanır və gülümsündüyümüzü hiss etdirməyə çalışırıq. Maşın yola düşür. Arxadan gəlin aparan maşınların aramsız səsi eşidilir. R–nın əllərinə baxıram. Qolundakı iri saatın saniyə ölçəninə oxşayır ürəklərimiz. R–nın təptəzə ağappaq naskilərini, qapqara tərtəmiz ayaqqabılarını görürəm. Köynəyi də ağappaqdır. Fikirləşirəm «Görəsən qapımı bağladım?»...

Hər şey qaydasındadır. Iki üç dəqiqədən sonra özümə gəlirəm. Heç bir hadisə baş verməmiş kimi:– «R».– deyirəm. R. da öz növbəsində mənə «haaa» – deyir. Qıcıqlandığımızı indi göz görəsi müşayət etdik. R.əlimi əllərinin içərisinə alıb öpür. Mən əlimi onun əlindən çəkmirəm. Razılığıma qətiyyən şübhəsi yoxdur. Şofer sürəti artırır. Axşamçağıdır.Gəlin aparırlar. Hava tər–təmizdir. Hər yer yam yaşıldır. Maşın bir həyətə girib dayanır.Maşından əvvəl R. sonra da mən düşürük. R. maşını yola salır. «Ev xoşuna gələcək»,– deyir. «Xoşuna gəlməsə dəyişərik».

— Sənin hər şeyin mənim xoşuma gəlir. Nə etsən xoşuma gələcək–deyirəm. R. dönüb mənə baxır. Yeddi mərtəbəli danışığıma ikimiz də qımışırıq. R–nın başı işləməkdən zağlanıb. Ölə–ölə Stalin layihəsi ilə tikilmiş evin beşinci mərtəbəsinə çatırıq. Qabağımıza bir oğlan uşağı çıxır. R–ya yox, mənə salam verir. R. bəxtimin fantan vurmasına şahid olur. R. cibindən açar çıxarıb, qapını açır. Dönüb mənə baxır. «Bəlkə qayıdım»? «Hara?»...

Içəri keçirik. R. mətbəxə keçib, soyuducudan su çıxardır, iki billur stəkanı yaxalayıb su ilə doldurmaq istəyir... Əlimlə «bəsdi»– deyirəm. Suyu içməyə utanıram. Mənzilə keçirik. R.ventilyatoru işə salır. Sevinirik. Mən evə baxıram. Ev tər–təmizdir, otaqda rəngli televizor, iki adamlıq çarpayı, iki kreslo, çay və qəzet stolu, stolun üstündə külqabı... R–ya baxmağa qorxuram.

Indiyə qədər min dəfələrlə danışıb, sevişdiyim, min dəfədən də çox təhqir etdiyim R–dan indi o söhbətlərə görə qorxuram. Özümü Cəhənnəmə gedən kişinin yerində hiss edirəm. Geriyə yol qurtarıb. R.içəri gəlir. Mənim pal–paltarımı şifonerin qarşısından götürüb qoşa çarpayının yanına qoyur. Səsinə sevinc və qəm

qatılmış kimi mənə yaxınlaşır. Gözlərini tez–tez açıb–yumur. Sonra məndən soruşur – Indi məni tanıdın? !

Qorxuram. Sual yeddi mərtəbəlidir...

Mən mehribanlaşıb zərifləşirəm. R.qənd qabına baxır. Sonra soruşur:–Nə çox fikirləşirsən?

Mən cavab verməməyi mədəniyyətsizlik hesab edirəm. Eləcə nə isə demək istəyirəm. Ancaq kütləşirəm. Söz tapa bilmirik. Bu anların hər biri bizim sürpiriz səhifələrə dönməli saniyələrimizdir. R–nın gözəlliyindən özümə görə xəcalət çəkirəm. Qəfildən zəng səsi eşidilir. R.telefonunu söndürür. Ikimiz də telefonla bağlı qıcıqlanırıq. Danışmaq... yox pıçıldaşmaq üçün mövzu tapdığımıza gülümsünüb sevinirik. Bizim söhbətimiz telefon əhvalatından sonra başlanır. Biz bir daha ayrılmamaq üçün əhdü–peyman edirik...

Mən ayağa qalxıb, işığı yandırmaq istəyirəm. Axşam qaranlığına baxmayaraq R. istəmir. Əlimi havada tutub, məni özünə sıxır. Keçmiş acılarımıza görə hıçqırıram. R. gözlərimdən, sonra da od tutub, yanan dodaqlarımdan öpür.... Biz həsrətlə öpüşürük... Ilk öpüşün izi yanağımda qalır. Elə bu anların səadəti on beş ilə dəyərmiş. Bu qədər gözlədiyimizə görə peşiman oluruq. Sonra bu acı peşimançılıqlardan əvəz çıxmaq üçün yenidən bir–birimizə yaxınlaşmaq üçün məqam gözləyirik. Yuxudan ayılıram.

… Televizorum köhnəlib daha göstərmir. Bizi dünyaya bağlayan səslərdən ötrü darıxıram. Durub təsadüfən yolüstü bir qohumun evinə iki- üç dəqiqəliyə… gedirəm. Içəri keçəndən sonra (təsadüfdümü?) ekranda R.-nı göstərirlər. Heç kəs heç nə hiss eləmir. Sonacan R-ya baxıram. Yolüstü gəldiyimə qətiyyən şübhə etməyən qohumum məni yola salır. Heç nə demədən sevincək evimə qayıdıram.

Bir neçə gün keçir… Gündüzdür. Yatmışam. Qəfildən durub, radionu açıram. R. danışır (Təsadüfdümü?)

Yenə xeyli vaxt keçir. Beş gün, on gün… Bərk darıxıram. Nə radiom işləyir, nə də televizorum. Səssizliyi qəbirstanlıq sükutuna bənzədirəm. Səssizlikdən qəbirdəki diri adam yerinə qorxuram. Yeganə həmdəmim olan telefonumla rəfiqəmə zəng edirəm. Ondan xahiş edirəm ki, R. ilə bağlı nə bilsə, nə eşitsə, televizorda nə görsə, məni məlumatlandırsın. Sözümü tamamlamamış «ANS»-dən R.nı

göstərirlər. Allah saxlamış rəfiqəm də təsadüfən sevincək televizorun səsini mənə telefonla eşitdirib, çatdırır. Təsadüfdümü?

Yenə həmin ərəfədə yuxuda gördüm ki, mötəbər bir zalda oturub hansısa çox mötəbər bir şəxsi gözləyirik. Qəfildən qapı açılır… Bizim gözlədiyimizin əksinə çox sadə bir əhvalda R. içəri keçir. Rəyasət heyətində oturmuş indi allah rəhmətinə getmiş institutumuzun keçmiş direktoru təmkinlə ayağa qalxıb, R.-nı təqdim edir.

– Xətai dövründən… ən yaxşı Azərbaycan dilində yazan yazıçıdır. və s.

Yuxuda dövr sözü tam yerinə düşmüşdü. Sanki keçmiş idi. Yuxuda R. heç kəsə əhəmiyyət vermədən düz mənim yanıma gəldi. Mən onun lap gənclik dövrünü görürdüm. Çoxdanın tanışı kimi arxayınca R.-nın stolun üstünə töküb mənə göstərmək istədiyi qızılı sarı rəngli açıqcalara baxmağa başladıq… Yuxudan sonrakı həmin günümü xoş və maraqlı keçirdim. Çoxlu hörmətlər gördüm. Haqqımda yazılan məqalə ilə tanış oldum qəzetdə yazılarım göründü, üstəlik R-nı N. muzeyinə direktor qoydular və s.

R. ilə aramızda belə möcüzələr minlərlədir. Odur ki, qətiyyətlə deyirəm ki, bizim aramızdakı Allahdır. Mən də R. da elə Allahın öz iradəsi ilə doğmalaşmışıq. Bizi indiyəcən də sağ- salamat saxlayan Tanrı özüdür. Bilirəm və inanıram ki, mənimlə R. arasında olan bu bağlılıqlar ən azı xoşbağlılıqlardır. Xoşbəxtlik də var. Xoş bağlıq da var. Bizimki hər ikisindəndir. Biz bir- birimizə görə həm xoşbəxtik, həm də bir- birimizlə xoş bağlıyıq.

Mən sosial sahədə R. ilə dənizə qovuşan çay kimi xoşbəxtəm. R. ilə yerdən havaya millənən təyyarə kimi ənginliklərə təkrarən qovuşuram. Içərimdə pak, ülvü duyğular aşıb daşır.

Yuxuda yenə şirin bir mayenin, qızılgül qoxusunun ətrini ciyərlərimə çəkirəm. R. sellefon torbadan qənd qabına xırda–xırda doğranmış qənd tökür. Yuxudan qəndin səsinə ayılsam da aşikarda yerə səpələnmiş qənd görürəm. Mandarin, apelsin ətrinin iyini hiss edirəm. Xırda–xırda doğranmış, hər yerə səpələnmiş qənd. Yuxudan ayılıb bayatı yazıram. R.ilə bayatı ilə danışıram. Bundan sonra da elə hey bayatı yazanda öz yuxumu, ayılmaq istəmədiyim vüsal havalı, xumar, şirin yuxumu, ləzzətli, məhəbbətli, ilahi yuxumu

xatırlayıram... Yuxuda əlim toxunanda yanımdakı qənd qabıdan aşıb yerə səpələnmiş qəndləri aşikarda qənd qabına yığıram. Fikrimdə artıq bəşəriyyəti və sevənləri Insan dininə, Tanrıya və sevdiklərinə inama çağırıram. R. ilə qovuşsaq… R. getsə, qayıtmağa məcbur eləmərəm. Özgə qadının sevdasına düşüb, qayıtmaq istəsə, bağışlamaram.

Allaha minnətdarlıq ən üstün duadır. Allahla vasitəsiz əlaqəyə girirəm. R–nı mənə elə beləcə, gecə varsa bəxş etdiyi üçün Tanrını, Tanrıdan gəldiyi üçün R–nı sevirəm. Çox illər bundan əvvəl əl açıb göylərdən istədiyim, göylərdən nazil olmuş R–nı.

Indi «Can kimdir, canan kimdir»–i ayırd etmədən, edə bilmədən eşqə qovuşuram. Tərəddüdsüz eşqə. R–nın tərəddüdsüz eşqinə. Bu eşqdir. Məhəbbət bu imiş. Cənnət məhəbbət imiş.

Əxlaqsızlıqdakı üçüncü bədxah kəsdən fərqli eşqdə, məhəbbətdə üçüncü şəxs–şəxsiyyət Tanrıdır. R–nın və mənim – IKIMIZIN də – xeyirxahımız olan... TANRI.

Tanrıya yar ola–ola xəyalən R. ilə cənnət eşqinə düşürük Cənnəti axtarıb ona qovuşmaq istəyirik.

Eşqin bir cüt qanadı var. Səmavi məhəbbətimizlə. Eşq üstündə hər anımız bayatılaşır.

# *YARA MÜCDƏLƏRIM VAR*

## *Ə Z I Z I M*

**1**
Əzizim anan ola,
Anlıyan, anan ola.
Dar gündə, dar macalda,
Yanımda anam ola.

**2**
Əzizim anam yaxşı,
Öz atam, anam yaxşı,
Mən deyəm yar anlıya,
Yar deyə anam yaxşı.

**3**
Əzizim anılmazsan,
Anmasan, anılmazsan.
Anlıyan yarı ansan,
Ölüncə yanılmazsan.

**4**
Əzizim vüsaldadır,
Hicranda, vüsaldadır.
Yarı-yara bab eylə,
Gör necə vüsal dadır.

**5**
Əzizim həsrətdədir,
Hicranda, həsrətdədir.
Məhəbbətdən yazıram,
Hər misram həsrət dadır.

**6**
Əzizim ağıl olsun,
Sevəndə ağıl olsun.
Yar yarına qovuşsun
Məcnunlar nağıl olsun.

**7**
Əzizim Leyli qara,
Gecədir, Leyli qara.
Məcnun çöllərə düşüb,
O hara, Leyli ora.

**8**
Əzizim Sona ola,
Göl ola, Sona ola.
Sona Xəyal yar sevə,
Sonası Sona ola.

**9**
Əzizim yarı-yarım,
Yarı mən, yarı yarım.
«Yar» –deyib, ağlayıram
Var yardan yarıyanım?

**10**
Əzizim qoynundadır,
Qolları qoynundadır.
Mənim gəzdiyim Cənnət,
Yarımın qoynundadır.

**11**
Əzizim yerdə gedər,
Sağ olan yerdə gedər.

**12**
Əzizim oyanmaram,
Yatmışam, oyanmaram,

Ölüm sağlıqdan uca,
Ölənlər köydə gedər.

Sən mənə qənim çıxdın
Neyləsəm, qınanmaram.

**13**

Əzizim məndən doymur,
Ha sevir, məndən doymur.
Sinəm söz xəzinəsi,
Yar içir, gözdən qoymur.

**14**

Əzizim səhər oldu,
Dan atdı, səhər oldu.
Yarı ürəkdən sevdim,
Vüsalsız zəhər oldu.

**15**

Əzizim tək qalammır,
Cüt gəzir, tək qalammır,
Nişan alıb, vururam
Yenə cütdür, talanmır.

**16**

Əzizim yazıq olub,
Yar yaman yazıq olub,
Mən eşqin dəryasıyam
Yar ümman azıb, yolu.

**17**

Əzizim Vətən yarım,
Yar Vətən, Vətən yarım.
Bircə mənnən dil tapmır,
Quş kimi ötən yarım.

**18**

Əzizim yamyaşıldır,
Ağaclar yamyaşıldır,
Mən bir haram yar sevdim
Qalanlar qardaşımdır.

**19**

Əzizim ox atan yar,
Yay çəkib, ox atan yar,
Mənnən sevişib yatıb,
Oyanmır, o yatan yar.

**20**

Əzizim hər yerdədir,
Gözəl yar hər yerdədir,
Siz ha baxın, görünməz,
Mən baxım, hər yerdədir.

**21**

Əzizim işi çoxdur,
Iş görür, işi çoxdur,
Necə desəm anlayır,
Eşqə vərdişi çoxdur.

**22**

Əzizim incə-incə,
Iş görür, incə-incə.
Yarım mahnı oxuyur,
Hər sözü ürəyimcə.

**23**

Əzizim aldadıram,
Hamını aldadıdram,
Yarı yuxuda sevib,
Eşqindən bal dadıram.

**24**

Əzizim bihuş olur,
Huş gedir, bihuş olur.
Özgə yarı sevmərəm,
Öz sevdiyim nuş olur.

**25**

Əzizim ilan kimi,

**26**

Əzizim oyan, oyan,

Dolanır ilan kimi,
Sarmaşır can almağa,
Açılır alan kimi.

Yatmısan, oyan-oyan!
Düşdüm eşqin oduna
Bişmişəm bu yan, o yan.

**27**

Əzizim min bir gecə,
Hər gecə, min bir gecə,
Yara nağıl deyirəm,
Dillənmir, dinmir gecə.

**28**

Əzizim zaman gedir,
Gün gedir, zaman gedir,
Yarım tələsik gəlib,
Qoymayın, aman gedir.

**29**

Əzizim gözəl yardır,
Gözəldi, gözəl yardı,
Mən o yardan doymuram,
Gözəldi, ixtiyardı.

**30**

Əzizim mehribandır,
Yar mənə mehribandır.
Gündə bir can alıram
Yar verir, mehri vardır.

**31**

Əzizim qələm qaşdı,
Ağ üzdü, qələm qaşdı.
Məğrur yarım dözmədi,
Axır mənə əl açdı.

**32**

Əzizim incəldi yar,
Üzüldü, incəldi yar.
Məndən bir «həri» alıb,
On beş il dincəldi yar.

**33**

Əzizim can alanam,
«Can»-demə «can» alanam.
Sən cansan, mən də canan,
Ömrünə calananam.

**34**

Əzizim dözümlüdür,
Çox dözür, dözümlüdür,
Ha içirtdim keflənə,
Keflənmir, özümlüdür.

**35**

Əzizim dəmirdəndir,
Qayadan, dəmirdəndir,
Özüm Naxçıvanlıyam,
Yarım Kürdəmirdəndir.

**36**

Əzizim həyalıdı,
Sevgidə həyalıdı.
Yarım özgəyə yardı,
Məndəki xəyalıdı.

**37**

Əzizim gecə gəldi,
Gec gəldi, gecə gəldi.
Can istədim yar verdi,
Can aldı, necə gəldi.

**38**

Əzizim gözün açıq,
Qulağın, gözün açıq,
Məni sevib, ad aldın,
Alnın ağ, üzün açıq.

**39**

**40**

Əzizim qoşa yataq,
Naz balınc, qoşa yataq.
Həyatda qoşa gəzək,
Behiştdə qoşa yataq.

Əzizim xoş gələn yar,
Xoş baxıb, xoş gələn yar.
Ürəyimə yol tapıb,
Gözlərindən gülən yar.

**41**

Əzizim tələsən yar,
Səbirsiz, tələsən yar.
Mən ov, sən də ov tutan,
Çox mahir tələsən yar.

**42**

Əzizim saymaz yarım,
Kimsəni saymaz yarım.
Əhddən on beş il ötüb
.Hicrandan doymaz yarım.

**43**

Əzizim yarım-yarım,
Üz bölüm, yarım-yarım,
Qoy üzünü üzümə,
Birləşsin yarın-yarım.

**44**

Əzizim əlin böyük,
Zərgərsən, əlin böyük.
Sözdə zər işi gördün,
Söhbətdə elin böyük.

**45**

Əzizim Nizamidi,
Məhsəti, Nizamidi.
Ədəblə yatan elin,
Məqsədi nizam idi.

**46**

Əzizim ağıllıdır,
Üzdə göz ağıllıdır.
Yar qələmqaş şirindil,
Xırdagöz ağıllıdır.

**47**

Əzizim söhbət etdik,
Xəyalda söhbət etdik.
Biz ruhən sevənlərik,
Ruhsuza töhmət etdik.

**48**

Əzizim marağı var,
Yarı var, yarağı var,
Sarılanda canıma,
Zəhrində mar ağu var.

**49**

Əzizim səsi tutar
Əl vurar, səsi tutar.
Yaman isti oğlandır
Öpüşləri səs udar.

**50**

Əzizim öyməlidir,
Ucadır, öyməlidir,
Ha dedim ürək açsın,
Köynəyi düyməlidir.

**51**

Əzizim vaxtdan uca,
Allahdır vaxtdan uca.
Vəhşi at yarım ola
Minəm Allaha uçam.

**52**

Əzizim üz gözəl yar
Göz gözəl, üz gözəl yar.
Yarım bir yar sevibdir
Üzündə göz gəzər yar.

**53**
Əzizim yayılaydı,
Yay olub, yayılaydı
Tər-tərə qarışaydı
Bihuş yar ayılaydı.

**54**
Əzizim quş səsi var,
Quşbazdır quş səsi var.
Quşu quşunan tutar
Yarımın hiyləsi var.

**55**
Əzizim görüb məni
Göz qoyub, görüb məni.
Yarım öz kitabında
Ömrünə hörüb məni.

**56**
Əzizim bir yol gedər,
Naqislə bir yol gedər,
Mənnən düzənə çıxıb,
Biz gedərik, yol gedər.

**57**
Əzizim Bənövşədi,
Nərgizdi, bənövşədi,
Yardan üz döndərəndə
Ağ üzü bənövşədi.

**58**
Əzizim simuzərdi,
Daş-qaşdı, simuzərdi,
Rəfiqəm alim qızdı
Adı da Simuzərdi.

**59**
Əzizim bayatıdır,
Dördlükdür, bayatıdır.
Qısa yoldur, xoş sözdür
Gəzinən bəy atıdır.

**60**
Əzizim tar çalan yar,
Mizrabla tar çalan yar.
Qoşa cavanlaşırıq
Xoş gündü, qönçələn yar.

**61**
Əzizim quş səsidir,
Səs gəlir, quş səsidir.
Yarım qəribin, yadın
Doğması hər kəsidir.

**62**
Əzizim yarpaq-yarpaq
Yaşıldır, yarpaq-yarpaq.
Könlüm sənsiz titrəyir
Yarsansa, yar bax, yar bax.

**63**
Əzizim gecə keçdi,
Eşqinlə gecə keçdi.
Gün batdı, dan atdı, yar.
Bu gün də heçə geçdi.

**64**
Əzizim göyə çıxdı,
Tərifdən göyə çıxdı.
Yarımın üzü gülür,
Səmada göy açıqdır.

**65**
Əzizim yetim qaldı,
Ha dedim yetim qaldı.

**66**
Əzizim şüasına,
Gün bata, şüa sına.

Öldü ata-anası,
Ölmədi yetim, qaldı.

Yara üzərlik olam,
Mən yanam şüa sına.

**67**

Əzizim məhəbbətdi,
Sevgidi, məhəbbətdi.
Yarın yara ülfəti,
Uca incəsənətdi.

**68**

Əzizim gilənardı,
Gilasdı, gilənardı.
Yarın allanmış üzü
Dən olmuş gilə nardı.

**69**

Əzizim xəstə yarım,
Sağ canı, xəstə yarım.
Məndə saf can görübdür,
Dayanıb qəsdə yarım.

**70**

Əzizim bağa gəlir,
Bağçaya, bağa gəlir,
Yarıma «can» deyirəm
Yarım oynağa gəlir.

**71**

Əzizim bircə dənəm,
Yeganəm, bircə dənəm,
Məkkəmsən, Mədinəmsən,
Səndə də bircə mənəm.

**72**

Əzizim can qoyuram,
«Can» deyib, «can» qoyuram,
Nə sən məndən doyursan,
Nə mən səndən doyuram.

**73**

Əzizim Ay oluram,
Eşqinlə Ay oluram.
Gündüz Günəşə dönüb
Ay, gün tək yayılıram.

**74**

Əzizim məni dinlə,
Sən dinmə, məni dinlə,
Hatəm şaha dönmüşəm,
Sənə olan eşqimlə.

**75**

Əzizim heyran olar,
Sevənlər heyran olar.
Göylər hüsnünü görsə,
Ulduzlar Leylan olar.

**76**

Əzizim küpə çıxar,
Bəxtinə küpə çıxar.
Sinəm söz xəzinəsi
Ha qazsan küpə çıxar.

**77**

Əzizim mən yanıram,
Od tutub, mən yanıram.
Ha yanıram kül olam,
Odunam, qalanıram.

**78**

Əzizim can qalmadı,
Can getdi, can qalmadı.
Sinəm söz xəzinəsi
Payladım azalmadı.

**79**

Əzizim gözəl yazdım,

**80**

Əzizim danışan yar,

Gözəldən gözəl yazdım.
Göz açdım səni gördüm,
Gözəlsən, gözəl yazdım.

**81**

Əzizim Qızılquşam,
Qızılgül, Qızılquşam.
Hüsnünü vəsf etdikcə,
Mən sənə vurulmuşam.

**83**

Əzizim Aygün mənəm
Səma, Göy, Ay Gün mənəm.
Öləndə məni çağır,
«Aygün» desən ölmənəm.

**85**

Əzizim gəl bağ salaq,
Cənnət quraq, bağ salaq.
Çıxaq eşqin dağına,
Tanrılaşaq, sağ qalaq.

**87**

Əzizim sanasan yar,
Ulduzam, sanasan yar.
Vulkan tək qaynayıram,
Eşqimdən yanasan yar.

**89**

Əzizim qaş aldıram,
Qaş düzəm, qaş aldıram,
Eşqinə susamışdım,
Zəli tək boşaldıram.

**91**

Əzizim ləziz-ləziz,
Sevirik ləziz-ləziz.
Eşqimiz aşıb-daşır
Kəşfimiz ləziz-ləziz.

**93**

Susasan, danışam yar
Bir qəzetlik xəbərəm
Sənsiz tək qalmışam yar.

**82**

Əzizim yanaq-yanaq,
Od tutub, yanaq-yanaq,
Yandıqca yağım çıxır
Yağ yanır çanaq-çanaq.

**84**

Əzizim hədər oldu,
Tər tökdün, hədər oldu.
Qaydasız işlər gördün,
Faydasız zəhər oldu.

**86**

Əzizim cam vermisən,
Yuxuda cam vermisən.
Camda şərbət içirdib,
Eşqimə can vermisən.

**88**

Əzizim ayılıram,
Yatmışdım, ayılıram.
Qoynun cənnət bağçası
Ətirtək yayılıram.

**90**

Əzizim uzun dərə,
Dar dərə, uzun dərə.
Yara «həri» vermişəm
Gedib, üzük göndərə.

**92**

Əzizim doymadım mən,
Yarımdan doymadım mən.
Yara etibarım yox
Gözümdən qoymadım mən.

**94**

Əzizim ləziz nədi?
Ləzzətli, ləziz nədi?
Yarımın bir dili var
Ləzzətdən xəzinədi.

Əzizim bir an kimi,
Yaşadıq bir an kimi.
Xoşbəxt ömür sürürük,
Can ilə canan kimi.

**95**

Əzizim sözüm yoxdu,
Məst olduq, sözüm yoxdu.
Şil etdin, şikəst etdin,
Sərməstəm, sözüm yoxdu.

**96**

Əzizim xumar-xumar,
Inləyər xumar-xumar.
Öpərəm gözlərindən
Göz açmaz yumar-yumar.

**97**

Əzizim deyişmişəm,
Sübhədək deyişmişəm.
Nəyim var yara verib,
Ləzzətə dəyişmişəm.

**98**

Əzizim xandı- xandı,
Pəncərədən baxandı.
Ha deyirəm əl çəkmir,
Əlləridir, yaxamdır.

**99**

Əzizim gözəl yarım,
Hər şeyi gözəl yarım,
Aləmdə gözəl çoxdur,
Hamıdan əzəl yarım.

**100**

Əzizim getməz yarım,
Əl çəkib, getməz yarım.
Mən deyərəm, yar deyər
Eşqimiz bitməz yarım.

**101**

Əzizim on beş ildir,
Yar sevir on beş ildir.
Hər cür imtahan etdim
Yar eşqə stabildir.

**102**

Əzizim ax yar, ax yar,
Axtar yar, ax yar, ax yar.
Könlümdə min hikmət var,
Ha axtar ax yar, ax yar.

**103**

Əzizim izə düşür,
Yar gedib, izə düşür.
Səsi hər yerdən gəlir,
Qədəmi bizə düşür.

**104**

Əzizim kam alandı,
Yar məndən kam alandı.
Könlümə od salanda,
Qafqazdı, Savalandı.

**105**

Əzizim dözə yarım,
Dözmür yar, dözə yarım.
Ha yana desən gedir,
Bir gəlmir bizə yarım.

**106**

Əzizim dözümü var,
Yarımın dözümü var.
Mən onsuz dözəmmirəm,
Yar məndən dözüm umar.

**107**
Əzizim bəzən yarım,
Gəz dolan, bəzən yarım.
Eşqimə büllənd olub,
Eşqimlə gəzən yarım.

**108**
Əzizim Mehribandır,
Yar elə mehribandır.
Illərlə məni sevdi,
Hər anı mehribandı.

**109**
Əzizim hara gedir?
Yol tutub, hara gedir.
Fikrim hara gedirsə,
Yar yazıq ora gedir.

**110**
Əzizim doymaq olmur,
Yar, səndən doymaq olmur.
Bu dünya doyulandır,
Bir səndən doymaq olmur.

**111**
Əzizim xəyal şirin,
Yar şirin, xəyal şirin.
Mən baxaram, yar baxar
Lal kimi sual şirin.

**112**
Əzizim qələmqaşsan,
Qaragöz, qələmqaşsan.
Mən dərdindən dəliyəm
Sən niyə qəlbi daşsan?

**113**
Əzizim çiçək-çiçək,
Hər sözü çiçək çiçək,
Dodaqların badədir,
Şərbətdir dilin içək.

**114**
Əzizim beş aldı yar,
Dərs dedim, beş aldı yar.
Min yol imtahan etdim
Çaşmadı beş aldı yar.

**115**
Əzizim Lalə qandı,
Yar bağrı Lalə qandı.
Mən xoşbəxtəm, gülürəm,
Yar gülmür ağlağandır.

**116**
Əzizim əfsanəsən,
Əfsunsan, əfsanəsən
Sən Kərəmdən, Məcnundan,
Sağ qalan nişanəsən.

**117**
Əzizim söngün olsun,
Son olsun, söngün olsun.
Eşqimiz çiçək açsın,
Qəmimiz söngün olsun.

**118**
Əzizim danışıram,
Susuram, danışıram,
Içimdə bir sən varsan,
Səninlə qarışıram.

**119**
Əzizim bu Vətəndi
Doğma yurddur, vətəndi.
Vətən mənəm, vətən sən

**120**
Əzizim bir xəyal var.
Bir real, bir xəyal var.
Hər xəyal bir gerçəklik,

Qalanları ötəndi.

Bir gerçəklik hər an var.

**121**
Əzizim xallı yarım,
Nişanı xallı yarım.
Hər yerdə məni gəzir,
Məcnun misallı yarım.

**122**
Əzizim o haqdı yar,
Haqlıdı o, haqdı yar.
Haqq bizi qovuşdurar,
Haqqa haqqı haqq qıyar.

**123**
Əzizim bir yarım var,
Bir mənəm, bir yarım var.
Həsrət yaşadır məni,
Bilir intizarım var.

**124**
Əzizim sübh azanı,
Dan vaxtı, sübh azanı
Hamilə gecələrin
Var bir sübhə yozanı.

**125**
Əzizim əlim haqda,
Yol uzun, əlim haqda.
Yarı mənə haqq verib,
Gözləyirəm otaqda.

**126**
Əzizim tut ağacı,
Tutubdur tut ağacı.
Könlüm elə barlanıb,
Yazmaq olub əlacı.

**127**
Əzizim qanmaz salar,
Qan salan, qanmaz salar,
Qananı qanmaz etsən,
Qanan kimi qan salar.

**128**
Əzizim haqq iz qoyur,
Nahaqdan haqq iz qoyur.
Nahaqdan nahaq izlər
Haqlıdan haqq iz qoyur.

**129**
Əzizim möhlət verə,
Vaxt verə, möhlət verə,
Qələmim qalib gələ,
Qiyməti millət verə.

**130**
Əzizim tükümcənsən,
Başımda tüküm, cəm sən.
Hey səni düşünürəm
Dünyacan düşüncəm sən.

**131**
Əzizim düşmüş əldən,
Qalmamış, düşmüş əldən.
Bağın barı talanıb,
Bağbanam düşmüş əldən.

**132**
Əzizim dəsmalım yar,
Qətifəm, dəsmalım yar.
Səril, burul əynimdə
Bükülüm məst olum yar.

**133**
Əzizim qan ağladı,
Qan tökdü, qan ağladı.

**134**
Əzizim üzmüşəm yar,
Əlimi üzmüşəm yar.

Yarıma yadlar baxdı,
Könüldə can ağladı.

Dünəndən naz edirəm
Guya ki, küsmüşəm yar.

**135**

Əzizim qiymətlisən,
Qiymətdən qiymətli sən.
Mənə çox qiymət verdin.
Məndən səxavətli sən.

**136**

Əzizim oğul-oğul,
Əvəzsiz oğul-oğul.
Görmürsən, görünmürsən
Yeyirsən noğul, noğul.

**137**

Əzizim gör nə gündü?
Nə dəstgahdı, nə gündü?
Eşqimiz çiçək açır
Hər yer toydu, düyündü.

**138**

Əzizim pünhan sevdim,
Gizlində pünhan sevdim
Mən dedim «aşkar» sevək
Yar dedi «pünhan» sevdim.

**139**

Əzizim ola bilər,
Yolum bir ola bilər.
Səninlə  yolum olmaz
Ölümlə ola bilər.

**140**

Əzizim qısqan məni,
Qısqandır, qısqan məni.
Heç kəslə yolum olmaz,
Ölümə qısqan məni.

**141**

Əzizim qərar sızlar,
Hay verrəm, qərar sızlar.
Mən deyərəm, yar deyər,
Son olmaz, qərar sızlar.

**142**

Əzizim qarşılıqlı,
Qarışıq, qarşılıqlı.
Hər şey sadə, gözəldir
Məhəbbət qarşılıqlı.

**143**

Əzizim yellər əsir,
Dan atır, yellər əsir.
Üzün üzümə söykək
Nəfəsdən tellər əsir.

**144**

Əzizim çiçək yarım,
Tər-təzə, çiçək yarım.
Eşqimiz gül qoxuyur
Gəl şərbət içək yarım.

**145**

Əzizim davamıdır,
Ardıdır, davamıdır.
Ölüm son həyat deyil,
Ömrümün davamıdır.

**146**

Əzizim gülsən-gülsən,
Gülərəm gülsən-gülsən
Dilin gül qönçəsidir
Dodağı qönçə, gülsən.

**147**

Əzizim gülab çəkim,

**148**

Əzizim yuxusunda,

Güllərdən gülab çəkim,
Güldən gülməşəkərsən
Gülümsə gülab çəkim.

Məhəbbət yuxusunda.
Girib qızılgüllüyə,
Yatmışam qoxusunda.

**149**

Əzizim, ay əzizim,
Ay əzizdən əzizim,
Yağ- bal olub qarışdıq
Səndən necə əl üzüm?

**150**

Əzizim ağ kağızım,
Ağappaq, ağ kağızım.
Elə öpdün, dişlədin
Qızarıbdı, ağ üzüm.

**151**

Əzizim əziz-əziz,
Vüsalı əziz-əziz.
Yardan can istəyirəm,
Yar verir ləziz-ləziz.

**152**

Əzizim nə haldadır,
Məst olub, nə haldadır?
Yarım vüsal bağında
Toyda çal çağırdadır.

**153**

Əzizim gül bağçası,
Gül bağı, gül bağçası,
Yarım bağa su səpir
Gül qoxuyur baxçası.

**154**

Əzizim xəyalıdı,
Yarımın xəyalıdı
Yarım gecələr gəlir,
Gündüzlər həyalıdı.

**155**

Əzizim bağrım yarar,
Yar yarar, bağrım yarar.
Yarım alıcı Tərlan,
Qarmalar bağrım yarar.

**156**

Əzizim körük yanır…
Zəng çalır, körük yanır.
Nəfəsdən qəlbim qızır
Həvəsdən yar islanır.

**157**

Əzizim qızılgüllər,
Qızıl sap, qızıl güllər.
Iynə güllər bitirər,
Gülərlər, qızılgüllər.

**158**

Əzizim qurban kəsim,
Qurbana, qurban kəsim.
Yarın hər görüşünə
Handa bir qurban kəsim.

**159**

Əzizim o yar, o yar,
Sevdalım o yar, o yar.
Baxar, keçər yanımdan,
Ətrimi duyar, duyar.

**160**

Əzizim mehribandır,
Mehri var, mehribandır.
O mənim əzəl sevdam,
Mehrimdi, mehribandır.

**161**

**162**

Əzizim oynadırsan,
Aldadıb, oynadırsan.
Yalançı sevdaları,
Anladıb, oynadırsan.

Əzizim yaxşı sənsən,
Yaxşıdan yaxşı sənsən.
Mən hamını tanıdım,
Hamıdan yaxşı sənsən.

**163**

Əzizim bir an oldu,
O çınqı bir an oldu.
Məni titrədən baxış,
Könlümcə olan oldu.

**164**

Əzizim on dörd yaşda,
Baxışı on dörd yaşda,
Qafası kamil qafa
Qadası on dörd yaşda.

**165**

Əzizim sözü çatmır,
Yarımın sözü çatmır.
Diqqəti, qayğısı var,
Yanımda özü çatmır.

**166**

Əzizim qoruyuram,
Abrımı qoruyuram.
Yarım yanıma gəlmir,
Adımı qoruyuram.

**167**

Əzizim axtaran yar,
Tapmayıb, axtaran yar.
Ha çağırdım gəlmədin,
Gələrsən bir dayan yar.

**168**

Əzizim zərrəsinə,
Zərrənin zərrəsinə.
Yarım bir zərgər oğlan
Qurbanam kəlləsinə.

**169**

Əzizim zərgər gördüm,
Yuxuda zərgər gördüm,
Yarım zərdən xəzinə,
Göründü ülkər gördüm.

**170**

Əzizim bir gün gələr,
Gün gələr, bir gün gələr.
Yarım gözü açıqdır
Dindirər, bir gün görər.

**171**

Əzizim səbir daşı,
Səbr elə, səbir daşı.
Gəl mənə diqqətli ol
Diqqətdə səbir daşı.

**172**

Əzizim and içərəm,
Allaha and içərəm.
Yarım xəyanət etsə,
Mən quransız köçərəm.

**173**

Əzizim mən gəlməyəm
Qərib qızam gəlməyəm.
Yarım məndən çəkinir
Qorxur ki, bəyənməyəm.

**174**

Əzizim bazar gözəl,
Bar gözəl, bazar gözəl.
Göz Gözələ düşübdü,
Gözəllər bazar gözəl.

**175**
Əzizim kağız gözəl,
Ağappaq, kağız gözəl,
Dişləri dürdən incə
Fındıqdı ağız, gözəl.

**176**
Əzizim sözü açaq,
Söz açaq, sözü açaq.
Biz ürək açanlarıq,
Borcluyuq gözü açaq.

**177**
Əzizim şirin olar,
Yar yaman şirin olar.
Yara quyu qazaram
Çıxammaz dərin olar.

**178**
Əzizim dostlar haxdı,
Dost haxdı, dostlar haxdı.
Mənim bir sevgilim var,
O da göydə Allahdır.

**179**
Əzizim göndərərəm,
Görərəm, göndərərəm.
Yarı söhbətə tutub
Dilindən gül dərərəm.

**180**
Əzizim güldürərəm,
Gülərəm, güldürərəm.
Yarıma hər kəlməni,
Eyhamla bildirərəm.

**181**
Əzizim sən dözərsən,
Nazıma sən dözərsən.
Mən sənin sevgilinəm,
Sevgimə sən döz ərsən.

**182**
Əzizim haray-haray,
Yamandan haray-haray,
Yaxşı elə yaxşıdı,
Yamanlar yıxar saray.

**183**
Əzizim haram-haram,
Əl həzar, haram-haram.
Yarı, yarı öldürməz
Öldürər haram hərəm.

**184**
Əzizim üstələyən,
Zamanı üstələyən,
Bir daş altda, bir üstə,
Üstdə də üstələyən.

**185**
Əzizim sözə gələr,
Söz verər, sözə gələr.
Yarımla danışanda
Dincələr üzü gülər.

**186**
Əzizim bizə gələr,
Yar gələr, bizə gələr.
Yarıma qurban kəsim
Gözəldir, gözə gələr.

**187**
Əzizim oxuyar yar,
Mən çallam, oxuyar yar.
Mən bir qızılgül ollam

**188**
Əzizim gül kəsərəm,
Bağbanam gül kəsərəm,
Gözlərəm yarım gəlməz,

Qızılgül qoxuyar yar.

Inciyərəm, küsərəm.

**189**

Əzizim gül tək əsər,
Titrəşər, gül tək əsər.
Yarım haraya getsə,
Dağ gülü tək tələsər.

**190**

Əzizim tələsən yar,
Tez gedən, tələsən yar.
Mən vaxtın aşiqiyəm,
Hər zaman tələsən yar.

**191**

Əzizim neynim yarım?
Yar deyib, neynim yarım?
Gəl bir üz göstər mənə,
Açılsın eynim, yarım.

**192**

Əzizim həzz alaram,
Bəzərəm, həzz alaram,
Yarım mənə yar olar,
Gəzərəm həzz alaram.

**193**

Əzizim həzz alaram,
Yarımdan həzz alaram.
Yarım mənə yar olar
Öpərəm ləzz… alaram.

**194**

Əzizim gəzərəm yar
Dolanıb, gəzərəm yar.
Mən təkəm, mən tənhayam
Hicrindən bezərəm yar.

**195**

Əzizim görə bilməz,
Görməsəm, görə bilməz.
Sevib sevilməyən kəs
Sevgisin öyə bilməz.

**196**

Əzizim ürəyinə,
Könlü nə, ürəyi nə?
Yar bir tikan batırıb
Könlümün ürəyinə.

**197**

Əzizim dil öyrəndin,
Dil verdin, dil öyrəndin.
Mən sənə könül verdim
Sən dil verdin, iyrəndim.

**198**

Əzizim şirin yeyə
Şirindən şirin yeyə.
Yarım məni aparar
Nişana, şirinliyə.

**199**

Əzizim şirin duyar,
Şirindən şirin duyar.
Yarıma söz deyərəm,
Yüzündən birin duyar.

**200**

Əzizim naxışım yar,
Xoş üzüm, naxışım yar.
Səndən mənə əmanət
Qıyğacı baxışın, yar.

**201**

Əzizim baxışından,
Qıyğacı baxışından,

**202**

Əzizim gələn yarım
Gəlmişdi gələn yarım.

Məndən gizlətdiyini
Öyrəndim baxışından.

Yara hədiyyə etdim
Bəyəndi, görən, yarım?

**203**
Əzizim dadlı damaq,
Ləzzətli, dadlı damaq.
Üç öpüş, bir dişdəmə,
Xoşuna gəldi yanaq?

**204**
Əzizim üstündədir,
Altında, üstündədir.
Gördüklərin nə idi?
Görmədin üstün nədi?

**205**
Əzizim qönçəsinə,
Düyməli qönçəsinə,
Bu bayramçalıq oldu
Qalanlar xonçasına.

**206**
Əzizim məşədi yar,
Hacıdı, məşədi yar.
Əla masabəyisən
Bu necə peşədi yar?

**207**
Əzizim naxışlıdı,
Billurdu, naxışlıdı.
Yarıma söz demərəm,
Yarım xoş baxışlıdı.

**208**
Əzizim başdı yara,
Elmli, başdı yara
Yarım əla ustatdır
Öpüb, alqışlayaram.

**209**
Əzizim daşlıyaram,
Daş atıb, daşlıyaram.
Sən necə əzab versən
Mən ancaq xoşluyaram.

**210**
Əzizim baş qoyaram,
Döşünə baş qoyaram.
Mən yardan ağıllıyam
Hər işdə çaş qoyaram.

**211**
Əzizim zərrəsinə,
Zər səpim zərrəsinə.
Mənim yarım kəllədi,
Nər kəsim kəlləsinə.

**212**
Əzizim ismi pünhan,
Gözəldir cismi pünhan
Oynadıb oxuyram
Çaş qalıb, eşqi pünhan.

**213**
Əzizim yaxşı yaram,
Yaxşıyam, yaxşı yaram.
Barışıb ülfət etsək
Qovuşsaq, yaşıyaram.

**214**
Əzizim boğuşdurar,
Boğuşar boğuşdurar.
Incidib güldürərəm
Yar məni bağışdıyar.

**215**
Əzizim incəlim yar,

**216**
Əzizim dili şəkər,

Nazlanım, incəlim yar,
Dodağımda öpüş var
Öpüşək dincəlim yar.

Dili bal, dili şəkər.
Dindirər gülümsərik
Gülüşü, gülü şəkər.

**217**

Əzizim gözəlliklər,
Istəklər, gözəlliklər.
Eşq olsun bu həyata
Çırtlasın üzərliklər.

**218**

Əzizim payın qalıb,
Görüşdə payın qalıb.
Sənə bir hədiyyəm var
Gözlərəm «hayın» qalıb.

**219**

Əzizim havasına,
Ayrılıq havasına,
Yetsin bu pıçıltılar
Son qoyaq, dava sına.

**220**

Əzizim titrəşələr,
Çiçəklər titrəşələr,
Ürək ürəyə olaq
Diləklər birləşələr.

**221**

Əzizim yavru yarım,
Yarına yavru yarım.
Arzular şirin-şirin
Qalmışıq ayrı yarım.

**222**

Əzizim ümüd gözəl,
Yeməkdən ümüd gözəl.
Bir gün görüşərik biz
Gümandan ümüd gözəl.

**223**

Əzizim əzizləşək,
Əziz ol, əzizləşək.
Allahdan ümüd dilə
Halallaşaq, birləşək.

**224**

Əzizim heyranım yar,
Vurğunum, heyranım yar.
Biz haqq aşiqləriyik,
Eşqimiz heyranın yar.

**225**

Əzizim Qızılgülə,
Şeh düşüb Qızılgülə.
Xarın ona meyli var,
Meh düşüb Qızılgülə.

**226**

Əzizim Qızılgülə,
Nərgizə, Qızılgülə,
Bülbül xarla davada
Qan düşüb Qızılgülə.

**227**

Əzizim eşidim mən,
Var olum, eşidim mən.
Yarım öpüş götürsün
Kor olum eşidim mən

**228**

Əzizim naz-naz ollam,
Nazlannam, naz-naz ollam.
Yarın işvələrindən
Bahar ollam, yaz ollam.

**229**

**230**

Əzizim Zərifəyəm,
Lətifəm, zərifəyəm,
Yarım him-cim eyləyir
Istəyir zərifləyəm.

Əzizim Ay oğlandır,
Pəh-pəhdi, ay oğlandır.
Elə zərif sevişir,
Mində bir say oğlandı.

**231**

Əzizim rayihələr
Xəfifdir, rayihələr.
Gecəni dan eylədik
Anmadı xəlifələr.

**232**

Əzizim oynaq oğlan,
Diribaş oynaq oğlan,
Dilindən bal damcılar
Dodaqdan qaymaq oğlan.

**233**

Əzizim atmayaydın
Ox tutub atmayaydın,
Oxu canımda qoyub
Aranı qatmayaydın.

**234**

Əzizim odlu baxış,
Od tökdü, odlu baxış.
Mən ondan görməyəcəm
Bir odu odlu baxış.

**235**

Əzizim görməmişsən,
Görməyən, görməmişsən.
Sənə bircə yol baxdım,
Əl çəkmirsən, qəmişsən.

**236**

Əzizim inciyərəm,
Incitsən, inciyərəm.
Sən özün görmüsən ki,
Mən necə ağ ciyərəm.

**237**

Əzizim Əzra gördüm,
Canalan Əzra gördüm.
Qorxdum təkcə ölməyə,
Mən səni ömrə hördüm.

**238**

Əzizim səhərədək,
Axşamdan səhərədək.
Qəmzədi, Nəzakətdi
Sevgidi səhərədək.

**239**

Əzizim sən aradın,
Axtardın, sən aradın.
Sənin günahın yoxdu,
Günahkardı arvadın.

**240**

Əzizim pəri gördüm,
Mən huri-pəri gördüm,
Əllərinə baxanda
Zəri, zərgəri gördüm.

**241**

Əzizim əl-amandı,
Odludu, əl amandı,
Ox vurdu, şikəst oldum
Qıvraxdı, oynağandı.

**242**

Əzizim kor deyilsən,
Gördüm ki, kor deyilsən,
Dəryaca qəmin vardı
Nə desəm «gor» deyirsən.

**243**
Əzizim gözəlliklər,
Gözəldi gözəlliklər.
Çirkin elə çirkindi,
Gözələ üzərliklər.

**244**
Əzizim qoşa yanaq,
Bir öpüş, qoşa yanaq,
Əhd etdik, peyman etdik,
Hər işdə qoşa yanaq.

**245**
Əzizim cinni-bəşər,
Cinnidi cinni-bəşər.
Oturub nizam etdim
Olubdu çinni bəşər.

**246**
Əzizim, işləyirəm,
Təzəcə işləyirəm.
Yar yaman aşiq olub
Dilimi dişləyirəm.

**247**
Əzizim sınaqlara,
Düşmüşəm sınaqlara,
Madonnada yemirdim,
Qalmışam çanaqlara.

**248**
Əzizim bilmədin yar,
Sirrimi bilmədin yar.
Sən getdin mən ağladım
Üzümə gülmədin yar.

**249**
Əzizim zərin hanı?
Zərin-zərgərin hanı?
Dedin zərgər oğluyam,
Yarım, pərgarın hanı?

**250**
Əzizim azar olsun
Qəhr olsun, azar olsun.
Indi ixtiyar məndə,
Yar olsun, bazar olsun.

**251**
Əzizim düyün-düyün
Düymədir düyün-düyün,
Yarım elə tələsir
Yuyulmur düyüm-düyüm.

**252**
Əzizim aşbaz yarım
Ac yarım, aşbaz yarım.
Yedirdib içirtmişəm
Olub eşqibaz yarım.

**253**
Əzizim yarımçıqdır,
Yar yaman yarımçıqdır.
Ha deyirəm öyrənsin
Öyrənmir, yarımçıqdı.

**254**
Əzizim yarımçıqdır,
Yarımdı, yarımçıqdı,
Yarımı öyrətməkdən,
Yar oldum, yarım çıxdı.

**255**
Əzizim qafa gördüm
Baş gördüm, qafa gördüm.
Başımı qaldıranda

**256**
Əzizim anılmadım,
Anmadım, anılmadım.
Yardan nişanə gördüm,

Odlu əjdaha gördüm.

Arifəm, yanılmadım.

**257**

Əzizim dəstəsi var,
Dostu var, dəstəsi var,
Yarım dəm-dəstgahlıdı
Başda ahəstəsi var.

**258**

Əzizim şuba alar,
Qış gələr şuba alar.
Ənnik-kirşan bilmərəm
Yar mənə şübhə olar.

**259**

Əzizim bağışladım
Bağlandım, bağışladım.
Yarım yaman çaş imiş
Göz yumub, ağuşladım.

**260**

Əzizim şirin yarım,
Şirindir, şirin yarım.
Min aşiqin içindən,
Seçmişəm birin yarım.

**261**

Əzizim xərcləmisən,
Çervonlar xərcləmisən.
Özün nökər olmusan
Xanımı bəsləmisən.

**262**

Əzizim açılıbdı,
Gör nələr açılıbdı,
Görüb aşiq olubdur
Yar məni qaçırıbdı.

**263**

Əzizim Güloğlana
Gül kimi Güloğlana.
Qorxuram qızlar ala
Açıq bəxtim bağlana.

**264**

Əzizim titrək-titrək,
Dodaqlar titrək-titrək,
Səni deyib durmuşam,
Baxışlar ürkək-ürkək.

**265**

Əzizim qaldı dünya,
Qocaldı qaldı, dünya,
Kim qazandı, kim yedi,
Şivəndi, qaldı dünya.

**266**

Əzizim qaldı dünya,
Dağıldı, yandı dünya,
Yar yarına qovuşa,
Görəm nə candı dünya.

**267**

Əzizim qaldı dünya,
Qocaldı qaldı dünya,
Kim gəlmişsə, gedəcək,
Gəlməmiş, qaldı dünya.

**268**

Əzizim yaraşan yox,
Yaraşar, yaraşan yox.
Sənə məhəbbətimdə
Mənimlə yarışan yox.

**269**

Əzizim havasıdır,
Səhərin havasıdır,

**270**

Əzizim surətinə,
Üzünə, surətinə,

Yar ürəyi xəstədir,
Nəfəsim davasıdır.

Işıq oldum, nur oldum,
Eşqinin sürətinə.

**271**

Əzizim surətinə,
Üzünə, surətinə,
Mən sənə vurulmuşam,
Vurğunam surətinə.

**272**

Əzizim kilidləri,
Bağlanan kilidləri.
Biz haqq aşiqləriyik
Açmışıq kilidləri.

**273**

Əzizim olmuşuq yar,
Olmurduq, olmuşuq yar.
Biz haqq aşiqləriyik,
Haqqa qovuşmuşuq, yar.

**274**

Əzizim Əlincədi
Arğıdı, Əlincədi,
Al əlimi əlinə,
Gör necə əlincədi.

**275**

Əzizim Əlincəyə,
Gəl gedək Əlincəyə.
Mən böyük əllərinə,
Sən aşiq əlincəyə.

**276**

Əzizim baxışlardı,
Qaş-gözdü, baxışlardı,
Yarım yanımdan keçib,
Məhəbbət bağışlardı.

**277**

Əzizim məcun yarım,
Məcundu, məcun yarım,
Gendən başımı gördü
Uçundu məcnun yarım.

**278**

Əzizim meşəlidi
Kolluqdu, meşəlidi.
Yar mənə nəzər saldı,
Keflidi, nəşəlidi.

**279**

Əzizim göyçəkdi yar,
Gözəldi, göyçəkdi yar.
Mən «yer» qurban eylədim
Yar qurban «göy» çəkdi yar.

**280**

Əzizim təzələndi,
Yuyundu, təzələndi.
Yara atmaca atdım,
Suyuldu, məzələndi.

**281**

Əzizim, əziz dedim
Istəklim, əziz dedim.
Yar mənə: «çox dadlısan»
Mən yara: «ləziz» dedim

**282**

Əzizim qoşa yanaq,
Qoşa göz, qoşa yanaq,
Gəl üz-üzə söykəyək,
Bu eşqə qoşa yanaq.

**283**

Əzizim qoşun ola,

**284**

Əzizim için-için,

El gələ, qoşun ola,
Yar məndən xəbər tutar
Millət qardaşım ola.

Yar könlümü, yar için,
Mən könül bəsləmişəm,
Yar diləyib, yar üçün.

**285**
Əzizim dağ havası,
Tərtəmiz, dağ havası.
Dilim yağ, dodağım bal,
Yar güdər tərhalvasın.

**286**
Əzizim keçər yarım,
Gilifdən keçər yarım.
Üç kəlmə söz deyərəm
Birini, seçər yarım.

**287**
Əzizim qaydalıdı,
Qanunlu, qaydalıdı.
Yar mənə hər cəhətdən
Xeyirli, faydalıdı.

**288**
Əzizim gülüm ola,
Çiçəyim, gülüm ola.
Yar gündüzlər sirdaşım,
Gecələr qulum ola.

**289**
Əzizim gur yandırın,
Çıraları gur yandırın.
Yarım yanımdan keçir,
Ürkütməyin, yan durun.

**290**
Əzizim üz-üzə yar,
Diz-dizə, üz-üzə yar.
Oturardıq baxardıq
Siz bizə, biz sizə yar.

**291**
Əzizim nərdivandı,
Düzülüb nərdivandı,
«Görmədik, tanımadıq»
Gördülər nərdivandı…

**292**
Əzizim ahəstədi,
Arxayın, ahəstədi.,
Nə dinir, nə danışır
Yar yaman ahəstədi.

**293**
Əzizim sozalan yar,
Kövrələn, sozalan yar.
«Can» dedi, könül verdim
Söz demir, söz alam yar.

**294**
Əzizim havasına,
Könlümün havasına,
Yara yar demişdim ki,
Qan dura, dava sına.

**295**
Əzizim göyçəkdi yar,
Top qara birçəkdi yar.
Mən yara «xəyal» dedim
Sən demə gerçəkdi yar.

**296**
Əzizim kişi ola,
Yar yaman kişi ola,
Gecələr qul eyləyəm
Eşqə vərdişi ola.

**297**

**298**

Əzizim gecə dedi,
Gündüz yox, gecə dedi,
Dedim nə bişirim yar?
Yar güldü «cücə» dedi.

Əzizim halvasıdır,
Sözü tər halvasıdır
Yarım mənə Adəmdir
Canım yar Həvvasıdır.

**299**

Əzizim dərd yüküm var,
Ağıram, dərd yüküm var.
Sənsiz can verirəm yar,
De necə tək çəkim yar?

**300**

Əzizim qulu sənsən,
Ağa mən, Qulu sənsən,
Eşqin şahzadəsi mən,
Qulu, qulduru sənsən.

**301**

Əzizim yazar yarım,
Pozdurar, yazar yarım.
Dünya çək - çevirdədir,
Deyin, düz durar yarım?

**302**

Əzizim düymələnsin,
Ləçəklər düymələnsin.
Günəş güllərə gülsün,
Qönçəyə zər çilənsin.

**303**

Əzizim düymələnsin,
Düymələr düymələnsin,
Bülbül güldən su içsin,
Dodaqlar nəşələnsin.

**304**

Əzizim, qan, anla, böl,
Dərdini qan, anla, böl,
Nadandan həmdəm olmaz,
Ariflə, qananla, böl.

**305**

Əzizim, közüm qaldı,
Alovum közüm qaldı.
Cavanlıq gəldi, getdi
Xatirə sözüm qaldı.

**306**

Əzizim, aldatmısan,
Almayıb, aldatmısan,
Inandırıb dilinə,
Nahaq qana batmısan.

**307**

Əzizim, oxşamasın,
Ağlayıb, oxşamasın.
Mərdliyin mənə oxşar,
Sərtliyin oxşamasın.

**308**

Əzizim qarışdırar,
Qarışar, qarışdırar.
Xəyaldı gəldi, getdi,
Heçliyə qarışdı yar.

**309**

Əzizim, yarın ölsün,
Yarın sağ, yarın ölsün.
Ac gözlərin sağ qalsın,
Qazancın, varın ölsün.

**310**

«Əzizim, yoxla məni,
Ox götür, oxla məni»
Mən çiçəkdən təmizəm
Maral ol, qoxla məni.

**311**
Əzizim, anla, məni,
Dinməmiş anla, məni.
Yaşat xəyallarında,
Xoş günlə, anla məni.

**312**
Əzizim, ovla məni,
Quş olum ovla mən,
Mən yolumdan dönmərəm
Inad ol tovla məni.

**313**
Əzizim, günə bağlı,
Zərrələr günə bağlı.
Hər insan öz kökünə,
Mən də sevgimə bağlı.

**314**
Əzizim, unudulma,
Unutma, unudulma!
Dərdlərin ən dərini
Unutma, unudulma.

**315**
Əzizim, elə yandım,
Vətənə, elə yandım.
Kərəm yandı kül oldu
Mən yazıq elə yandım.

**316**
Əzizim, gözdən düşdüm,
Yaş olub, gözdən düşdüm.
Sənə məhəbbətimlə
Gözlərdən, gözdən düşdüm.

**317**
Əzizim, sənsiz qaldım
Dağ idim çənsiz qaldım.
Qoynun vətənim idi
Getdin, vətənsiz qaldım.

**318**
Əzizim, lalam qaldı,
Nərgizim, lalam qaldı.
Özüm qaçdım, qurtardım,
Ortada balam qaldı.

**319**
Əzizim, sözə mənəm,
Nəğməyə, sözə mənəm.
Həsrət vüsal, yar yalan,
Nəğmədən söz əmənəm.

**320**
Əzizim, qana-qandı,
Qan dedin, qanan qandı.
Sən vurdun, qan çıxmadı,
Mən vurdum, qana-qandı?

**321**
Əzizim, talan oldum,
Talandım, talan oldum.
Mən sevdim, yadlar aldı
Eşqimdə yalan oldum.

**322**
Əzizim, kaşı yandı,
Bağrımın başı yandı.
Mən elə qələm çaldım
Qələmi naşı yandı.

**323**
Əzizim, məlhəm oldu,
«Can» dedi, məlhəm oldu.
O qədər yaxın gəldi

**324**
Əzizim, göydən gəldi,
Göylərdən, göydən gəldi,
Mən yerdə əl açmışdım

Yar mənə mərhəm oldu.

Yar gedib göydən gəldi.

**325**

Əzizim, yar o yardı,
Sevdiyim yar, o yardı,
Ürəyimə girən yar
Girib könlümü yardı.

**326**

Əzizim, kama çatdı,
Yar dedim kama çatdı.
Gündüz həsrət çəkmişdim,
Yarım axşama çatdı.

**327**

Əzizim, aldadarlar,
Aparıb aldadarlar,
Dilin qaymaqdı, baldı
Aparıb bal dadarlar.

**328**

Əzizim, gülüm yarım,
Çiçəyim, gülüm yarım.
Yar deyib çağırıram
Hardasan, görün yarım.

**329**

Əzizim, tabım yoxdu,
Hicrana tabım yoxdu.
Hay çəkdim uçdu getdi,
Pəncərəm, qapım yoxdu.

**330**

Əzizim, yardı o yar,
Sevdalı yardı o yar.
Çaşdırıb azdırıblar,
Salıblar diyar-diyar.

**331**

Əzizim qanad vurar,
Qıy vurar, qanad vurar.
Aramıza girənlər
Küsdürər qanad qırar.

**332**

Əzizim, yar azdırar,
Arsız yar, yar azdırar.
Məni yardan eyləyən,
Yara qəbir qazdırar.

**333**

Əzizim, inanma, gəl,
Yadlara inanma gəl,
Mən sənin sevgilinəm,
Tək gəzib dolanma, gəl.

**334**

Əzizim, gülab-gülə,
Gül-gülə, gülab-gülə,
Bülbülü xar yandırdı,
Gül döndü gülab gülə.

**335**

Əzizim, nəzər kəsib,
Nə pul, nə də zər kəsib,
Iblislərin dilini,
Söz kəsən, zərgər kəsib.

**336**

Əzizim, qənddandadır,
Şirin dilin qənd dadır.
Nə qədər şirinlik var,
Sevdiyin arvaddadır.

**337**

Əzizim, dilim-dilim,
Doğradım dilim-dilim.

**338**

Əzizim, zağ-zağ oldu,
Tər tökdü zağ-zağ oldu,

Sən dilbilməz quş idin
Dindin, oldun bülbülüm.

Mən özümə yar seçdim,
Yaralarım sağ oldu.

**339**
Əzizim, bağlanmışam,
Tər sözə bağlanmışam.
Göz görüb, könül sevib,
Göz-gözə bağlanmışam.

**340**
Əzizim, qarış-qarış,
Itirdim qarış-qarış,
Qarı düşmən dost olmaz,
Ha sülh desin, ha barış.

**341**
Əzizim, düz-düz olsun,
Təpələr düz-düz olsun.
Torpağıma göz dikən,
Doğransın, duz-duz olsun.

**342**
… ermənıyə,
Min lənət erməniyə,
Balamız bizə çatsın,
Bəlamız erməniyə.

**343**
Əzizim, bərəkətdir,
Duz- çörək bərəkətdir.
Düşmən hay- həşir olub,
Qana-qan, hərəkətdir.

**344**
Əzizim ağlar qalar,
Göy itər, ağlar qalar.
Mən vüsalsız ölərəm,
Sevgilim ağlar qalar.

**345**
Əzizim axtarmaram,
Özgə yar axtarmaram.
Səndən özgə yar sevsəm,
Eşqimiz olsun haram.

**346**
Əzizim, Vətəninəm,
Eşqinəm, Vətəninəm,
Sən mənim öz canımsan
Mən sənin və …. təninəm.

**347**
Əzizim, qısqanmışam,
Qızmışam, qısqanmışam,
Vətənə xor baxana
And içib tuşlanmışam.

**348**
Əzizim, tikə-tikə,
Vətənim tikə-tikə.
Sözlərim ağlar qaldı,
Öldüm yaş tökə-tökə.

**349**
Əzizim, şam tək yanar,
Əriyər, şam tək yanar.
Sən mənimlə olmasan,
Günəşim şam tək yanar.

**350**
Əzizim, Qaranquşdu,
Durnadı, Qaranquşdu.
Səni eşqibaz edən
Nə yaman haram quşdu?

**351**
Əzizim qələm çaldıq,

**352**
Əzizim, qırılmışdın,

Bağ saldıq qələm çaldıq,
Eşqimiz Vətən oldu
Keyf çəkdik, qələm çaldıq.

Qırmışdın, qırılmışdın,
Mən səni sevən gündən,
Gözündən durulmuşdun.

**353**

Əzizim, Göyərçindi,
Durnadı, Göyərçindi,
Yarı yuxuda gördüm,
Aşkardı yuxum çindi.

**354**

Əzizim, qaranlıqda,
Işıqda, qaranlıqda,
Sevənlər bədbəxt olar,
Qumluqda, viranlıqda.

**355**

Əzizim, işıq olsun
Nur olsun, işıq olsun
Vətəndə toy çalınsın
Sevənlər aşiq olsun.

**356**

Əzizim, ulduz olsun,
Ay olsun, ulduz olsun,
Vətənə toy çaldıraq
Qismətimiz nur olsun.

**357**

Əzizim, Qaranquşdu,
Durnadı, Qaranquşdu.
Gözləri gözəl yarım
Gözündən vuran quşdu.

**358**

Əzizim, «Vaxtdan uca»
Əmrdən, xoxdan uca,
Bəxtimə bir yar düşüb,
Üz cavan, bədən qoca.

**359**

Əzizim, yazıçıdır,
Yazandı, yazıçıdır,
Eşqimizə söz qoşduq
Vətəndə yaz içidir.

**360**

Əzizim, Marsdı mənim,
Ağrıdı, Qarsdı mənim,
Vüsal üçün yalvardım
Sevgilim tərsdi mənim.

**361**

Əzizim, Yuputerdir,
Marsınan Yupiterdir,
Sevənləri Venera
Sevgisi təzə-tərdi.

**362**

Əzizim, yandıraram,
Od vurram, yandıraram.
Sevgilim cavan olsa,
Eşq ilə qandıraram.

**363**

Əzizim, Merkuriyəm,
Saturn, Merkuriyəm,
Yarım ilhamdı mənə
Mən yar üçün huriyəm.

**364**

Əzizim, Azərbaycan,
Zər Azər, Azərbaycan,
Yarım bir qız bəyənib,
Heyrandı Azərbaycan.

**365**

**366**

Əzizim, millətlərdir,
Millətdi, millətlərdi,
Erməninin qazancı
Zillətdi, zillətlərdi.

Əzizim, qalib gələr,
Inşallah, qalib gələr.
Yarım şahdan elçidir,
Maşallah… qalib gələr.

**367**

Əzizim Əyyub kimi,
Peyğəmbər, Əyyub kimi,
Yolumda cəfa çəkib,
Dinməyib Əyyub kimi.

**368**

Əzizim, Allahımdır,
Sevgilim Allahımdır.
Gecələr yanımdadır
Sabahlar vallahımdır.

**369**

Əzizim Marsdan gəlib,
Haqq evdən, Marsdan gəlib.
Görüb ki, Göyərçinəm,
Rəhm edib, pəstdən gəlib.

**370**

Əzizim solmaz gülüm,
Soluxmaz, solmaz gülüm.
Sübhədək gül qoxuyar
Cəh-cəh vurur bülbülüm.

**371**

Əzizim, ağıl sevdin,
Ruhumda ağıl sezdin.
Gördün ruhum uşaqdır,
Öyrətdin, nağıl sevdim.

**372**

Əzizim, bənzərim yox,
Mərdlikdə bənzərim yox,
Sən binadan tərs gəldin,
Bəddikdə bənzərim yox.

**373**

Əzizim, elimiz var,
Külfətik, elimiz var,
Ikimiz külüng çaldıq,
Sərvətdən elmimiz var.

**374**

Əzizim, dost eyləyə,
Hamını dost eyləyə,
Alasan tərsa qızı,
Eşqini «Pust» eyləyə.

**375**

Əzizim, beşiyim sən,
Evim sən, eşiyim sən,
Mən gündüzlər yatıram
Elimdə keşiyim sən.

**376**

Əzizim, ağuşum sən,
Qoynum sən, ağuşum sən.
Mən abırlı gəlinəm
Yol vermə boğuşum mən.

**377**

Əzizim, dağıdaram,
Yolunda dağ udaram,
Sözlərində qan görsəm,
Ağzımda qan udaram.

**378**

Əzizim, əsl mənəm,
Xalis mən, əsl mənəm.
Sən yadelli sevmisən
Mən yadı bəyənmənəm.

**379**
Əzizim, gözüm sənsən,
Söhbətim, sözüm sənsən.
Yaman çox danışdırdın,
Hakimsən dözülməzsən.

**380**
Əzizim, Sədaqətdi,
Xəyaldı, sədaqətdi,
Eldən bir yar bəyəndim,
Məqsədi Məhbbətdi.

**381**
Əzizim, gündüz oldu,
Gəlmədi gündüz oldu.
Yar həsrəti çəkməkdən
Əridim düm-düz oldum.

**382**
Əzizim, yalan olmaz,
Eşqimdə yalan olmaz.
Sən əhdə sadiq olsan,
Arada qalan olmaz.

**383**
Əzizim çürüdənsən,
Çürüyü çürüdənsən,
Yaman xoflu oğlansan,
Ilhamdan, pəridənsən.

**384**
Əzizim, kişilən sən,
Bir qız al, kişilən sən,
Elim, obam sağ olsun,
Evimdə kişi sənsən.

**385**
Əzizim, «Kəllə qəndi»
Qiyməti … «Kəllə qəndi».
Üzümü açıq görüb,
Sevgilim mənə bənddi.

**386**
Əzizim, aça bilmir,
Bağlayıb, aça bilmir.
Iblis məndən qaçsa da,
Allahdan qaça bilmir.

**387**
Əzizim, Oxatansan,
Dünyaları qatansan,
Qurd ilə məclis qurub,
Quldurları satansan.

**388**
Əzizim, olmasaydı,
Saralıb solmasaydı,
Allah sirli qalardı,
Mələklər olmasaydı.

**389**
Əzizim, bitirəmməz,
Özgə gül bitirəmməz,
«Xarı bülbül» mənimdir,
Yadelli götürəmməz.

**390**
Əzizim öldürənsən,
Dirildib, öldürənsən.
Ölsəm Cənnətdə basdır
Gəl yanıma bəyənsən.

**391**
Əzizim, mənəm-mənəm,
Ümüdi ölən mənəm.
Yarı bütöv sevmişəm

**392**
Əzizim, bilişlidi,
Aşnalı, bilişlidi.
Dostları çox, özü tək

Pay verib böləmmənəm.

Məclisi gülüşlüdü.

**393**

Əzizim, acı-acı,
Ağladım acı-acı,
Səndən xəyanət gördüm
Yox dərdimin əlacı.

**394**

Əzizim, bu nə gündü?
Nə gündüzdü, nə gündü?
Ümüd öldü, mən qaldım,
Gümanlarım küskündü.

**395**

Əzizim, ayrılıqdı,
Son gündü, ayrılıqdı.
Eşqimiz qara gəldi,
Son gündü, ayrılıqdı.

**396**

Əzizim, ümüdsüzəm,
Əlacsız, ümüdsüzəm.
Bir boş qəbir qazıblar
Ağlayıb, ümüd süzəm.

**397**

Əzizim, dayanmaram,
Gedirəm, dayanmaram.
Ölmüşəm, eşitmirəm
Ha çağır oyanmaram.

**398**

Əzizim, hava sına,
Gün bata, hava sına,
Mən öldüm, köç eylədim
Ayrılıq havasına.

**399**

Əzizim, salamat qal,
Əlvida, salamat qal.
«O olmasın, bu olsun»
Kim olsa, orda yat qal.

**400**

Əzizim, tabım olmaz,
Quylannam, qapım olmaz.
Qəbrim üstə tək Söyüd
Əylənnəm saçın yolmaz.

**401**

Əzizim, Naxçıvandı,
Şərurdu, Naxçıvandı,
Yar söz kəsən zərgərdi
Hər sözü nəxşi-candı.

**402**

Əzizim, Çərçiboğan,
Şərurda Çərçiboğan,
Millət torpaq eşqinə
Diğanı çərçi boğan.

**403**

Əzizim, yaxşı atdı,
Ox atdı, yaxşı atdı.
Yarın atdığı oxlar
Sinəmdə amantadı.

**404**

Əzizim, oxatandı,
Ovçudu, oxatandı,
Məndə məhəbbət görüb,
Bihuşdu, o yatandı.

**405**

Əzizim, Merkuriyəm,
Saturn, Merkuriyəm.

**406**

Əzizim, ay Məhəbbət,
Ulduzlar, Ay məhəbbət,

Yarım Qılmandır mənə
Mən yar üçün huriyəm.

Axır sənə çatmışıq
Tələsmə, ay məhəbbət.

**407**

Əzizim, pəh-pəhdi ki,
Sübhədək pəh-pəhdi ki,
Axır məhəbbət gördük
Bu sevda ləzzətdi ki.

**408**

Əzizim, güləşmişik,
Güşt tutub güləşmişik.
Ağappaq yorğan, döşək
Üstündə gül əkmişik.

**409**

Əzizim, söz-sözə yük,
Göz-gözə, söz-sözə yük,
Sən mənə, mən də sənə,
Diz dizə, üz-üzə yük.

**410**

Əzizim, Səməndərdi,
Simurqdu, Səməndərdi,
Yar sinəmi oxşadı,
Köksümdən Səmən dərdi.

**411**

Əzizim, yaxşılardı,
Yaxşıdı, yaxşılardı,
Hər kəsin avazında
Bir yaxşı yarı vardı.

**412**

Əzizim, xəyallardı,
Xəyaldı, xəyallardı,
Mən bir eşqə düşmüşəm
Sevgilim xəyal yardı.

**413**

Əzizim, oylaqdadır,
Ceyranlar oylaqdadır,
Yardan bir öpüş aldım
Öpüşü qaymaq dadır.

**414**

Əzizim, yorulmazlar,
Sevənlər yorulmazlar.
Gözlər göz-gözə qalıb,
Sübh olub yumulmazlar.

**415**

Əzizim, xoşbəxt olub,
Xoş gəlib, xoşbəxt olub.
Sevgilim kama yetib,
Qisməti xoş bəxt olub.

**416**

Əzizim Rafdı mənim,
Həsrətim ahdı mənim,
Xəyanətlər qurtarıb,
Sevgilim safdı mənim.

**417**

Əzizim, əzizim sən,
Əzizdən əzizim sən,
Dodaqların al şərab,
Kişmişim, üzümüm sən.

**418**

Əzizim, səhər oldu,
Sözlər ləl, gövhər oldu,
Mən danışdım, yar susdu
Baxışı cövhər oldu.

**419**

Əzizim hər şey oldu,

**420**

Əzizim, doymaq olmaz,

Demişdin, hər şey oldu,
Əhdü-peyman eylədik
Sevişdik hər şey oldu.

Ağ üzdən doymaq olmaz.
Dilin baldan şirindir
Ləbin tək qaymaq olmaz.

**421**
Əzizim, nə şirindi,
Məhəbbət nə şirindi,
Hiclandan, vəslə yetdik
Şirin danış, şirin din.

**422**
Əzizim, hər gün olsun,
Sədaqət hər gün olsun,
Etibarlı dolanaq
Məhəbbət hər gün olsun.

**423**
Əzizim, gündüzüm sən,
Günəşim, gündüzüm sən.
Gecələr Ay işığım,
Gündüzlər gün üzüm sən.

**424**
Əzizim, Bakıdadır,
Şərurda, Bakıdadır,
Kənddə əncir əkiblər,
Meyvəsi Bakı dadır.

**425**
Əzizim, piyalədir,
Dodağı piyalədir,
Yarımı incitmişəm,
Bağrı qara lalədir.

**426**
Əzizim, nizam-nizam,
Söz deyər nizam-nizam.
Göz gözə tən gəlibdir,
Dəqiqdir, mizan-mizan.

**427**
Əzizim, yaraşıqdır,
Yar-yara yaraşıqdır.
Məni yuxuda görüb,
Oyanıb… yar aşıqdır.

**428**
Əzizim, məhəbbətdi,
Düzgüsü məhəbbətdi.
Yarım gözümə baxdı,
Güzgüsü məhəbbətdi.

**429**
Əzizim, qəmli-qəmli,
Ağlayar qəmli-qəmli,
Yarım elə qısqancdı
Baxışları sitəmli.

**430**
Əzizim əlbəyaxa,
Ölümlə əlbəyaxa.
Əzrail can istəyir,
Qalmışam əldə yaxa.

**431**
Əzizim, mehribandır,
Mehridir, Mehribandır,
Yarımın gül nəfəsi
Qarsdandır, Ağrıdandır.

**432**
Əzizim mənim olsun,
Mənimdi, mənim olsun,
Halala göz dikənə
Haramlar qənim olsun.

**433**

**434**

Əzizim, yazhayazdı,
Bahardı, yazhayazdı.
Yarla yarışa girdik,
Işimiz yazhayazdı.

Əzizim, yarım-yarım,
Yarım mən, yarım yarım.
Əlimizdə piyalə
Içirik, yarım-yarım.

**435**

Əzizim tər dodaqdır,
Tər sinə, tər dodaqdır.
Yarın gül nəfəsindən
Tər sinə, tər dodaqdır.

**436**

Əzizim, yaradandır,
Yaradır, yaradandır
Yarım bir ox atıbdır
Zərbindən yara qandır.

**437**

Əzizim, aldanmadım,
Aldadıb, aldanmadım.
Gülsün mənim dostlarım
Ağlasın, ölsün yadım.

**438**

Əzizim, naza gəlməz,
Qəmzəyə, naza gəlməz,
Yarım hər yerə gedər
Yalvarram, bizə gəlməz.

**439**

Əzizim, Əziz kimdi?
Sən kimsən, Əziz kimdi?
Sən qurban, mən də qurban
Düz danış, əziz kimdi?

**440**

Əzizim, qar adamdı,
Dayanıb qar adamdı,
Işıqsız, istisiz ev
Kənddəki qara damdı.

**441**

Əzizim, can ağrısı,
Yamandı can ağrısı.
Hicrandı ayrılıqdı
Amandı, can ağrı, su…

**442**

Əzizim, mümkün deyil,
Xoşbəxtlik mümkün deyil,
Bədbəxt gözdən tük çəkir
Xoş bəxti mümkün deyil.

**443**

Əzizim, süpürgədir,
Qomlanıb, süpürgədir.
Ləkə addan silinməz
Yerdəki… süpür gedir.

**444**

Əzizim, qızıl açar,
Qızıldan qızıl açar.
Qıfıllı könüllərə
Sevənlər qızıl açar.

**445**

Əzizim durnalardı,
Qatarda durnalardı,
Göylər dənizə dönüb,
Üfüqü Durna yardı.

**446**

Əzizim, meşəlikdi,
Meşədi, meşəlikdi,
Yarım üz tutub gedir
Yolu bənövşəlikdi.

**447**
Əzizim, şəlalədi,
Yamaclar şəlalədi,
Dağlara dön biçiblər
Qırçınlar al lalədi.

**448**
Əzizim gec olacaq,
Gəlsən də gec olacaq,
Mən nakam öləcəyəm
Söyüdlər saç yolacaq.

**449**
Əzizim atam yaxşı,
Mən yaxşı, atam yaxşı,
Atom dünyalar yıxır
Atana atam yaxşı.

**450**
Əzizim qar yağacaq,
Qış gəlib, qar yağacaq,
Yaman ala-çarpodur
Axşama qarrayacaq.

**451**
Əzizim qar işığı,
Xoş olar, qar işığı,
Dünyada ən yaman kəs
Insanın qarışığı.

**452**
Əzizim, yağ olaydın,
Ətirli yağ olaydın,
Sürtəydilər canıma
Eşqindən sağalaydım.

**453**
Əzizim, doymaq olmur.
Xoş üzdən doymaq olmur,
Elə şirin sevdasan
Könüldən qovmaq olmur.

**454**
Əzizim, işığım sən,
Nurum sən, işığım sən.
«Yar» - deyib oxuyursan
Elimdə aşığım sən.

**455**
Əzizim, çəkəmmirəm,
Həsrəti çəkəmmirəm,
Yar həsrəti çəkirəm
Eşqim çox, tükənmirəm.

**456**
Əzizim aşığım sən,
Yarım, yaraşığım sən,
Mən bir gözəl gəlinəm
Yarım, yar aşığım sən.

**457**
Əzizim, işıq verməz,
Göz verər, işıq verməz,
Yuxuda şərbət verər
Aşkarda qaşiq verməz.

**458**
Əzizim natavandı,
Heyrandı, Natavandı,
Eşqə bülənd olmuşuq
Yazıq yar natavandı.

**459**
Əzizim, əzizim sən,
Sahilim, dənizim sən,
Qapqara saçlarımda

**460**
Əzizim çalasıdır,
Cövhərdir, çalasıdır,
Yara çırtma vurublar

Ağ teldə dən izim sən.

Ilan tək çalasıdır.

**461**

Əzizim Allah vurar,
Arsızı Allah vurar.
Günahsıza əl vurma
Qolunu Allah qırar.

**462**

Əzizim beşiyim tək,
Evim tək, eşiym tək.
Mən yerdə tək qalmışam
Göydəki keşiym tək.

**463**

Əzizim ahda qaldı,
Günahda, ahda qaldı.
Bağlı qapılarıma
Açar Allahda qaldı.

**464**

Əzizim yellər alsın,
Hicranı yellər alsın,
Vüsal bizə yar olsun,
Dörd tərəf güllər olsun.

**465**

Əzizim mən itirdim,
Həm tapdım, həm itirdim.
Elə ağır itkisən
Yerində qəm bitirdim.

**466**

Əzizim baxa-baxa,
Üzünə baxa-baxa.
Ayrıldıq, ayrı düşdük,
Cana-can yaxa-yaxa.

**467**

Əzizim kilidləndik,
Bağlandıq kilidləndik,
Sən dedin mən dinlədim
Bənd olduq, kilidləndik.

**468**

Əzizim yolun açıq
Yol açıq, yolun açıq.
Gəl öpüşüb ayrılaq
Göz nəmli, qolum açıq.

**469**

Əzizim həsrətim var,
Könüldə həsrətim var.
Qol-qola yollar keçək
Puç olsun həsrətin, yar.

**470**

Əzizim öpüşlərin,
Öpüşün, öpüşlərin,
Üz qoyduğun naz balınc
Ağappaq, dik döşlərim.

**471**

Əzizim bənzərin yox,
Nadirsən, bənzərin yox.
Gündə min yol öldürdün,
Əlində xəncərin yox.

**472**

Əzizim sinəsinə,
Yar sıxa, sinəsinə.
Özüm özünə qurban
Nəğmələrim səsinə.

**473**

Əzizim qara bağlar,
Yas tutan qara bağlar.

**474**

Əzizim qalanlara,
Sözüm var qalanlara.

Vətəndən ayrı düşən,
Ümüdün hara bağlar?
Ən doğru yol ölümdür
Göz yumun yalanlara.

**475**
Əzizim dünya qaldı,
Mən öldüm, dünya qaldı.
Məzar sakit guşədi
Bu dünya qeylü-qaldı.

**476**
Əzizim zülümkardı
Qəddardır, zülümkardır.
Əzrail can alanda
Can laldı, zülüm kardır.

**477**
Əzizim dağ havası,
Dağ suyu, dağ havası.
Yazılan kitabların
Son sözü, saf havası.

**478**
Əzizim öyrən yarım,
Öy yarım, öyrən yarım.
Mən sənə könül verrəm
Almağı öyrən yarım.

**479**
Əzizim sayıq olur,
Satqınlar sayıq olur.
Vəfalı yar sevənlər
Eşqində ayıq olur.

**480**
Əzizim yola gələr
Barışar, yola gələr.
Yarım mənə söz verib
Baxaram yola, gələr.

**481**
Əzizim fağıram mən?
Utancaq, fağıram mən.
Ha gözlə, gəlmərəm yar,
Hər işdə ağıram mən.

**482**
Əzizim çox qoçaqsan
Mən fağır, sən qoçaqsan.
Dörd tərəf yağı düşmən
Sən əlimdə bıçaqsan.

**483**
Əzizim tutdum səni
Atdılar, tutdum səni.
Elə şirin sevdasan
Daddım, unutdum qəmi.

**484**
Əzizim təzə sənsən
Tər sənsən, təzə sənsən.
Öpdükcə gül açırsan
Öpürəm təzələn sən.

**485**
Əzizim özü sənsən
Gerçəyin özü sənsən.
Bəxtinə bir yar düşüb
Söhbəti sözü sənsən.

**486**
Əzizim gözdən qoyma,
Sez məni gözdən qoyma.
Bir kitablıq söhbətəm
Söhbətdən, sözdən doyma.

**487**
Əzizim bu yaşımda,

**488**
Əzizim nadir Allah,

Tək qaldım bu yaşımda.
Başım köksümə dəydi
Boğuldum göz yaşımda.

Tək Allah, nadir allah,
Göylərə əl açmışam,
Həyanım qadir Allah.

**489**

Əzizim göylər ulu,
Yer ulu, göylər ulu.
Sən bir adi bəndəsən
Mən dedim Allahqulu.

**490**

Əzizim könüllüsən,
Ürəkli, könüllüsən.
Mən qovğaya atıldım
Hamıdan könüllü sən.

**491**

Əzizim xoş halına,
Xoş üzə, xoş halına.
Dost olduq, könül tikdik,
Ayrıldıq xoş halınan.

**492**

Əzizim bu da məni,
O səni, bu da məni.
Öyrən, günahkaramsa
Yıx yerə, buda məni.

**493**

Əzizim təmiz insan,
Zəifdir təmiz insan.
Qızıla mis qatırlar
Xətaya təmiz insan.

**494**

Əzizim əlacı var,
Hər dərdin əlacı var.
Məhəbbət olmayanda
Hicrandı, əlacı var.

**495**

Əzizim heyran oldum,
Gör necə heyran oldum?!
Sevənlər gəldi, getdi
Təkcə mən Leylan oldum.

**496**

Əzizim heyrət etdim,
Eşqimə heyrət etdim.
Sən şamsan, mən pərvanə,
Sən də bax heyrət et, din.

**497**

Əzizim eşqimə bax
Qaynayan eşqimə bax.
Səsindəki avazə
Oynayan eşqimə bax.

**498**

Əzizim eşqə bir bax,
Ay aman, eşqə bir bax.
Ömrüm baş alıb gedir,
Dayanan eşqə bir bax.

**499**

Əzizim yaxın gəlmə,
Dur, dayan, yaxın gəlmə.
Harda olsan görəcəm
Qoy baxım, yaxın gəlmə.

**500**

Əzizim heyrətə bax,
Eşqə bax, heyrətə bax.
Sən durdun, mən dayandım
Vaxtdakı qeyrətə bax.

**501**

**502**

Əzizim hissimə bax,
Duyğuma, hissimə bax.
Mizrabı vur könlümə
Tarımda köksümə bax.

Əzizim sirri sənsən,
Eşqimin sirri sənsən,
Dünyada aşiq çoxdur,
Incisi, dürrü sənsən.

**503**

Əzizim qeyri-adi,
Insansan qeyri-adi.
Sinəndə bir ürək var
Dinəndə qeyri-adi.

**504**

Əzizim qovuşmadıq,
Yad olduq, qovuşmadıq.
Yad qolları açıldı
Yadlaşdıq, qovuşmadıq.

**505**

Əzizim, doyum səndən?
Neyləyim, doyum səndən?
Çalırsan, oynadırsan
Qoymursan doyum səndən.

**506**

Əzizim necə oldu?
Vuruldun, necə oldu?
Mən səni sevən gördüm
Heyrətdən gecə oldu.

**507**

Əzizim gizlin ola,
Eşqimiz gizlin ola.
Açmayam, ağartmayam
Allahdan iznim ola.

**508**

Əzizim gizlənirəm,
Qaçıram, gizlənirəm.
Sirrim səni sevməkdi
Açıram, gizlənirəm.

**509**

Əzizim gücüm çatmır,
Gücsüzəm, gücüm çatmır.
Dünya döyüş meydanı
Güclü sən, gücüm çatmır.

**510**

Əzizim yolum açıq,
Yol gözlə, yolum açıq.
Yolumda bir kimsə yox
Sən varsan, yolum açıq.

**511**

Əzizim həsrət ölmür
Can verir, həsrət ölmür.
Ölən məhəbbətlər çox
Intizar, həsrət ölmür.

**512**

Əzizim dərmanım sən,
Davam sən, dərmanım sən.
Can sənə intizardır
Hökmdə fərmanım sən.

**513**

Əzizim Allah-Allah,
Nə gözəl, Allah-Allah.
Mən sənə vurulmuşam
Heyranam Allah-Allah.

**514**

Əzizim qucağında,
Yarımın qucağında.
Yar mənə toy çaldırdı
Qız oldum bu çağımda.

**515**
Əzizim əl üzmürəm,
Eşqindən əl üzmürəm.
Elə böyük sevdasan
Xoşbəxtliyə dözmürəm.

**516**
Əzizim çaylar gözəl
Meşələr, çaylar gözəl.
Müstəqil yaşayırıq,
Həftələr, aylar gözəl.

**517**
Əzizim şahım sənsən
Şahzadəm, şahım sənsən.
Mən sənin dayaq nöqtən
Eldə pənahım sənsən.

**518**
Əzizim həzz alıram,
Can verib, həzz alıram.
Nəyim var yara verib
Yarımdan ləzz, alıram.

**519**
Əzizim məzmunum sən,
Məqsədim, məzmunum sən.
Mən sənin Leyli yarın
Eşqimdə Məcnunum sən.

**520**
Əzizim alim oğlan,
Elmli, alim oğlan.
Canımı qurban verdim
Yrəyini alım oğlan.

**521**
Əzizim birləşdi yar,
Baxışlar birləşdi yar.
Gözlər tele… dikildi
Xəyallar güləşdi yar.

**522**
Əzizim səhv eləməz,
Sərrafdır, səhv eləməz.
Mənim sevgili yarım
Allahdır, səhv eləməz.

**523**
Əzizim aşiq olub,
Yar yara aşiq olub.
Ay günəşdən nur alıb,
Bədr üzü işıq olub.

**524**
Əzizim dəstgahlı yar,
Dəmli yar, dəstgahlı yar.
Yara təam olmuşam
Mən dadlı, iştahlı yar.

**525**
Əzizim qarışıb yar,
Yar-yara qarışıb yar.
Mən yardayam, yar məndə
Vüsaldı, qovuşub yar.

**526**
Əzizim xumardı yar,
Mürgülü, xumardı yar.
Vüsaldan don geymişik
Gözləri tumardı yar.

**527**
Əzizim doyan yara,
Dünyadan doyan yara.
Sən dünyadan doysan da

**528**
Əzizim oyanam yar,
Yatmışam, oyanam yar.
Ha dedim «Yanma yarım»,

Mən səndən doyammaram.

Od tutub o yanan yar.

**529**

Əzizim oxun batıb,
Atıbsan oxun batıb.
Könlüm qız ürəyidir
Könlümə oxun yatıb.

**530**

Əzizim nəğmə dilər
Sevilən nəğmədilər.
Mən yuxuda olanda
Yar məndən nəğmə dilər.

**531**

Əzizim sən də gördün,
Mən gördün, sən də gördün.
Mən istəyən sən idin
Sən «səni» məndə gördün.

**532**

Əzizim heyrət budu,
Haqq budur, heyrət budur.
Yardakı diqqətə bax,
Eşqdəki qeyrət budur.

**533**

Əzizim ürəyə bax,
Arzuya, ürəyə bax.
Yar yarından yarıyıb,
Mətləbə, diləyə bax.

**534**

Əzizim atır, gedir,
Ox tutub, atır gedir.
Ox hədəfə dəyəndə,
Dayanır, dadır, gedir.

**535**

Əzizim güllə vurram,
Çiçəklə, güllə vurram.
Oxatan ox atanda,
Oxuna güllə vurram.

**536**

Əzizim anlamaqdır,
Dərk etmək, anlamaqdır.
Insanı xoşbəxt edən
Boş yerə yanmamaqdır.

**537**

Əzizim kor var görür,
Gözlünü kor var, görür.
Mən oturaq ev qızı
Sevgilim «kor yar» görür.

**538**

Əzizim bacısı yar,
Anası, bacısı yar.
Sənə vurduğum oxlar,
Eşqimin acısı yar.

**539**

Əzizim vəsfə gəlməz,
Şirin yar, vəsfə gəlməz.
Yarım məni sevibdir,
Özgə həvəsə gəlməz.

**540**

Əzizim şirindi yar,
Şirindən şirindi yar.
Mən şəkərəm, şərbətəm,
Şəkərdən şirindi yar.

**541**

Əzizim dan işığı,
Dan üzü, dan işığı.

**542**

Əzizim gül açmışam,
Eşqidən gül açmışam.

Yarı yara sevdirən,
Yarının danışığı.

Sən məni sevən gündən,
Eşqindən dil açmışam.

**543**

Əzizim atəşində
Eşqinin atəşində.
Yanan Simurq olmuşam
Külünün atəşindən.

**544**

Əzizim bədahətən,
Sevmişəm bədahətən.
Mənim istədiyim kəs
Bir yardır, bir də Vətən.

**545**

Əzizim həvəsim var,
Yarıma həvəsim var.
Mən yarı sevəcəyəm
Nə qədər nəfəsim var.

**546**

Əzizim nəfsim ölsün,
Yar ölsün, nəfsim ölsün?
Düşmüşəm eşq oduna
Yara həvəsim ölsün?

**547**

Əzizim, olan oldu,
Gün keçdi, olan oldu.
Mən sevdim, yar anladı,
Qalanlar yalan oldu.

**548**

Əzizim, işıq dolub,
Gözümə işıq dolub.
Yar yarına yaraşıb,
Görənlər aşıq olub.

**549**

Əzizim dözüm ola,
Güc ola, dözüm ola.
Mən yarla danışanda,
Gözündə sezim ola.

**550**

Əzizim yaşa dolaq,
Yaşayaq, yaşa dolaq.
Cənnətdə bir gor tikək,
Öləndə qoşa olaq.

**551**

Əzizim nişan dərdin
Tuş dərdin, nişan dərdin.
Gözündə dərd gəzdirdin
Dərdindən nişan dərdim.

**552**

Əzizim durulub yar,
Gözündən durulub yar.
Qırılıb düşmənləri,
Eşqimə vurulub yar.

**553**

Əzizim vurğun yarım,
Icəşən, vurğun yarım.
Səni bircə mən gördüm,
Bir də yollarım yarım.

**554**

Əzizim bitən sevda,
Qövr edir, bitən sevda.
Mənə göz yaşı qaldı
Sənə də ötən sevda.

**555**

Əzizim ağrısı yar,

**556**

Əzizim nazın çəkim,

Canımın ağrısı yar.
Başında düşüncələr
Könlümün sorğusu yar.

Naz elə, nazın çəkim.
Mən nazı səndə gördüm
Yox daha, nazın təki.

**557**

Əzizim nəvəsə bax
Arzuya, həvəsə bax.
Həfəsin can dərmanı,
Canımda nəfəsə bax.

**558**

Əzizim işıqlanır,
Işartın işıqlanır.
Gözündə göz izi var
Baxışlar aşıqlanır.

**559**

Əzizim ay işığı,
Ay nuru, ay işığı.
Mənim sevgili yarım,
Dünyanın yaraşığı.

**560**

Əzizim, ay əzizim,
Ay hər kəsdən təmizim.
Üzün Ay kimi parlaq,
Baxışların dan üzüm.

**561**

Əzizim doya bilmir,
Yar məndən doya bilmir.
Elə ləziz təamam
Gözündən qoya bilmir.

**562**

Əzizim sənə qurban
Mən qurban, sənə qurban.
Dünən qurban olmuşam
Qurbanam, yenə qurban.

**563**

Əzizim yiyəsi var,
Dünyanın yiyəsi var.
Hər yıxılb ölənin,
Bir sual niyəsi var.

**564**

Əzizim həsrətim sən,
Arzum sən, həsrətim sən.
Dünyada çox həsrət var,
Ən gözəl həsrətim sən.

**565**

Əzizim dözən yara,
Razıyam dözəm yara.
Nazlıyam, işvəliyəm,
Nazıyla gəzən yara.

**566**

Əzizim həyalı yar,
Utancaq, həyalı yar.
Məndəki şirin sevda
Eşqinin xəyalı yar.

**567**

Əzizim mərmər sinə,
Tər sinə, mərmər sinə.
Sevəndə düz yolla sev,
Oxşayanda tərsinə.

**568**

Əzizim yarım yatır,
Yar oyaq, yarım yatır.
Yar mənim aşiqimdir,
Yuxuma haram qatır.

**569**

**570**

Əzizim doymaq olmaz,
Xoş üzdən doymaq olmaz.
Vardan, kardan doyular
Xoş sözdən doymaq olmaz.

Əzizim xumar-xumar,
Baxıram xumar-xumar.
Yar mənə səcdəgahdır,
Baxışı tumar-tumar.

**571**

Əzizim təzə nədir?
Tər nədir, təzə nədir?
Yarımın hər eyhamı
Eşq üstə təzanədir.

**572**

Əzizim yarım odur,
Bütövüm, yarım odur.
Mən yarın dilarəsi,
Tanrıca varım odur.

**573**

Əzizim mən görürəm,
Bu nədi, mən görürəm?
Qönçə-qönçə tər güllər,
Mən xəzanam, ölürəm.

**574**

Əzizim yaşayıram,
Dərilib, yaşayıram.
Məni ölməyə qoyma,
Sənsiz naxoşlayıram.

**575**

Əzizim mən yaşadım,
Səninlə mən yaşadım.
Sən xoş sifət istədin,
Mən gül üz bağışladım.

**576**

Əzizim oğlan yarım,
Mehriban oğlan yarım.
Sən mənim Qızıl quşum
Şahinim, Tərlan yarım.

**577**

Əzizim gözüm yolda,
Sən yolda, gözüm yolda.
Tanrıdan səbrim olsun
Mən dözüm, dözsün yol da.

**578**

Əzizim ağlamaram
Gülərəm, ağlamaram.
Gəlsən könül açaram,
Gəlməsən, bağlamaram.

**579**

Əzizim dilindədi
Ixtiyar dilindədi.
Yara bir alma verdim
Doğradı, dilimlədi.

**580**

Əzizim Ley vurandır,
Göylərdən Ley vurandır.
Eşqi, atəşi çoxdur,
Könlümü doyurandır.

**581**

Əzizim vurğun olduq,
Vurulduq, vurğun olduq.
Eşq cəfası çəkməkdən
Üzüldük, yorğun olduq.

**582**

Əzizim mənzərələr,
Tablolar, mənzərələr.
Baxdım Vətənə sarı
Gözümdə pəncərələr.

**583**
Əzizim açıq-açıq,
Göy üzü açıq-açıq.
Dörd tərəf göy ormanlıq,
Qayalar çapıq-çapıq.

**584**
Əzizim quş tək uçur,
Tənhadır, quş tək uçur.
Həsrət çəkən könüllər,
Vüsala quş tək uçur.

**585**
Əzizim çiçəkliklər,
Otluqlar, çiçəkliklər.
Yadlara yalan qalsın
Yarıma gerçəkliklər.

**586**
Əzizim olmayaydı,
Saralıb, solmayaydı.
Ürək çapıq-çapıqdır
Qayalıq olmayaydı.

**587**
Əzizim keçib gəlib,
Qayadan keçib gəlib.
Yar könlümdən süzülən
Mayadaq içib, gəlib.

**588**
Əzizim güldürəndə,
Könlümü güldürəndə.
Yar mənim qənimimdir
Özgəni dindirəndə.

**589**
Əzizim qoşalaşaq,
Ayrıyıq, qoşalaşaq.
Gorda bir ev tikdirək
Cənnətdə doğmalaşaq.

**590**
Əzizim ona görə,
Hər şeyim ona görə.
Yazıb yaratmışam mən
Ölürəm ona görə.

**591**
Əzizim öldürdü yar,
Özünü öldürdü yar.
Acılara dözmədi
Ruhunu öldürdü yar.

**592**
Əzizim dözəmmərəm,
Sevmişəm, dözəmmərəm.
Sənsizliyi hiss etsəm,
Ölüncə bəzəmmərəm.

**593**
Əzizim çiçək yarım,
Gül yarım, çiçək yarım.
Küsüb barışmışıq biz
Əhdə and içək yarım.

**594**
Əzizim başı dolu
Ürəyi, başı dolu.
Yar məndən könül aldı
Gözünün yaşı dolu.

**595**
Əzizim durdu yarım,
Incidi, durdu yarım.
Huşum başımdan çıxdı

**596**
Əzizim gəldi yarım,
Üz verdim, gəldi yarım.
Üzgörənlik eyləyib

Oxunu vurdu yarım.

Nəyim var dərdi yarım.

**597**

Əzizim min cah ilə
Min cəlal, min cah ilə.
Yarım seyrana çıxır,
Şahanşala, şah ilə.

**598**

Əzizim göy dumandır,
Yer palçıq, göy dumandır.
Qoymayın yar ağlayır,
Köməksizdir, amandır.

**599**

Əzizim güllər gözəl,
Gül gözəl, güllər gözəl.
Yar dedi: - Sən gözəlsən,
Mən dedim: - Güllər gözəl.

**600**

Əzizim piyalədi,
Badədi, piyalədi.
Yarımla seyrə çıxdıq,
Dörd tərəf al lalədi.

**601**

Əzizim gün batandı,
Üfüqdü gün batandı.
Mən qızam, günəş üzlü,
Yar sərraf, oxatandı.

**602**

Əzizim Naxçıvanı,
Şirvani, Naxçıvanı.
Yarımla ağlaşmışıq
Sel basıbdır cahanı.

**603**

Əzizim yanar oda,
Düşmüşük yanar oda.
Biz yanıb, alov tutduq,
Kim düşsə, yanar o da.

**604**

Əzizim qaralmışıq,
Günəşdən qaralmışıq.
Eşqə düşüb, yanmışıq
Sönməyə qar almışıq.

**605**

Əzizim göy mavidir,
Yer işıq, göy mavidir.
Mən adi, yer qızıyam
Yar nadir, səmavidir.

**606**

Əzizim yarı qurban,
Yarı sağ, yarı qurban.
Eşqinin atəşinə
Şimalın qarı qurban.

**607**

Əzizim yata biləm,
Yatmıram, yata biləm.
Könül dolu yüküm var
Cəhd edib, ata biləm.

**608**

Əzizim gələmməzsən,
Enməzsən, gələmməzsən.
Sən səxavət kanısan,
Məndən eşq diləmməzsən.

**609**

Əzizim Ay dolanır,
Gün batır, Ay dolanır.

**610**

Əzizim tel qırıldı,
Ürəkdə tel qırıldı.

Fələk şübhə yaradır,
Hissiyyatlar bulanır.

Yarımdan ayrı düşdüm,
Elə bil el qırıldı.

**611**

Əzizim sehr sındı,
Ovsunlu sehr sındı.
Zərbədən istək öldü
Məhəbbət, mehr sındı.

**612**

Əzizim ox atdı yar,
Ümüdə ox atdı yar.
Könüldə ümüd sındı
Ürəyim o yatdı yar.

**613**

Əzizim cəryan oldu,
Eşqimdə cəryan oldu.
Soyuldu, yuyuldu yar,
Yrəyi üryan oldu.

**614**

Əzizim ümüd öldü,
Işaran ümüd oldu.
Ağladım, sızıldadım,
Nigaran ümüd öldü.

**615**

Əzizim yarım sağdı,
Yarım sol, yarım sağdı.
Cənnət qızılgüllükdür,
Cəhənnəm sarımsaqdı.

**616**

Əzizim düyümlənib
Rişələr düyümlənib.
Yarım yadla bağlanıb,
Ilgəklər düyümlənib.

**617**

Əzizim açа bildim,
Əlləşib, açа bildim.
Yar ortaqlı, mən təkəm,
Açılıb, qaça bildim.

**618**

Əzizim ayrılığa
Hicrana, ayrılığa.
Mən birliyə can atdım
Yar atdı ayrılığa.

**619**

Əzizim xofu yarım,
Ölümün xofu yarım.
Yolum qocalığadır,
Quranı oxu, yarım.

**620**

Əzizim ölümə sarı
Gedirik ölümə sarı.
Hicran haxladı bizi
Çəkdi ölüm hasarı.

**621**

Əzizim kaha dedi,
Bir uçuq kaha dedi.
Dedim: - mən də səninəm
- Bəsimdi. Daha…, dedi.

**622**

Əzizim həmdəmim ol,
Gündüzlər həmdəmim ol.
Unut, dərdi – qüssəni,
Gecələr həm mənim ol.

**623**

Əzizim gəlir, keçir,

**624**

Əzizim yara qurban,

Xəyallar gəlir, keçir.
Yarım könlünü açır
Sirrimi bilir, keçir.

Ürəyim yara qurban.
Yar mənə aşiq olub,
Sinədə tara qurban.

**625**

Əzizim xumar olduq
Yarımla xumar olduq.
Dünya bir toyxanaydı
Dünyaya bimar olduq.

**626**

Əzizim xoş gün idi
Xoş hava, xoş gün idi.
Yara bir ürək verdim,
Yarımın ad günüydü.

**627**

Əzizim hər il verəm,
Hədiyyə hər il verəm.
Yarıma ad günündə
Bir ürək, bir gül verəm.

**628**

Əzizim büsatlıdı,
Toyludu, büsatlıdı.
Yar bu eşqə düşəli,
Ağ günlü, ağ atlıdı.

**629**

Əzizim həyatım yar,
Sevdalım, həyatım yar.
Yarım «naz-naz» istədi,
Mən dedim: - Qoy yatım yar.

**630**

Əzizim başa düşdü,
Yar məni başa düşdü.
Qaldıq naşı əlində,
Işimiz daşa düşdü.

**631**

Əzizim axtardı yar,
Aradı, axtardı yar.
Yarını tapmayanlar
Düşüblər diyar-diyar.

**632**

Əzizim canı yarım,
Canımın canı yarım.
Mən sənin xoşbəxtinəm,
Başqası hanı, yarım?

**633**

Əzizim canı yarım
Cünımın canı yarım.
Mən sevdim Kürdəmiri
Sən sevdin Naxçıvanı.

**634**

Əzizim nadir gözəl,
Bənzərsiz, qadir gözəl.
Göydə Günün çıxması
Ay üzü bədir gözəl.

**635**

Əzizim başa düşdüm,
Anladım başa düşdüm.
Yoluma nadan çıxdı,
Yoldaşı başa düşdüm.

**636**

Əzizim zəkalıdı
Arifdi, zəkalıdı.
Məcnun misallı yarım,
Seçkindi, zəkalıdı.

**637**

**638**

Əzizim sağlamlığa,
Sağlığa, sağlamlığa.
Mən bir gözəl Ceyranam
Yar salıb oğlanlığa.

Əzizim bağlıyarlar
Açmazlar bağlıyarlar.
«Dəm-dəm» ilə, «dam-damı»
Seçməzlər ağlıyarlar.

**639**

Əzizim içindədir
Üstün nə, için nədir?
Adam var ki, tövlədir
Adam var düşüncədir.

**640**

Əzizim sağlamlığa,
Gəl gedək sağlamlığa.
Nəyimiz var nuş edək,
Xərcləyək cavanlığa.

**641**

Əzizim qocalığa,
Gedirik qocalığa.
Mən behiştə aşiqəm,
Yar ordan ucalığa.

**642**

Əzizim xoşbəxt yarım,
Xoş tale, xoş bəxt, yarım,
Yarımın ad günüydü
Edirdik söhbət yarım.

**643**

Əzizim pərim ola,
Ilhamım, pərim ola.
Bir sazlı aşiqim var,
Istərəm ərim ola.

**644**

Əzizim sirli oğlan,
Hikmətli, sirli oğlan.
Şirin danışığın var,
Hər sözün dürlü oğlan.

**645**

Əzizim bənd olanım
Dayanıb, bənd olanım.
Anlamaq, alın yazın
Başına mən dolanım.

**646**

Əzizim dözdü yarım,
Dayandı, dözdü yarım.
Sənə qulaq asmışam
Hər sözün düzdü, yarım.

**647**

Əzizim fəlsəfəsi,
Dünyanın fəlsəfəsi.
Mən yarda sözü sevdim,
Yar məndə xoş nəfəsi.

**648**

Əzizim qiymətlidir,
Hər anı qiymətlidir.
Mənim sevdiyim yarın,
Meydanı qeyrətlidir.

**649**

Əzizim sultan yarım,
Xan yarım, sultan yarım.
Gəl mərc qoşaq, əhd edək
Kim uduzsa, «can» yarım.

**650**

Əzizim sakinisən,
Əhlisən sakini sən.
Bu qərib dünyamızın,
Qəribə sakini sən.

**651**
Əzizim bu dağlara,
Şeh düşmüş bu dağlara.
Sən dodaq aşiqisən,
Rəhmin yoxdur ağlara.

**652**
Əzizim binə-binə
Ev tikir, binə-binə.
Düşdük min bir gecəyə
Ay dədə: - Bu nə, bu nə…?

**653**
Əzizim qəm-qəm dedi,
Ağladı, «qəm-qəm» - dedi.
Yara bir layla çaldım,
Yatmadı, «nəm-nəm» - dedi.

**654**
Əzizim bu nə işdi,
Nə vərdişdi, nə işdi?
Yar bir ağ yataq gördü
Susdu, yaralı düşdü.

**655**
Əzizim məstanəsən,
Xumarsan, məstanəsən.
Cənnət baxçasındayıq
Düşmüsən məst halə sən.

**656**
Əzizim qidasıdır,
Həzzidir, qidasıdır.
Yarın küskün baxışı
Məhəbbət vidasıdır.

**657**
Əzizim ayrılmarıq,
Gəzərik, ayrılmarıq.
Ölüm bizi ayırsa,
Ölərik…, ayrılmarıq.

**658**
Əzizim tərsinədi,
Tər ürək, tər sinədi.
Ürək sinədə gəzir,
Diləklər…, tərsinədi.

**659**
Əzizim sevdam yarım,
«Xəyyam» mən «Sevdam» yarım.
«Yar-yar» - deyib, sevişdik,
Yar yarım, sevdam yarım.

**660**
Əzizim gələ yarım,
Çağıram, gələ yarım.
Min cür vəd eyləmişəm,
Gözüylə görə yarım.

**661**
Əzizim əl uzana,
Vətənə əl uzana.
Düşmən torpaq istəyir,
Kim uda, kim qazana?!

**662**
Əzizim şahım yarım,
Şahzadəm, şahım yarım.
El bizə gülümsədi,
Əl etdi, şahım yarım.

**663**
Əzizim ilhamdı yar,
Pəridir, ilhamdı yar.
Sənə qurban demişəm,

**664**
Əzizim qanamasın,
Ta könlüm qanamasın.
Əcələ can verirəm

Qurbanın bu candı yar.

Qohumlar qınamasın.

**665**

Əzizim öləm gözəl,
Sakitcə öləm gözəl.
Yatıb ayılmayam mən
Öləndə, öləm gözəl.

**666**

Əzizim nəfəsim var,
Bir quru nəfəsim var.
Gəl onu da sən apar,
Əgər ki, həvəsin var.

**667**

Əzizim gəlin oldum,
Sevgili gəlin oldum.
Yarla cənnətə düşdük
Qoynunda həlim oldum.

**668**

Əzizim ətirlidir
Pudralı, ətirlidir.
Yarımın hər kəlməsi
Məhəbbət sətrlidir.

**669**

Əzizim yarım heyran
Mən heyran, yarım heyran.
Nə yar «Məcnun» olubdur,
Nə də mən yazıq Heyran.

**670**

Əzizim Ceyrana bax
Güyürə, Ceyrana bax.
Yarım ova çıxıbdır
Hüsnünə heyrana bax.

**671**

Əzizim yarım gülür,
Xoşbəxtdir, yarım gülür.
Yarım nazlı, xumarlı
Yarımla, yarım gülür.

**672**

Əzizim dəli Ceyran
Yar ovçu, dəli Ceyran.
Yarım bir ox atıbdır,
Gan verir, ölü… Ceyran.

**673**

Əzizim saza dönüb
Bahara, yaza dönüb.
Yarım aşiq olubdu
Ürəyi saza dönüb.

**674**

Əzizim dar köynəkdir
Məhəbbət dar köynəkdir.
Həzzin də atəşi var
Ha içilsə, köynəkdi.

**675**

Əzizim bitmir-bitmir
Haqq- hesab bitmir-bitmir.
Sənə olan marağım
Itilmir, itmir-itmir.

**676**

Əzizim nöqtəsinə?
Vergülü, nöqtəsi nə?
Düşüb eşqin gölünə
Çataydım nöqtəsinə.

**677**

Əzizim sıxar yarım
Özünə sıxar yarım.

**678**

Əzizim şirinliyi,
Həzzinin şirinliyi.

Köksümə iynə batıb
Rəhm elə çıxar, yarım.

Dadanı oda saldı
Ləzzinin şirinliyi.

**679**

Əzizim arı sancdı,
Könlümü arı sancdı.
Ha çalışdım çıxmadı
Gözümün nuru sancdı.

**680**

Əzizim zərrə kimi
Kiçikdir zərrə kimi.
Könlümə bir toz düşüb
Canıma zərbə kimi.

**681**

Əzizim daşa düşüb,
Qayaya, daşa düşüb.
Illərlə yanan könlüm,
Müşkülü başa düşüb.

**682**

Əzizim daşdan çıxmır
Qayadan, daşdan çıxmır.
Yarla eşqə düşmüşük
Neyləsək başdan çıxmır.

**683**

Əzizim hamardı yar,
Ütülü, hamardı yar.
Könlündə əyilən tel,
Çox zərif damardı yar.

**684**

Əzizim ülfətə bax
Eşqə bax, ülfətə bax.
Bir mənəm, bir də yarım
Evdəki külfətə bax.

**685**

Əzizim bilən yaram
Öyrənib, bilən yaram.
Yar «Him-cim» ustasıdır
Üzünə gülən yaram.

**686**

Əzizim qaradır yarım
Gözlərin qaradır yarım.
Sən mənimsən, mən sənin
De, bura haradır, yarım?

**687**

Əzizim qurban olum
Qurbanam, qurban olum.
Yarım ova çıxıbdır
Istərəm Ceyran olum..

**688**

Əzizim səfərdən gəlib
Parisdən, səfərdən gəlib.
Mən axşama demişdim
Tərlan yar səhərdən gəlib.

**689**

Əzizim ürəyi yarın,
Arzusu, ürəyi yarın.
Yar bir şahzadə oğlan
Mənəm «xörəyi» yarın.

**690**

Əzizim pərvaz yarım
Bəslənmiş, pərvaz yarım.
Bakı qara bürünüb
Evdədi, naz-naz yarım.

**691**

Əzizim səsi şirin,

**692**

Əzizim dadlıdı yar

Nəğməsi, səsi. Şirin.
Qoynu cənnət bağçası,
Doyanda «bəsi» şirin.

Halaldı, dadlıdı yar.
Yarıma qurban olum
Tərlan qanadlıdı yar.

**693**

Əzizim bir də gələ,
Qayıtdı, bir də gələ.
Gedəndə on ikiydi
Söz verdi, bir də gələ.

**694**

Əzizim bəyənmişəm
Sevmişəm, bəyənmişəm.
Yarım səssiz danışır
Lal dili öyrənmişəm.

**695**

Əzizim bəstəkardı
Tarzəndi, bəstəkardı.
Könlüm tar telləridir
Yar çalır, nəğməkardı.

**696**

Əzizim peşəkardı
Alimdi, peşəkardı.
Girdim yarın qoynuna
Yar dedi: - Gül Nigardı?!

**697**

Əzizim zəng çalır yar,
Dillənmir, zəng çalır yar.
Elə bil çərşənbədir
Qapıya şal salır yar.

**698**

Əzizim min bayatı,
Hər büsat, min bayatı.
Hər gün beş kəlmə kəsdik
Yazıldı bəy həyatı.

**699**

Əzizim qocalmaram,
Çox qalıb, qocalmaram.
Tay-tuşsuz, dost-tanışsız,
Qalmağı bacarmaram.

**700**

Əzizim can alansan?
Mən canam. Can alansan?
Yar dedi: - Qorxma Nigar
Sən mənimçün canansan.

**701**

Əzizim işıq sönüb
Içində işıq sönüb.
Yar oyanıb, mənsizdir
Gün batıb işıq sönüb.

**702**

Əzizim uçdu, getdi
Gəlmişdi uçdu getdi.
Yarı cənnətdə gördüm
Öpüşdük, qucdu getdi.

**703**

Əzizim yükü dünya
Könlümün yükü dünya.
Mən yazdım, sən oxudun
Birləşdi iki dünya.

**704**

Əzizim damla-damla,
Süzüldü damla-damla.
Yarım yadımda qaldı,
Xoş söhbət, xoşbəxt anla.

**705**

**706**

Əzizim açar yarım,
Könlümə açar yarım.
Dodaqlarım qıfıldır,
Dilidi açar, yarın.

Əzizim aldı yarım
Anıldı, aldı yarım.
«Cana» - «Can» qiymət dedim
Canımı «aldı» yarım.

**707**

Əzizim sözü dadlı
Söhbəti, sözü dadıl.
Mən könül kitablayam
Alim yarım savadlı.

**708**

Əzizim oxudu yar,
Çevirdi, oxudu yar.
Məni özümdən alıb,
Rəsmimi toxudu yar.

**709**

Əzizim qoşa yandıq,
Bu eşqə qoşa yandıq.
Yarla şəkil çkdirdik,
Dünyada qoşalandıq.

**710**

Əzizim qatar yarım,
Dünyanı qatar, yarım.
Yarımdan əvvəl ölsəm,
Axtarıb tapar yarım.

**711**

Əzizim çapar yarım,
Xəbərçi, çapar yarım.
Yarıma «yox» - deyərəm,
Dünyanı çapar yarım.

**712**

Əzizim, əzizim yar,
Dünyadan əzizim yar.
Mən dünyadan keçmişəm,
Səndən də əl üzüm yar?

**713**

Əzizim nə bilim yar,
Öyrənim? Nə bilim yar?
Sonuncu bir arzum var
Qucağında ölüm yar.

**714**

Əzizim könül azad,
Can azad, könül azad.
Yardan çox razı qaldım,
Yaşasın min il azad.

**715**

Əzizim duyar məni,
Öz yarım duyar məni.
Öləndə yar ağlasın,
Göz yaşı yuyar məni.

**716**

Əzizim ürək yarım,
Dil yarım, ürək yarım.
Eşqi dağın qarıdır,
Odur cənnət paltarım.

**717**

Əzizim ürəyimdi,
Canımdı, ürəyimdi.
Bu dünyam bir evdirsə,
Sevgilim dirəyimdir.

**718**

Əzizim «ona» qurban,
Qurbanam. Ona qurban.
Hər cür qurban demişəm
Indi də Sona qurban.

**719**
Əzizim yükü qurban,
«Könlümün yükü» qurban.
El kəsəndə bir kəsib
Mən kəsim iki qurban.

**720**
Əzizim ağıçı yar,
Ağlayan, açıçı yar.
Məni min adam ağlar
Hamıdan doğruçu yar.

**721**
Əzizim hiss elədim,
Eşqini hiss elədim.
Düşdün özgə eşqinə,
Yaxşını pis elədin.

**722**
Əzizim ehsanlıqdır,
Sevgimiz ehsanlıqdır.
Eşqimi sənə verdim
Oxunsaq, ehsanlıqdır.

**723**
Əzizim gücü çatmır,
Eşqimin gücü çatmır.
Pəncəm üstə qalxmışam,
Əlimin ucu çatmır.

**724**
Əzizim sevirəm ki,
O qədər sevirəm ki,
Desəm heç kəs inanmaz,
Görürsən? – demirəm ki?!

**725**
Əzizim anasan yar,
Oxuyub, anasan yar.
Birdən sənə çatmaram
Yazıram…, anasan yar.

**726**
Əzizim bilən yarım,
Sirrimi bilən yarım.
Dünya boyda bir eşqəm
Torba sal, dilən yarım.

**727**
Əzizim mum istəyir,
Dilimi mum istəyir.
Mən dünyam boyda dağam
Yar məndən qum istəyir.

**728**
Əzizim …çıltılar,
Çox gizlin …çıltılar.
Öpüşdə ən ləziz şey
Fərmanlı pıçıltılar.

**729**
Əzizim tarazlıq
Eşqidə tarazlıq.
Yara müjdələrim var
Hamısı irazılıq.

**730**
Əzizim yanaq-yanaq,
Allanıb, yanaq-yanaq.
Təkcə yar qucağında
Bəllənib yanaq-yanaq.

**731**
Əzizim dadlı damaq,
Dadlıdan dadlı damaq.
Allah, eşqini göndər,
Eşqidən yanaq-yanaq.

**732**
Əzizim olmayım yar,
Yaşayım, olmayım yar.
Sən dünyadan gedəndə,
Dəxi mən qalmayım yar.

**733**

**734**

Əzizim gül sarayı,
Gül eşqi, gül sarayı.
Bir yol adını çəkdim,
Eşitdi el harayı.

Əzizim əlli yaşın,
Mübarək əlli yaşın.
Bir ürək, min bayatı,
«Beş ulduz»dur şabaşım.

**735**

Əzizim bilmədi yar,
Bilmirdi, bilmədi yar.
Dindirdim, dillənmədi
Üzümə gülmədi, yar.

**736**

Əzizim bu fələkdən,
Bu çarxdan, bu fələkdən.
Könlümü şan-şan etdim
Ələnmədin ələkdən.

**737**

Əzizim neynirəm ta,
Hissini neynirəm ta.
Tarı qırandan sonra,
Mis simi neynirəm ta.

**738**

Əzizim kəsənim yox,
Yanımı kəsənim yox.
Təkcə damlarda qaldım,
Ta məndən küsənim yox.

**739**

Əzizim quran hara
Uçurdun, quran hara?
Sən elə könül qırdın
Töküldü viranalar.

**740**

Əzizim qırdı könül,
Doğradı, qırdı könül.
Sən elə ağladın ki,
Su basdı yurdu, könül.

**741**

Əzizim yazıq dünya,
Yaman gün, yazıq dünya.
Gör kimləri itirdin
Ürəyi qazıq dünya?!

**742**

Əzizim daha yanmaz,
Bir yanan, daha yanmaz.
Sən Könülü anmadın
Könül də daha anmaz.

# Ə Z İ Z İ Y Ə M

**1**
Əziziyəm ox ucu,
Ox ortası, ox ucu,
Sənə dastan söylərəm,
Oxatanım, oxucum.

**2**
Əziziyəm içində,
Gözlərimin içində,
Axtararsan tapmazsan,
Mən boyda, mən biçimdə.

**3**
Əziziyəm yaşandı,
Yaşanıldı, yaşandı.
Mənim bir kitabım var,
Eşqimizdən nişandı.

**4**
Əziziyəm qazlıdı,
Tər-təzədi, qazlıdı.
Eli əqrəb bürcündən
Elliyi Qafqazlıdı.

**5**
Əziziyəm mən yadam,
Yarım yaddır, mən yadam.
Yarım çox haramxordur,
Şükür yara, mən yadam.

**6**
Əziziyəm qızıyam,
Mən atamın qızıyam.
Yarım elçilik edib,
Elçilikdən razıyam.

**7**
Əziziyəm yar qıyar,
Xoş söhbəti yar qıyar.
Mən eşqin təşnəsiyəm
Bir yarım var, tər xiyar.

**8**
Əziziyəm paşa yar,
Şahzadə yar, paşa yar
Gülü gözündən vurdun,
Görüm yüz il yaşa yar.

**9**
Əziziyəm qovğa yar,
Davakar yar, qovğa yar.
Kimə dərmana getsən,
Qapısından qovlayar.

**10**
Əziziyəm qorxuya,
Hər hürküyə qorxuya,
Yarıma neyləyim ki,
Gələ, məndən qorxmuya?

**11**
Əziziyəm qorxuya,
Hər acıya, qorxuya.
Yarım bir şəvə oğlan,
Məlhəm olar qorxuya.

**12**
Əziziyəm gün ahı,
Gün şöləsi, gün ahı.
Oğlan ox atan imiş
Düşüb qıza günahı.

**13**
Əziziyəm, ağlama,
Gülməmisən, ağlama.
Qismətində mərd yoxdu,
Namərdə bel bağlama.

**14**
Əziziyəm, mən də sən,
Özün də sən, mən də sən.
Mən sənin könlündəyəm,
Sən özün də məndəsən.

**15**
Əziziyəm, görməsə,
Inciyərəm görməsə,
Gözüm gözümdən düşər
Hər gün yarı görməsə.

**16**
Əziziyəm, gəl, mənəm,
Dəniz mənəm, göl mənəm.
Bilsən təkcə mənimsən,
Qocalsam da ölmənəm.

**17**
Əziziyəm, dağ, dağdı,
Vurduğun ox dağ-dağdı.
Elə vurub çatmısan
Sağ yerim də dağ-dağdı.

**18**
Əziziyəm pəridir,
Huri, qılman pəridir,
Iblislər Allahların
Çekisti, zərgəridir.

**19**
Əziziyəm, qənd, şəkər,
Gülab şəkər, qənd şəkər.
Iblislər Allahların
Qızından şərbət çəkər.

**20**
Əziziyəm göz, ərlik,
Gözəl gəlin, göz ərlik.
Eşqimiz gözə gəlsə,
Yandıraram üzərlik.

**21**
Əziziyəm, naz-nazam,
Qəmzəliyəm, naz-nazam.
Sən məni sevən gündən,
Cavanam, qocalmazam.

**22**
Əziziyəm, qaçmaram,
Səninləyəm, qaçmaram,
Dil bağlı, gözüm bağlı,
Daha sirrlər açmaram.

**23**
Əziziyəm, elmin az,
Çox yazmısan, elmin az,
Sən mənə qələm çaldın
Mən də oldum elmi-naz.

**24**
Əziziyəm od oddu,
Torpaq torpaq, od oddu,
Mən nazla sığal çəkdim,
Yar çəkdi oddu, oddu.

**25**
Əziziyəm ox atdın,

**26**
Əziziyəm, zər gördüm,

Ovçu oldun, ox atdın,
Oxun könlümdə qaldı
Eşqimizi yaşatdın.

Qiymət dedim, zər gördüm,
Bir hədiyyə istədim
Göndərdin zər-zər gördüm.

**27**

Əziziyəm, bu eldir,
Bu obadır, bu eldir,
Mən Nigar, yar Koroğlu
Bu eldə Çənlibeldir.

**28**

Əziziyəm, atmaram,
Satılmaram, satmaram,
Vətən halal torpaqdır,
Yad torpaqda yatmaram.

**29**

Əziziyəm Aygünəm,
Sən Ay, Ulduz, mən Günəm,
Hamı yarıyla gəzir,
Bəs mən niyə seçkinəm?

**30**

Əziziyəm dilən gəz,
Vətənində dilən gəz.
Məndən «həri» almısan
Üzük göndər filankəs.

**31**

Əziziyəm, doymaram,
Məhəbbətdən doymaram,
Sən çox şorgöz kişisən,
Səni gözdən qoymaram.

**32**

Əziziyəm, pərisən,
Ayın, Günün zərisən
Heç kəsə könül vermə
Sən özgənin ərisən.

**33**

Əziziyəm, yaşa sən,
Əsil qızla yaşa sən.
Yadellidən yar olmaz,
Evlənsən də, boşa sən.

**34**

Əziziyəm, Azərdi,
Elnarədi, Azərdi,
Dinim müsəlman dini
Milliyyətim azərdi.

**35**

Əziziyəm, mən varam,
Sən varsansa, mən varam,
Sevirsən gəl könlüm al
Sevmirsən yalvarmanam.

**36**

Əziziyəm biçmişəm,
Qızılgülü biçmişəm,
Dilindən gülab çəkib,
Dodağında içmişəm.

**37**

Əziziyəm qalıbdır,
Dağlar çənsiz qalıbdır,
Mən yara qovuşmuşam
Dünya mənsiz qalıbdır.

**38**

Əziziyəm, yarsıdı,
Yar canımın yarsıdı,
Yarı odur, yarı mən
Bütövlük arzusudur.

**39**

Əziziyəm camdadır,
Eşq şərbəti camdadır,
Yarın fikri, xəyalı
Sevdiyi canandadır.

**40**

Əziziyəm, çıxaydım,
Bu həsrətdən çıxaydım,
Tutaydım yar əlindən
Ürəyimə sıxaydım.

**41**

Əziziyəm, tuş olsun,
Yar-yarına tuş olsun,
Yara könül vermişəm,
Halal olsun, nuş olsun.

**42**

Əziziyəm işimdi,
Məhəbbətlər işimdi,
Sənin də məhəbbətin
Olub mənə iş indi.

**43**

Əziziyəm, döyündün,
Ürəyimdə döyündün,
Gizlində kama yetdik
Aşkar oldu öyün di.

**44**

Əziziyəm, bəyəndi,
Yarım sevdi, bəyəndi.
Ellər təbrikə gəlsin
O yar mənim bəyimdi.

**45**

Əziziyəm, görünməz,
Yar heç kəsə görünməz.
Mənim şahidim odur,
O nə laldı, nə dinməz.

**46**

Əziziyəm, yar olsun,
Yar demişəm yar olsun.
Sevən, sevdirən odur
Sevsin bəxtiyar olsun.

**47**

Əziziyəm o bilər,
O sevdirib, o bilər,
Mən torpaqdan, gildənəm,
Yarım oddur, o bilər.

**48**

Əziziyəm, möcüzə,
Biz də gördük möcüzə
Qiyamət gəlib keçdi
Yatdınız, nə vecizə.

**49**

Əziziyəm tutmuşam,
Oyatmamış tutmuşam.
Eşq şərbəti içəndən
Dilavər, tutu quşam.

**50**

Əziziyəm od dadır,
Torpaqdadır, oddadır.
Mən yarı seməyəndə
Şirin dili öd dadır.

**51**

Əziziyəm, yar sızlar,
Mən ağlaram, yar sızlar,

**52**

Əziziyəm qan verrəm,
Yar-yar deyib, can verrəm,

Məndən yara deyərlər,
Qan verər, yaram sızlar.

Yarın bir sədasına
Bütöv Hayıstan verrəm.

**53**

Əziziyəm, mən qaldım,
Ümüd öldü, mən qaldım,
Gələnlər gedər oldu
Günahkarsan sən qaldın.

**54**

Əziziyəm, ağladım,
Könlümə daş bağladım,
Dörd tərəf göz-qulaqdı
Səs salmadın, ağladım.

**55**

Əziziyəm, boş oldu,
El dağıldı, boş oldu.
Sən yenə görünmədin
Qohum-qardaş çaş oldu.

**56**

Əziziyəm, qanlıdı,
Əli-üzü qanlıdı,
Yarım bir ox atıbdır,
Ölən Naxçıvanlıdı.

**57**

Əziziyəm sən keçdin,
Mən dayandım, sən keçdin,
Sən hardan gəlibsən ki,
Gəlib, ürəkdən keçdin?

**58**

Əziziyəm əladır
Qiymətlidir, əladır.
Mən yarımdan küsəndə,
Evləri Kərbəladır.

**59**

Əziziyəm sən tanı,
Bircə məni sən tanı.
Mən də, səni sevmişəm,
Sənsən könül soltanım.

**60**

Əziziyəm Arzudur,
Yar  istəkdir, arzudur.
Aramızda sərhəd var,
Can-cana tamarzıdır.

**61**

Əziziyəm tən mənəm,
Yarı torpaq, tən mənəm.
Ölsəm qoyun torpağa,
Torpaq mən, vətən mənəm.

**62**

Əziziyəm yol gedir,
Biz gedirik, yol gedir.
Ölüm bir yol salıbdır,
Dünyadan sağ-sol gedir.

**63**

Əziziyəm lalədi,
Bənövşədi, lalədi.
Yarım mahnı oxuyur
Hər sətiri nalədi.

**64**

Əziziyəm, camdadır,
Eşq şərbəti camdadır.
Yarın fikri, xəyalı,
Sevdiyi canandadır.

**65**

**66**

Əziziyəm acı yar,
Eşqimizin acı yar.
Dilim qənd, dodağım bal
Qismətimsə acı, yar.

Əziziyəm sən keçdin,
Mən dayandım, sən keçdin.
Hicranına mən dözdüm
Ayrılığı sən seçdin.

**67**

Əziziyəm qanadım,
Sındı qolum qanadım.
Bivəfa yar özüymüş,
Mən özgəni qınadım.

# Ə Z İ Z İ N Ə M

**1**

Əzizinəm sirr daşı,
Həcər daşı, sirr daşı.
Aynada yarı gördüm
Bircə odur sirr daşım.

**2**

Əzizinəm sel olar
Araz daşar, sel olar.
Yığılar qardaşlarım
Bir basılmaz el olar.

**3**

Əzizinəm gün ahı,
Gözlərimin günahı.
Oğlan bir ox atıbdır,
Olub qızın günahı.

**4**

Əzizinəm naməlum
Tanınmazdır naməlum.
Yarı ellər tanıyır
Mən olmuşam naməlum.

**5**

Əzizinəm alqışlar,
Əlçalmalar, alqışlar.
Yarım nə edir etsin
Məndən ona alqış var.

**6**

Əzizinəm qənd olar,
Şəkər olar, qənd olar.
Eşqim böyük şəhərdir,
Doğrasan min kənd olar.

**7**

Əzizinəm döndərim,
Yarı bazara göndərim.
Yar bazardan gəlincə,
Bəzənim, ətirlənim.

**8**

Əzizinəm dağ üstə,
Yarğan üstə, dağ üstə,
Mən yara bir ox vurdum,
Yar dağ vurdu dağ üstə.

**9**

**10**

Əzizinəm tən ola,
Yar yarına tən ola,
Dar gündə, son nəfəsdə
Həyanım Vətən ola.

Əzizinəm küsmüşəm,
Incimişəm, küsmüşəm.
Əslidən düymələri
Açmaqdan bezikmişəm.

**11**

Əzizinəm sevmişəm,
Sevilmişəm, sevmişəm.
Yarıma həyanam mən
Sevilmək olub peşəm.

**12**

Əzizinəm can verir,
Yarım cana can verir.
Məndən bir can alınca,
Yüz yol imtahan verir.

**13**

Əzizinəm beşdi-beş,
Qiymətləri beşdi-beş.
Baxsa sən də keçməzsən
Baxmadısa keçdi keç.

**14**

Əzizinəm baş qoyar,
Mərcə gələr, baş qoyar,
Yar imtahan götürsə,
Başdılara baş qoyar.

**15**

Əzizinəm axxx yarım,
Ləzzət yarım, axxx yarım.
Sənə bir öpüş verim
Öp, dadına bax yarım.

**16**

Əzizinəm yoxladıq
Təftiş etdik yoxladıq.
Haqlı oxbatmaz oldu
Haqsızları oxladıq.

**17**

Əzizinəm zəng çalır,
Telefonum zəng çalır.
Könlüm tarım tar simi
Zilə qalxır, alçalır.

**18**

Əzizinəm yazdım yar
Oxudum yar, yazdım yar.
Eşqindən üzüm güldü
Güldən güləm, yazdım yar.

**19**

Əzizinəm almaqdır,
Aldatmaqdır, almaqdır.
Dünyada ən şirin şey
Sağ salamat olmaqdır.

**20**

Əzizinəm bircəsən,
Yeganəsən, bircəsən.
Dünyada nə desən var
Səndən yoxdur, bircəsən.

**21**

Əzizinəm aşiqik,
Haqdan gələn aşiqik.
Sən aşiq, mən də aşiq
Haqqa olan aşiqik.

**22**

Əzizinəm səbr ilə,
Tanrı ilə, səbr ilə.
Səbirsiz çiy ət yeyər,
Çiylər bişər səbr ilə.

**23**
Əzizinəm güldür gül,
Gir ürəyə güldür, gül.
Qoynum gül bağçasıdır
Başdan başa güldür, gül.

**24**
Əzizinəm hər cürdür,
Yaman kəslər hər cürdür.
Mən yara səbirliyəm,
Yar gəlməyə məcburdur.

**25**
Əzizinəm düz ötü,
Əyri ötü, düz otu,
Məndə bir məlhəm vardı
Ölü görsə düz ötü.

**26**
Əzizinəm kəlməyəm
Hər sözü bir kəlməyəm.
Yar söz eşitsin deyə
Gərək bilə kəlləyəm.

**27**
Əzizinəm tək görrəm,
Mən yarımı tək görrəm.
Təklik Allaha xasdır
Mən yarsız mütləq görrəm.

**28**
Əzizinəm dərmandır,
Yar yarına dərmandır.
Yarla ayrılıq olsa,
Ölüm andı fərmandır.

**29**
Əzizinəm yaş yuyar,
Quru yeri yaş yuyar,
Yarıma him edərəm,
Sevişməyə başlıyar.

**30**
Əzizinəm açılmaz,
Gecə, üzün açılmaz,
Yarla düyün düşmüşük
Məşhərdə də açılmaz.

**31**
Əzizinəm göz yumar,
Günah işə göz yumar.
Göz görə, könül sevə
Hansı kişi göz yumar?!

**32**
Əzizinəm nur olur,
Qaranlıqlar nur olur.
Cənnətdə yar, yarınan
Cəhənnəmlik, qır olur.

**33**
Əzizinəm şeh düşüb,
Qızılgülə şeh düşüb,
Qızılgül xara vurğun
Bülbül peşman leş düşüb.

**34**
Əzizinəm qananıq,
Anlıyanıq qananıq.
Biz, arif sevənlərik,
Eşq odunda yananıq.

**35**
Əzizinəm bilmədin,
Gah bildin, gah bilmədin,

**36**
Əzizinəm ustası,
Yar yarının ustası.

Hər yerdə ağlar qaldın,
Bir üzümə gülmədin.

Yarın bir günahı var
O da «kökə xəstəsi».

**37**

Əzizinəm ədası,
Sevgilimin ədası.
Yarıma qurban olum,
Hər yerdə var sədası.

**38**

Əzizinəm düşmüşəm,
Yıxılmışam, düşmüşəm.
Yarım naşı, çiy idi,
Mən yarı bişirmişəm.

**39**

Əzizinəm qalmağa,
Gəlməmişəm qalmağa.
Sən ölmə, dözmərəm yar
Gəlləm saçım yolmağa.

**40**

Əziziyəm Siz oldu,
Sən çevrildi Siz oldu.
Uşaqdan ayrı düşdüm,
Yandı ürəksiz oldu.

**41**

Əzizinəm xoş gəldin,
Gerçək oldun, xoş gəldin.
Ölümə məhkum idin,
Dünyaya naxoş gəldin.

**42**

Əzizinəm ev evdir,
Qəbirstanlıq ev-evdir.
Sağlara bu dünya ev
Ölənə qəbir evdir.

**43**

Əzizinəm, od oddu,
Torpaq torpaq, od oddu.
Mən nazla sığal çəkdim,
Yar çəkdi oddu-oddu.

**44**

Əzizinəm bacım var,
Qardaşım var, bacım var.
Məndə məhəbbət vardır,
Eşqə ehtiyacım var.

**45**

Əzizinəm qəhr olur,
Əcr olur, qəhr olur.
Kasıblıqla keçən gün,
Aqil kəsə zəhr olur.

**46**

Əzizinəm çoxalar,
Bir dən artar, çoxalar.
Xəyanətin ağrısı,
Vaxt ötdükcə çox olar.

**47**

Əzizinəm vuruldum,
Heyran oldum, vuruldum.
Canıma bir od saldın.
Qanadımdan qırıldım.

**48**

Əzizinəm qaldırdım,
Başımı dik qaldırdım.
Sən tək yar görməmişdim,
Görən kimi lal durdum.

**49**

**50**

Əzizinəm görüm, gəl
Adi gözlə görüm gəl.
Yerdə heyrətim sənsən
Göylərdə də görüm, gəl.

Əzizinəm şüşəsən,
Zəriflikdə şüşə sən.
Neyləyim nəfsim ölsün
Sən gözümdən düşəsən?

**51**

Əzizinəm gəl quraq,
Gəl yaradaq, gəl quraq.
Məhəbbət işığında,
Cəh-cəh vuraq, gül qıraq.

**52**

Əzizinəm oynayaq,
Əzizləşək, oynayaq.
Mən sənə könül verim,
Sevişməkdən doymayaq.

**53**

Əzizinəm həyanam,
Acizlərə həyanam.
Qara mürəkkəb ilə
Saf havanı yayanam.

**54**

Əzizinəm qanadı,
Ilhamımın qanadı.
Yarım yada əl verdi,
Bağrım başı qanadı.

**55**

Əzizinəm çat durdu
Nar yetişdi, çat durdu.
Qurban olum Allaha,
Hər arzuma çatdırdı.

**56**

Əzizinəm izlənir,
Xoş duyğular izlənir.
Insan məhəbbət ilə
Ucalır, təmizlənir.

**57**

Əzizinəm yoxdu, yox,
Bircə səndən yoxdu, yox.
Dünyada nə desən var,
Səndən yoxdu, yoxdu, yox.

**58**

Əzizinəm məndədir,
Sən nədir, ya mən nədir?
Eşqimiz qarışıqdır
Söhbətin sinəmdədir.

**59**

Əzizinəm oxuyaq,
Yarla duet oxuyaq.
Yar çalsın, mən oxuyum,
Yarla çiçək qoxuyaq.

**60**

Əzizinəm şüşəsən,
Billur kimi şüşəsən.
Mən sənə neyləyim ki,
Eşq odunda bişəsən?

**61**

Əzizinəm bax belə,
Oxşa belə, bax belə.
Sən çox incə aşiqsən,
Oxşayırsa ax elə…

**62**

Əzizinəm yarıdı,
Sevən kəslər yarıdı.
Ağaclar qarla dolub
Qar qışın baharıdır.

**63**
Əzizinəm tər yarım,
Sütül yarım, tər yarım.
Mən tərin aşiqiyəm,
Sən isə betər…, yarım.

**64**
Əzizinəm güləsən,
Dindirəsən, güləsən.
Yazıram, oxuyuram,
Sən sevdamı görəsən.

**65**
Əzizinəm bu dağlar,
Bu obalar, bu dağlar.
Göydən qar səpələnir,
Ağappaqdır budaqlar.

**66**
Əzizinəm amandır,
Hicran dərdi, yamandır.
Dağlara qar yağıbdır,
Hər yan çəndi, dumandı.

**67**
Əzizinəm budadı,
Yar könlümü budadı.
Baxdım ümüdsüzlüyə
Gördüm dadi-bidadı.

**68**
Əzizinəm düşərik,
Dığırrannıq, düşərik.
Naşı aşbaz əlində
Pörtdənməmiş bişərik.

**69**
Əzizinəm soğanlıq,
Sarımsaqlıq, soğanlıq.
Bir kahamız olaydı,
Bir də quru yavanlıq.

**70**
Əzizinəm  alınır,
Yavaş-yavaş alınır.
Yarımla dil tapmışıq,
Yola xalı salınır.

**71**
Əzizinəm dil bilə,
Dodaq bilə, dil bilə.
Yarı yara bab eylə,
Qızılgülü bülbülə.

**72**
Əzizinəm olmadı,
Tək qaldı, cüt olmadı.
Bir gözəl oğlan sezdi
O gözəli ovladı.

**73**
Əzizinəm bab eylə,
Yarı yara bab eylə.
Miskini zəkalıya
Görən gündən ad eylə.

**74**
Əzizinəm xudadı,
Yarım sirri-xudadı.
Mən yarla əylənirəm,
Yar şirin yuxudadı.

**75**
Əzizinəm yatan yar,
Oyanan yar, yatan yar.

**76**
Əzizinəm dilimlən,
Dilim, dilim, dilimlən.

Yuxusu baldan şirin,
Yuxuma bal qatan yar.

Yar tutub öpüb məni
Dodağım nəm, dilim nəm.

**77**

Əzizinəm xan kimi,
Ağa kimi, xan kimi.
Ruhum canımdan çıxdı,
Gözdən yaş axan kimi.

**78**

Əzizinəm anlarda,
Saatlarda, anlarda.
Sevişdik, yaşa dolduq
Ötülmüş zamanlarda.

**79**

Əzizinəm yaşında,
Sənin əlli yaşında
Mən də mübarəkinəm,
Mübarəkdir yaşın da.

**80**

Əzizinəm qəm qazdım
Dərdi atdım, qəm qazdım.
Dünyada söz qalmadı
Hər nə vardı, mən yazdım.

**81**

R…, sağlıqla qal,
Sağ olaq, sağlıqla qal.
Mən ölsəm də, səninəm
Sən ölmə, sağlıqla qal.

**82**

Əzizinəm yan, könül,
Alış eşqə, yan könül.
Düşdün nadan əlinə,
Anan ölsün can, könül.

# M Ə N A Ş I Q

**1**

Mən aşiq dözən yara,
Sevdalı, dözən yara.
Tanrıdan diləyim var,
Xoş gələm, dözəm yara.

**2**

Mən aşiq yarım hanı?
Yarım mən, yarım hanı?
Gəzdim yurdu, cahanı
Dövlətim, varım hanı?

**3**

Mən aşiq gümanım yar,
Ümüdüm, gümanım yar.
Gəl əhdinə əməl et
Gəl qoyma qınanım yar.

**4**

Mən aşiq dan atanda,
Sübh vaxtı dan atanda,
Yar tumarlanıb gəlir
Mən nazlanıb, yatanda.

**5**

Mən aşiq quş səsinə,
Sübh vaxtı quş səsinə.
Əlim yarın döşündə

**6**

Mən aşiq atıb gedir,
Yar məni atıb gedir.
Yara «Getmə» deyirəm

Uymuşam nəğməsinə.

Arzuya çatıb, gedir…

**7**

Mən aşiq yar gələydi,
Arzum var, yar gələydi,
Könlüm diləklə dolu
Birini yar biləydi.

**8**

Mən aşiq qəmzəsinə,
Nazı nə, qəmzəsi nə,
Yarım zümzümə edir
Heyran zümzüməsinə.

**9**

Mən aşiq olana yar,
Tanrıya, olana yar,
Yardan inciyib gedəm
Başıma dolana yar.

**10**

Mən aşiq gülə nazam,
Çiçəyəm, gülə nazam.
Yar söz verdi, gəlmədi,
Inciyəm, mən nasazam.

**11**

Mən aşiq təranəsi,
Yarımın təranəsi,
Neynirəm yadda cənnət
Yarımın viranəsi.

**12**

Mən aşiq bu qəşəngdi,
Yar gözəl, yar qəşəngdi
Gah nazik pambıq örtük
Gah da ki, yun döşəkdi.

**13**

Mən aşiq naz balınca
Qu tükü, naz balınca,
Min cür naz eyləyirəm
Yar canımı alınca.

**14**

Mən aşiq abi kövsər
Zəm-zəmdi, abi-kövsər.
Yarın dili bal dadır
Nəfəsi abi kövsər.

**15**

Mən aşiq yazan yarım.
Yazandı, yazan yarım
Min cür nəğmə yazmışam.
Bir yerə yozan yarım.

**16**

Mən aşiq bəxti yarım
Bəxtim sən, bəxtiyarım,
Bəxtimi axtarırdım,
Gözümə baxdı yarım.

**17**

Mən aşiq doğru olsun,
Yalansa, doğru olsun
Mən yara könül verdim
Qoy yarım oğru olsun.

**18**

Mən aşiq gözəl üzə,
Xoş sözə, gözəl üzə.
Yarım səsimə vurğun,
Mən yarda gözəl üzə.

**19**

Mən aşiq şərəfinən.

**20**

Mən aşiq ana südü,

Şan ilə şərəfinən,
Yar mənə elçi durdu
Əshabi-sələfiynən.

Şirindir ana südü.
Yarımın hər zəng payı,
Mənimçün ana südü.

**21**

Mən aşiq dostlarıma,
Dostuma, dostlarıma.
Salam dua göndərrəm
Yaxşı tay-tuşlarıma.

**22**

Mən aşiq səndə qaldı,
Gözlərim səndə qaldı.
Sən elə qayğılıydın
Fikrim qüssəndə qaldı.

**23**

Mən aşiq əlacıdı,
Davası, əlacıdı.
Mən yarımın məlhəmi
Yar yaram əlacıdı.

**24**

Mən aşiq qorxudan yar
Qorxar yar, qorx udan yar.
Səni mən qurtaracam,
Məni də öz xudam yar.

**25**

Mən aşiq bərabərdir,
Yar mənə bərabərdir,
Mən yarın dilarəsi,
Yar mənə dilavərdir.

**26**

Mən aşiq əzab oğlan,
Utancaq, əzab oğlan.
Demə «səndən utannam»
Utansaq əzab ollam.

**27**

Mən aşiq məlhəm ola,
Yar mənə məlhəm ola,
Çıxaq eşqin bağına,
Atımız löhrəm ola.

**28**

Mən aşiq pərişandır,
Yar yaman pərişandır.
Mən gəlinəm, yar oğlan
Sabah toydu, nişandı.

**29**

Mən aşiq qara batdım,
Qar yağdı, qara batdım.
Yar ağappaq oğlandı
Qoynunda qara batdım.

**30**

Mən aşiq oğlan ola,
Yar mənə oğlan ola.
Yar məndən utanmaya
Görə nə dövran ola.

**31**

Mən aşiq quşlar oxur,
Quş oxur, quşlar oxur.
Yar ilə dil tapmışıq
Oxşar naxışlar oxur.

**32**

Mən aşiq qız əzabı,
Əzabdır, qız əzabı.
Bir kitab bağlamışam
Bir sual min cavabı.

**33**
Mən aşiq inci kəsim,
Zər kəsim, inci kəsim.
Yarım həssas oğlandır
Aradan inci kəsim.

**34**
Mən aşiq ilk ovusan
Gözümün ilk ovu sən.
Göz gördü, könül sevdi
Söhbəti sən, sovu sən.

**35**
Mən aşiq uduzmuşam,
Sevmişəm uduzmuşam.
Sevgilim naz-naz oğlan
Sezmişəm, uduzmuşam.

**36**
Mən aşiq məhəbbətdir,
Sevgidi, məhəbbətdir.
Hər işimiz gizlidi,
Bölgümüz məhəbbətdi.

**37**
Mən aşiq cəfası var,
Eşqin çox cəfası var.
Mən bir oğlan sevmişəm,
Eşqimə vəfası var.

**38**
Mən aşiq arif odu,
Arifdi Arif odu.
Könlüm qız könlü idi,
Yar atdı arif odu.

**39**
Mən aşiq uçur illər
Səninlə uçur illər.
Yar ilə dil tapmışıq
Qol açıb, qucur illər.

**40**
Mən aşiq yaşadana,
Yaradıb, yaşadana.
Məni kimsə öldürər,
Aşiqəm yaşadana.

**41**
Mən aşiq kim kimədir?
Sevənlər kim kimədir?
Ərlər evində ərdir
Oynaşlar him-cimədir.

**42**
Mən aşiq zəhərlidi,
Ilanlar zəhərlidi.
Yarım xəyanət etdi,
Eşqimi zəhərlədi.

**43**
Mən aşiq yuxu gördüm
Yuxuda yuxu gördüm.
Yar məni nişan aldı,
Sinəmdə oxu gördüm.

**44**
Mən aşiq Ay batanda,
Gün, həftə, Ay, batanda.
Sübhü seyrə çıxıram,
Meh vurub, dan atanda.

**45**
Mən aşiq yaraşıqdır
Yar yara yaraşıqdır.

**46**
Mən aşiq yellər əsir,
Yel vurur, yellər əsir,

Təbiət şahnaz gözəl
Insanlar yar, aşıqdır.

Göydə ulduzlar sönür,
Gündüz yerə tələsir.

**47**

Mən aşiq dan ata yar,
Ay bata, dan ata yar.
Aşiq odur yarına,
Can verə, can ata yar.

**48**

Mən aşiq çin-çin yarım
Qaydalı, çin-çin yarım.
Gündüzlər alim oğlan
Gecələr intim yarım.

**49**

Mən aşiq quş səsinə,
Quş oxur, quş səsinə.
On beş il sərf elədim,
Yarın çəkişməsinə.

**50**

Mən aşiq yaradıram,
Yazıram, yaradıram.
Tanrı insan doğurur,
Mən insan yaradıram.

**51**

Mən aşiq sellər axır,
Çay daşır, sellər axır.
Yar yardan ayrılanda,
Gözlərdən sellər axır.

**52**

Mən aşiq ayrılmasın,
Yar yardan ayrılmasın.
Yarı yardan ayıran,
Canından yarımasın.

**53**

Mən aşiq qoxulara,
Cənnətdə qoxulara.
Yarı yuxuda gördüm,
Qurşandım yuxulara.

**54**

Mən aşiq incə səsə,
Xoş səsə, incə səsə,
Axır könül vermişəm,
«Səninəm» deyən kəsə.

**55**

Mən aşiq yuxularda,
Xəyalda, yuxularda,
Mən hara, yar da orda,
Gəzirik yuxularda.

**56**

Mən aşiq yuxusuna,
Yarımın yuxusuna,
Girəm yarın qoynuna,
Qatılam qoxusuna.

**57**

Mən aşiq, yar da aşiq,
Yar aşiq, yara aşiq.
Yar yazdı, mən də yazdım,
Olduq arkadaş aşiq.

**58**

Mən aşiq qohumlara,
Dostlara, qohumlara.
Allah mənə pul versin
Paylayım qohumlara.

**59**

**60**

Mən aşiq qoxuluyam,
Ətirli, qoxuluyam.
Yar yuxuda barışır,
Xumaram, yuxuluyam.

Mən aşiq günəş batır,
Gün batır, günəş batır.
Mən xumaram, yatıram
Yar gəzib yeyib yatır.

**61**

Mən aşiq şirin-şirin,
Yatıram şirin-şirin.
Yarı yuxuda görüb,
Öpürəm şirin-şirin.

**62**

Mən aşiq sözə sığmaz,
Söz sığmaz, sözə sığmaz.
Əvəzsiz o kəsdir ki,
Sevgisi sözə sığmaz.

**63**

Mən aşiq sözə sığmaz,
Zəriflk sözə sığmaz.
Gün zəri, su zərrəsi,
Xəfiflik sözə sığmaz.

**64**

Mən aşiq bəşərdi o
Tanrıdır, bəşərdir o.
Aygün ona bağlıdı
Cümlədi, bəşərdi o.

**65**

Mən aşiq şəriətdi,
Mərifət, şəriətdi,
Dünyada ən uca yol
Həqiqət təriqətdi.

**66**

Mən aşiq ağrıma yar,
Incimə, ağrıma yar,
Mənim bircə eşqim var,
O da ki, tanrıma yar.

**67**

Mən aşiq gözəllikdir,
Göz gözə gözəllikdir.
Him-cim sirri-xudadı,
Sevgidi, gözəllikdir.

**68**

Mən aşiq toy-büsatdı
Dəm-dəstgah, toy büsatdı.
Qız qızdı, oğlan oğlan,
Hər şey yeni həyatdı.

**69**

Mən aşiq gəlin olar
Qız gedər, gəlin olar.
Qızın abır pərdəsi
Açılar… həlim olar.

**70**

Mən aşiq oğlan alar,
Qız sevər, oğlan alar.
Qızın abır həyasın
Qızaran oğlan alar.

**71**

Mən aşiq toy taxtına,
Toy günü toy taxtına,
Bəy bəy taxtına çıxar,
Qız gəlinlik baxtına.

**72**

Mən aşiq toy çalına,
Toy ola, toy çalına.
Qıza bəzək vuralar,
Örpək üzə salına.

**73**
Mən aşiq tapbatapdı,
Toy çalır, tapbatapdı.
Gəlin üzündə duvaq
Bəy açır, hopahopdu.

**74**
Mən aşiq incə sənət,
Zərif söz, incə sənət,
Birin sən de, birin mən
Görünsün incəsənət.

**75**
Mən aşiq Aydı bu qız,
Bədirdi, Aydı bu qız.
Oğlan qıza yaraşır,
Oğlana taydı bu qız.

**76**
Mən aşiq incəsinə,
Ağappaq incə sinə.
Yar mənə aşiq olub,
Mən yarın incəsinə.

**77**
Mən aşiq xınalıdı,
Əlləri xınalıdı.
Bəy gəlini aparsın.
Qız üzü cunalıdı.

**78**
Mən aşiq qabliyyətdi,
Qadınlıq qabliyyətdi.
Qızlıq incəlik, paklıq,
Gəlinlik qabiliyyətdi.

**79**
Mən aşiq hədiyyədir
Bəxşişdir, hədiyyədir.
Yarın hər addımına
Bayatı hədiyyədir.

**80**
Mən aşiq toydan sonra,
Toy ola, toydan sonra.
Ləzizlər, ziqiymətlər
Doğrular toydan sonra.

**81**
Mən aşiq hər gün olar,
Eyş-işrət hər gün olar.
Yar-yarını bəyənsə,
Toy düyün hər gün olar.

**82**
Mən aşiq xınalıdı,
Əlləri xınalıdı.
Oğlan qız əli açır,
Qız əli cunalıdı.

**83**
Mən aşiq açar görər,
Oğlan, qız açar görər.
Qızın ovcunda sirr var,
Oğlan gül açar görər.

**84**
Mən aşiq dan atanda,
Ay batıb, dan atanda.
Yarım könlümü alır,
El-oba, gün yatanda.

**85**
Mən aşiq cavab aldı.
Suala cavab aldı.

**86**
Mən aşiq qız kimidir,
Gəlindir, qız kimidir.

Yar yarla ülfət etdi,
Eşqinə cavab aldı.

Elə qorxur, utanır,
Əl-ayaq buz kimidir.

**87**

Mən aşiq təntənəsi,
Büsatı, təntənəsi.
Oğlanlar qız sevəndə,
Qızların Yeganəsi.

**88**

Mən aşiq görüşdülər,
Gördülər, görüşdülər.
Yamanca qorxmuşdular
Duydular, gülüşdülər.

**89**

Mən aşiq marş çalındı,
Toy bitdi, marş çalındı.
Vağzalı dilə gəldi,
Bakirəlik alındı.

**90**

Mən aşiq yarım qaldı,
Mən qaldım, yarım qaldı.
Hamı sevdi yarıdı
Mənimlə yarım qaldı.

**91**

Mən aşiq o gəlinə,
Toy görmüş o gəlinə.
Gəlin bir oğlan doğar,
Bəxşiş edər elinə.

**92**

Mən aşiq məzmundadı,
Yaşayış məzmundadı.
Mənim, sevən gözlərim
Sevgili Məcnundadı.

**93**

Mən aşiq görən gözüm,
Aydındır, görən gözüm.
Hər sözümdə bir hikmətdir.
Xoşbəxt ol, bəzən sözüm.

**94**

Mən aşiq hiss, duyğudu,
Görmədir, hiss, duyğudur.
Iki gənc arasında
Məhəbbət xoş uyğudur.

**95**

Mən aşiq görənlərə
Oğlan, qız görənlərə.
Yarı gərdəkdə görüb,
Ömrünə hörənlərə.

**96**

Mən aşiq yeyib-içək
Toy olsun, yeyib içək.
Gəlin bir oğlan doğsun,
Qəhrəman, gözəl göyçək.

**97**

Mən aşiq cəhənnəmə,
Cənnətə, cəhənnəmə.
Gəlin cənnətə gedər,
Qarılar cəhənnəmə.

**98**

Mən aşiq cənnətdədi,
Xoş işlər cənnətdədir,
Mən yara qovuşmuşam,
Ləzzətdə cənnət nədi?!

**99**

**100**

Mən aşiq üstündədir
Dünyalar üstünədir,
Məhəbbət Tanrı payı,
Eşqidən üstün nədir?

Mən aşiq yolu kəsə,
Dolayı, yolu kəsə,
Gəlin qapı dalında,
Qardaşlar yolu kəsə.

**101**

Mən aşiq nəmər ala,
Yol kəsə, nəmər ala.
Oğlanlar yol bağlaya
Gəlindən kəmər ala.

**102**

Mən aşiq bal ayıdır,
Şəkərdir, bal ayıdır.
Yarla eyş-işrətdəyik
Gündüzləri Ay udur.

**103**

Mən aşiq bal küpəsi,
Şan dolu, bal küpəsi,
Yar mənə öpüş verir,
Məcundur, hər tikəsi.

**104**

Mən aşiq əzizim sən,
Istəklim, əzizim sən.
Gecələr mənə qul ol
Gündüzlər kənizi mən.

**105**

Mən aşiq sağlam ola,
Sağ ola, sağlam ola,
Hər qızın qismətində
Bir sağlam oğlan ola.

**106**

Mən aşiq yer qeydinə,
Qalmışam yer qeydinə,
On beş il var- gəl etdi,
Sualı nə, qeydi nə?

**107**

Mən aşiq yar yaşasın,
Yaşadım, yar yaşasın.
Yarın xətrinə dəysəm,
Yalvarram bağışlasın.

**108**

Mən aşiq yar, dost ola,
Yaxın ola, dost ola.
Yara qonaqlıq verəm,
Məhəbbətdən məst ola.

**109**

Mən aşiq uzun ola,
Yar ömrü uzun ola.
Qız atasına çəkər
Yardan bir qızım ola.

**110**

Mən aşiq çox yaşasın,
Yar məndən çox yaşasın.
Mənsiz xiffət edəndə,
Yar məni xatırlasın.

**111**

Mən aşiq lap qarıyaq
Yaşayaq lap qarıyaq.
Yaşımız yüzü ötsün
Ömrümüzdən yarıyaq.

**112**

Mən aşiq bucağına
Dünyanın bucağına.
Bircə yar istəyirəm
Sığınam qucağına.

**113**
Mən aşiq ağrımasın,
Yar, canın ağrımasın,
Xeyirxah ol, xeyir ver,
Qoy kimsə qarğımasın.

**114**
Mən aşiq qızdırmışam,
Soyuyub, qızdırmışam.
Yarıma gözüm düşüb,
Ummuşam, qızdırmışam.

**115**
Mən aşiq əldə tutub,
Yar məni əldə tutub.
Yar tutanı el tutar
Yar tutub, el də tutub.

**116**
Mən aşiq yara qıymaz,
Yar yara yara qıymaz.
Yar mənə bir can verib,
Mən versəm, gora qıymaz.

**117**
Mən aşiq ağrıma yar,
Sağlam ol, ağrıma yar.
Görsəm xəstələnirsən,
Basaram bağrıma yar.

**118**
Mən aşiq ata bəndəm,
Hazıram ata bəndəm,
Dindirməyin ağlaram,
Lap amanata bəndəm.

**119**
Mən aşiq yollar üzün,
Yol üzün, yollar uzun.
Qaldırın yola düşüm,
Yol gedim, yollar uzun.

**120**
Mən aşiq bala yükü,
Ağırdır bala yükü.
Bütün canım ağrıyır,
Inciyəndə bir tükü.

**121**
Mən aşiq hər an ola,
Yar mənnən hər an ola,
Sevəm, sevişəm yarla,
Günüm firavan ola.

**122**
Mən aşiq qoca dünya,
Insan gənc, qoca dünya.
Cavan qocanı sevməz
Sən necə, qoca dünya?

**123**
Mən aşiq, səbr et, Könül
Tələsmə, səbr et, Könül.
Sənin bir məqsədin var
Məqsədə düz get könül.

**124**
Mən aşiq elə baxdım,
Bənd oldum, elə baxdım,
Ellər eşqimə heyran,
Ayıldım, elə baxdım.

**125**
Mən aşiq təsirindən,
Eşqinin təsirindən.

**126**
Mən aşiq təsirindən,
Yadların təsirindən.

Yarla yaxın olmuşuq
Agaham hər sirrindən.

Yarım mənlə barışıb
Keçibdir təqsirimdən.

**127**

Mən aşiq göydən gəlir
Günəşdən, göydən gəlir.
Göylər… Yerə əmr edir
Bələdçi eldən gəlir.

**128**

Mən aşiq Mehribana,
Mehrim var Mehribana.
Könlümdə bir yarım var,
«Can» - dedim, mehrim ona.

**129**

Mən aşiq libasına,
Geydiyi libasına.
Yarın bənzəri yoxdur
Qurbanam sədasına.

**130**

Mən aşiq gözəl odur,
Gözəldir, gözəl odur.
«Bu odur, yoxsa xəyal»?
Xəyaldan gözəl odur.

**131**

Mən aşiq dişlərinə,
Ağappaq dişlərinə.
Gözüm gözünə qurban,
Ləblərim döşlərinə.

**132**

Mən aşiq giləsinə
Üzümün giləsinə.
Üzüm üzünə söykək
Döşlərim sinəsinə.

**133**

Mən aşiq hər sözünə,
Tər-təzə, tər sözünə.
Həm özünə heyranam,
Həm yarın ər sözünə.

**134**

Mən aşiq gözlər gülə,
Göz gülə, gözlər gülə,
Mən gözəl, yarım gözəl,
Calaq olub, gül-gülə.

**135**

Mən aşiq yarım gilə,
Gilədən yarım gilə,
Yarım bağa bağbandır,
Gedəcəm yarımgilə.

**136**

Mən aşiq gilə-gilə,
Meyvələr gilə-gilə,
Öpüşüb sevişirik
Küsürük gülə-gülə.

**137**

Mən aşiqəm kökümüz,
Soyadımız, kökümüz.
Sağlar qol budaqlardır,
Ölən kəslər kökümüz.

**138**

Mən aşiq səbirliyəm,
Təmkinli, səbirliyəm,
Həyatımda nizam var,
Öləndə qəbirliyəm.

**139**

**140**

Mən aşiq yandı Könül
Od tutdu, yandı Könül.
Aşiq ol, odu söndür
Gör necə candı könül.

Mən aşiq açar yarım,
Könlümü açar yarım.
Könlüm qıfılı sandıq,
Könlümü açar yarım.

**141**

Mən aşiq oxu yarın,
Kamanı, oxu, yarın.
Könlüm yar kitabıdır,
Açmışam, oxu yarım.

**142**

Mən aşiq xoşa gəldi,
Gül üzüm xoşa gəldi,
Yar ləzzət axtarırdı
Meyə, meyxoşa gəldi.

**143**

Mən aşiq gəl ayrılaq,
Qucaqlaşaq, ayrılaq.
Ruhum haqq yolundadır
Halallaşaq, ayrılaq.

**144**

Mən aşiq olmadım, yar,
Bivəfa olmadım yar.
Mən haqqınan olmuşam,
Haqsız saç yolmadım, yar.

**145**

Mən aşiq peşimanam,
Nakamam, peşimanam,
Güldürmədin, gülmədim,
Şad günümə düşmənəm.

**146**

Mən aşiq bura qədər,
Yol gəldim bura qədər.
Burdan da siz aparın,
Daşlı, qəbirə qədər.

**147**

Mən aşiq gizli yandım,
Aşkara, gizli yandım.
Yadlar qarıdı, yandı,
Bir mən gülüzlü yandım.

**148**

Mən aşiq ağlamadım,
Dolmuşdum, ağlamadım,
Hamıya hörmət etdim,
Bir könül dağlamadım.

**149**

Mən aşiq çıxsın gözüm,
Kor olsun, çıxsın gözüm,
Xalxı düşməni yıxdı,
Yıxıldım…, çıxsın gözüm.

**150**

Mən aşiq heç kəs yoxdur,
Çağırdım, heç kəs yoxdur,
Sən ki, can həkimiydin,
Harda qaldın «ay doxdur».

**151**

Mən aşiq bir an oldun,
Göründün, bir an oldun.
Dağın yağan qarıydım,
Əritdin, viran oldum.

**152**

Mən aşiq «onnan» etdim
Söhbəti «onnan» etdim.
Söz kəsənlər çox oldu
Hər sözü «onnan»…, etdim.

**153**
Mən aşiq alaçıqdı,
Obadı, alaçıqdı.
Qəmdən bir yuva qurdum,
Alınmaz qala çıxdı.

**154**
Mən aşiq ayrılığa
Hicrana, ayrılığa.
Axır tə′zim elədim
Hicrandan, ayrılığa.

**155**
Mən aşiq su səpmədim,
Ayrıldıq, su səpmədim.
Sən könlümdə can verdin
Son nəfəsdə öpmədim.

**156**
Mən aşiq qanadım yar,
Qırıldı qanadım, yar,
Əhdinə dönük çıxdın,
Dözmədim, qınadım, yar.

**157**
Mən aşiq qaynaram yar,
Coşqunam, qaynaram yar.
Göz yumub çırtmıq çalsan,
Qalxaram, oynaram yar.

**158**
Mən aşiq Ceyrandı yar
Ürkəkdi, Ceyrandı yar.
Mən bir «Dəli Ceyran»am
Ceyrana heyrandı yar.

**159**
Mən aşiq Cüyürəm mən
Ceyranam, Cüyürəm mən.
Yarım kamil ovçudu,
Haylayır, yüyürəm mən.

**160**
Mən aşiq enə gələ
Zirvədən enə gələ.
Dindirə könül açam,
Bəyənə, yenə gələ.

**161**
Mən aşiq göz doydurar,
Gözəl üz,göz doydurar.
Xoş sözün hesabına,
Körpə uşaq day durar.

**162**
Mən aşiq sözə gəlməz,
Yazılmaz, sözə gəlməz.
Gərək gedib, görəsən,
Gözəllik sizə gəlməz.

**163**
Mən aşiq ağ buludlar,
Göy otlar, ağ buludlar.
Bulaqlar xonçalanıb,
Çınqıl daşlar yumurtlar.

**164**
Mən aşiq ot ətrinə,
Çiçəyə, ot ətrinə,
Bəzənib ətirləndim
Duydum yarın xətri nə?!

**165**
Mən aşiq mənzərələr,
Vətəndə mənzərələr.

**166**
Mən aşiq xanım ola,
Bəy ola, xanım ola.

Çiçək-çiçək sözləri,
Yoluma Mənzər ələr.

Əql ilə danışanda,
Yanımda xanım ola.

**167**

Mən aşiq şeh düymələr
Şeh düşüb, şeh düymələr…
Sirrin isti damcı şeh,
Şeh təki şeh, düymələr…

**168**

Mən aşiq yada uyar,
Yar hərdən yada uyar,
Nifrət etmə, ey könül,
Nifrət ürəyi oyar.

**169**

Mən aşiq ömür bitdi,
Yaş keçdi, ömür bitdi.
Dünyalar vidalaşdı
Kim gəldi, kimlər getdi?

**170**

Mən aşiq o diləyi,
O əhdi o, diləyi.
Könül sındı, yar getdi,
Neynirəm bu ürəyi?

**171**

Mən aşiq nə səda var,
Nə səs var, nə səda var.
Yara vəfalı dedim,
Bivəfaymış, bu da yar.

**172**

Mən aşiq ovutmadın,
Gəlmədin, ovutmadın.
Həsrətin mənə qaldı,
Yanğımı soyutmadın.

**173**

Mən aşiq yarım getdi,
Qara sevdalım getdi,
Öldü giley-güzarım,
Yarla məst halım getdi.

**174**

Mən aşiq sındı könül,
Çatladı sındı könül,
Ha əlləş, ha…, düzəlməz,
Xınc oldu, sınqı…, könül.

**175**

Mən aşiq daha sevməz,
Sınan qəlb daha sevməz.
Kimin ki, könlü sınıb
Yarıyla kaha…, sevməz.

**176**

Mən aşiq günahım var
Bir sevgi günahım var.
Nəfsim Ceyran nəfsidir
Günahkar… günahım yar.

**177**

Mən aşiq qamçısıdır,
Vəhyidir, qamçısıdır.
Bayatılar, əzizim,
Eşqimin damcısıdır.

**178**

Mən aşiq göydən enir,
Tər sözlər, göydən enir,
Gah məni də qaldırır
Gah mənə göydən enir.

**179**

**180**

Mən aşiq xar olmasın,
Sevinsin, xar olmasın.
Yarla ayrılıq olsa,
Mən ölüm, yar ölməsin.

Mən aşiq ağıllıyam,
Qaydalı, ağıllıyam.
Yarım elə inaddı
Vaxt olla, nağıllıyam

**181**

Mən aşiq qız gəlindi,
Dörd tərəf qız gəlindi.
Yarıma: əl sək - dedim
Yar əl çəkmir, qənimdi.

**182**

Mən aşiq nələr gördüm,
Nə gördüm, nələr gördüm?
Üzdə deyib, güləni
Eşqində mələr gördüm.

**183**

Mən aşiq gözəldi yar
Göyçəkdi, gözəldi yar.
Saldı eşqin gölünə
Mayak tak gözərdi yar.

**184**

Mən aşiq qönçələndi,
Açıldı, qönçələndi,
Yarıma «bəli» dedim
Dodağa şeh çiləndi.

**185**

Mən aşiq qönçə-qönçə,
Ləçəklər qönçə-qönçə,
Yarımla əhd eylədik,
Ayrılmayaq ölüncə.

**186**

Mən aşiq gül vura yar
Gül ata, gül vura yar.
Çiçək qızlar içində
Mən susam, lal dura yar.

**187**

Mən aşiq yar oxşaya,
Yar sevə, yar oxşaya,
Yara bir öpüş verəm
Yar ürək bağışlaya.

**188**

Mən aşiq iki gözəl,
Iki yar, iki gözəl,
Cənnətə gedən yarın
Sevgidən yükü gözəl.

**189**

Mən aşiq dolanır yar,
Hey gəzib, dolanır yar.
Dindirmirəm, dinmirəm
Başıma fırlanır yar.

**190**

Mən aşiq yar olasan,
Vəfalı yar olasan.
Köz tutub yanır könül
Bir ovuc qar olasan.

**191**

Mən aşiq gül vura yar
Güllərə, gül vura yar.
Yığıla, nigar qızlar
Söz məclisi qura yar.

**192**

Mən aşiq ətir səpir,
Meh olub, ətir səpir,
Mən küləm, titrəyirəm
Yar arı, ətir çəkir.

**193**
Mən aşiq vurğundu yar,
Vurulub, vurğundu yar.
Yarıma könül verdim
Qəşş etdi, uğundu yar.

**194**
Mən aşiq seyr eyləyir,
Göz qoyur, seyr eyləyir.
Bəzənib, ətirlənib,
Yar məni sehirləyir.

**195**
Mən aşiq döyünür yar,
Könlümdə döyünür yar.
Yar könlünə yatıram
Könlümcə öyünür yar.

**196**
Mən aşiq işıq olam,
Gözünə işıq olam.
Ta yarım tək gəzməyə
Yara yaraşıq olam.

**197**
Man aşiq öpüb yarım,
Gözümdən öpüb yarım.
Açıb kor gözlərimi
Yanımdan ötüb, yarım.

**198**
Mən aşiq gülən olmaz,
Ağlasam, gülən olmaz,
Mənim kimi yar yoxdu
Gəz, dolan, dilən olmaz.

**199**
Mən aşiq andı könül,
Anıldı, andı könül,
Yarın məhəbbətindən
Od tutdu, yandı könül.

**200**
Mən aşiq qəzadandır,
Qəzavü-qəzadandır.
Başıma gələn işlər,
Alnımda yazıdandır.

**201**
Mən aşiq heyran canım,
Mat canım, heyran canım.
Yarım elə ox atdı
Oxlandı Ceyran canım.

**202**
Mən aşiq belə olmaz,
Ha dedim: - Belə olmaz,
Dəyməmiş tağdan düşdüm
Ayrılıq belə olmaz.

**203**
Mən aşiq bə mən neynim?
Neyləyim, bə mən neynim?
Desəm, öldürəcəklər
Deməyim bə mən neynim?

**204**
Mən aşiq ala bulud,
Ağ bulud, ala bulud,
Od tutmuşam yanıram
Üstümə yağa bulud.

**205**
Mən aşiq dan atdı oy
Sübh oldu, dan atdı oy.

**206**
Mən aşiq görməyəm ta,
Ha yatam, görməyəm ta.

Yarım yadlarla getdi
Könlümü qanatdı oy.

Yarı aşkarda görəm
Yuxuda görməyəm ta.

**207**

Mən aşiq qoyam gedəm,
Dünyanı qoyam gedəm.
Deyirlər şirindi yar
Yarımdan doyam gedəm.

**208**

Mən aşiq ağla məni,
Qarala, ağla məni.
Çimdirin, yola salın,
Bağlayın ağla məni.

**209**

Mən aşiq yalan dünya,
Yalançı, yalan dünya,
Mən səndən küsüb getdim
Yadlara qalan dünya.

**210**

Mən aşiq halay vuram,
Qızlarla halay vuram,
Yarım qapıdan girə
Eşqindən nanay vuram.

**211**

Mən aşiq yarım öldü,
Şil oldu, yarım öldü
Qoyun üzü qibləyə
Uzadın tarım, öldüm.

**212**

Man aşiq axdı, oxdu,
Hicrandı, axdı, oxdu.
Yarımla sevişmişik
Vüsala vaxtı yoxdu.

**213**

Mən aşiq baxma elə,
Qanrılıb, baxma elə.
Sən baxanda el görür
Könlümü yaxma elə.

**214**

Mən aşiq gözü nəmdi,
Ürəyi, gözü, nəmdi.
Mənim günahım yoxdu
Yar özü seviləndi.

**215**

Mən aşiq şərbətdi yar,
Şəkərdi, şərbətdi yar.
Dedi: - Məni sevirsən?
Cavabım: - Əlbətdi- yar.

**216**

Man aşiq alim qızam,
Elmli, alim qızam.
Elimlə xoş danışdım
Yarıma zalım qızam.

**217**

Mən aşiq gülər yarım,
«Gül» - desəm, gülər yarım.
Yarın canı məndədir
Sevməsəm, ölər yarım.

**218**

Mən aşiq bir an oldu,
Göründü, bir an oldu.
Yarımı yadlar aldı
Sarayım viran oldu.

**219**

**220**

Mən aşiq əhd eylədik,
Yarımla əhd eylədik,
Ölmədi qarı düşmən
Nə qədər cəhd eylədik.

Mən aşiq doldurdu yar,
Eşq ilə doldurdu yar,
Mizrabı telə vurdu
Bağçamı soldurdu yar.

**221**

Mən aşiq yellər aldı,
Meh əsdi, yellər aldı,
Yarım yada əl verdi
Satıldı ellər aldı.

**222**

Mən aşiq qanan mənəm,
Cavid tək, qanan mənəm,
Məhsəti kimi eşqə
Güvənib, yanan mənəm.

**223**

Mən aşiq bada getdi,
Məhv oldu, bada getdi.
Eşqimin yanğısı çox,
Hər şeyim oda getdi.

**224**

Mən aşiq yiyəm yoxdu,
Tənhayam, yiyəm yoxdu.
Yar köynəyi tikmişəm
Əlimdə, geyən yoxdu.

**225**

Mən aşiq elə verdim,
Hey verdim, elə verdim.
Eldən bir yar sevmişdim
Sınadım yelə verdim.

**226**

Mən aşiq bir də baxım,
Bir baxdım, bir də baxım.
Bir cam şərbətə dönüm
Könlünə bir də axım.

**227**

Mən aşiq pəri kimi,
Qılmana, pəri kimi.
Yar gözündə parlayam
Günəşin zəri kimi.

**228**

Mən aşiq haman sevdin,
Bir gördün, haman sevdin.
Sənin tək aşiq olmaz
Sən məni yaman sevdin.

**229**

Mən aşiq bə biz ölək
Can verdik bə, biz ölək?
Girdik eşqin könlünə
Üzməyək bə biz ölək?

**230**

Mən aşiq mənimkisən,
Məndəsən, mənimkisən,
Bir gözəl ürəyin var
Qoymadı səndən küsəm.

**231**

Mən aşiq uymadın gəl,
Bir getdin, uymadın gəl.
Ha tuş etdim , gedəsən
Ha getdin uymadın, gəl.

**232**

Mən aşiq yiyəm odu,
Sahibim, yiyəm odu.
Göstərələr yarımı
Diyələr -?-diyəm odu.

**233**
Mən aşiq qol açmışam,
Gəl qovuş, qol asmışam.
Ətrim yayılıb elə,
Eşqindən gül açmışam.

**234**
Mən aşiq daşıyıram,
Yar yükü daşıyıram.
Dünya boyda sevdadır
Sevdayla yaşıyıram.

**235**
Mən aşiq gözəlləşdi,
Gözəldi, gözəlləşdi.
Yara təslim olmadım
Cəhd etdi, köməkləşdi.

**236**
Mən aşiq baldı yarım,
Qaymaqdı, baldı yarım,
Mənə bir könül verib
Qadamı aldı yarım.

**237**
Mən aşiq ox atdı yar,
Tuş oldum, ox atdı yar.
Qoynumu yara açdım
Qoynumda lal yatdı yar

**238**
Man aşiq, inadım yar,
Iradəm, inadım yar
Quş oldum, göydə süzdüm
Qüdrətim, qanadım yar.

**239**
Mən aşiq göz yaşı var,
Başında göz yaşı var,
Mənə ustad olubdu,
Özgələrə naşı yar.

**240**
Mən aşiq yırğalandı,
Yayıldı yırğalandı,
Yarın pıçıltıları
Könlümdə sırğalandı.

**241**
Mən aşiq oynadı yar,
Eşqimlə oynadı yar,
Sübh  oldu,  mən oyandım
Eşqimdən doymadı yar.

**242**
Mən aşiq naz nazdı yar,
Nazlıdı, naz-nazdı yar.
Qəlbimə qar yağanda
Çiçəkləyən yazdı yar.

**243**
Mən aşiq yoxdu eşqin,
Sərhəddi yoxdu eşqin
Yar yarına qovuşdu
Doyubdu, toxdu eşqim.

**244**
Mən aşiq yarım yoxdu,
Yarım var, yarım yoxdu.
Yarı yuxuda gördüm
Ayıldım, yarım yoxdu.

# MƏN AŞİQƏM

**1**

Mən aşiqəm sarısı,
Yumurtanın sarısı.
Yarım məlhəm eyləyib
Sınan könlüm sarısın.

**2**

Mən aşiqəm yar bağı,
Yar bağçası, yar bağı.
Yar yaramı sarıyır,
Könlüm nanə yarpağı….

**3**

Mən aşiqəm arı yar,
Arıtla yar, arı yar.
Könlümün sınan simin
Tumarla yar, sarı yar.

**4**

Mən aşiqəm axı yar,
Söz demirsən, axı yar.
Dilinlə məlhəm eylə,
Sal könlümə yaxı yar.

**5**

Mən aşiqəm əmə yar,
Oxşaya yar, əmə yar.
Dodaqlarım çatlayıb
Qurşana məlhəmə yar.

**6**

Mən aşiqəm qala yar,
Qalaça yar, qala yar.
Yarı qonaq çağıram,
Qayıtmaya, qala yar.

**7**

Mən aşiqəm saz ilə,
Avaz ilə, saz ilə.
Yarıma sağlıq deyəm:
«Bir otaq, bir qız ilə…»

**8**

Mən aşiqəm dənizəm,
Durğun göləm, dənizəm.
Nə qədər böyük olsam,
Yar yolunda kənizəm.

**9**

Mən aşiqəm yar, dedim,
Vətənimə yar dedim.
Üz tutdum Vətən sarı,
Vətənim duyar dedim.

**10**

Mən aşiqəm yar yolu,
Yar çığırı, yar yolu.
Cənnətə yol aradım
Uğurlu yol: - Yar yolu.

**11**

Mən aşiqəm düzülür,
Qatarlanır, düzülür.
Dağlardan axan sellər,
Muncuq-muncuq süzülür.

**12**

Mən aşiqəm yoluna,
Cığırına, yoluna.
Çıxdıq Cənnət qatına
Baxdıq Tanrı yoluna.

**13**
Mən aşiqəm gön dərdi,
Çarıq dərdi, gön dərdi.
Biz Cənnət axtarırdıq,
Tanrı eşqi göndərdi.

**14**
Mən aşiqəm çatmışıq,
Yol gəlmişik çatmışıq.
Yarla Cənnət axtarıb
Eşqimizi tapmışıq.

**15**
Mən aşiqəm qanadı,
Hər quşun, öz qanadı
Yarıma könül verdim,
Yarım qırdı, qanadı

**16**
Mən aşiqəm söz oydum
Nəqqaş oldum, söz oydum
Yarın baxan gözlərin
Üzümə həsrət qoydum.

**17**
Mən aşiqəm iz saldı
Cığır saldı, iz saldı,
Araya qadın girdi
Ayrılığı qız saldı.

**18**
Mən aşiqəm tanıdı,
Yar yarını tanıdı
Məhəbbət yanqusuyuq
Dilim tilsim camıdı.

**19**
Mən aşiqəm taxt ola,
Saray ola taxt ola,
Yarım mənə bağlana
Bəd bəxti xoşbəxt ola.

**20**
Mən aşiqəm yar gözəl,
Doğra gözəl, yar gözəl.
Dedilər:-Məhəbbət var?
Söylədim ki, var gözəl.

**21**
Mən aşiqəm dəm olam,
Sərxoş olam, dəm olam.
Bir sərin otaq ola
Bir yarım, bir mən olam.

**22**
Mən aşiqəm yar kimi
Tayı yoxdu, yar kimi,
Bağrına basa məni
Çala könlüm tar kimi.

**23**
Mən aşiqəm ala yar,
Can istəyə ala yar.
Hər sözünə «can» - deyəm
Canımda can ola yar.

**24**
Mən aşiqəm varıdı,
Qazancıdı, varıdı.
Yarın ağğapaq üzü
Dağın yağan qarıdı.

**25**
Mən aşiqəm xoş gəldi,
Xoşum gəldi, xoş gəldi.

**26**
Mən aşiqəm can, cana,
Aşiq ola, can cana.

Ha getdi ki, unudum
Qayıdanda xoş gəldi.

Od tuta qara gözlər,
Alov sala, can  cana.

**27**

Mən aşiqəm içən yar,
Əhdü-peyman içən yar,
Dayan boyuna baxım
Ürəyimdən keçən yar.

**28**

Mən aşiqəm qarıdım,
Yaşa doldum, qarıdım.
Dağ oldum yar yolunda
Yar qar oldu, yarıdım.

**29**

Mən aşiqəm dağ eşqim,
Qaya eşqim, dağ eşqim.
Sıralandı, ucaldı
Dağ-dağ oldu dağ eşqim.

**30**

Mən aşiqəm gülüncə,
Dişlər incə, dil incə,
Yar Sizi mənsiz görsə,
Xoş söz deyin dilimcə.

# YAR YARA QOVUŞANDA

1.
Eşqin də işığı var. Bu işıq illər ötdükcə daha da nurlanır.

2.
Məhəbbətin cana faydası var. Bu insanı sağlamlığa və saflığa aparır.

3.
Eşq ölümdən qorxmur. O, Əzrailin acizliyinə gülümsünür.

4.
Tanrı ən sevgili bəndəsinə ağıl, qabiliyyət və məhəbbət bəxş edir

5.
Məhəbbətin dili çox dadlıdır.

6.
Aşiq ürəyə yatanda, ürək oyanır.

7.
Məhəbbətin mürəkkəbi ürək qanı, qələmi səmimiyyətdir.

8.
Məhəbbətin yolu əbədiyyətdir.

9.
Məhəbbətdə heç kəslər, puç kəslərin dalısınca gedib, boşluğa qovuşurlar.

10.
Sevən sevdiyinin onun yolunda itirdiyi əvəzsiz qurbana inanmalıdır. Məhəbbət yalnız bu qurbanlıqdan sonra doğula bilər.

11.
Məhəbbətin yolunu şərəflə keçmək lazımdır.

12.

Sevən sevdiyində özünün gücü çatmadığı hünəri sevir.

13.

Məhəbbətin bünövrəsi düz olmalıdır. Əyrilik varsa, onu mütləq düzəldib, düzünə getmək lazımdır. Yoxsa göydə fələklər, yerdə cəmiyyət o məhəbbətə gün verməz.

14.

Qadın məhəbbət dənizidir. Kişi məhəbbət dənizinin üzgüçüsü.

15.

Aşiq ilə məşuqu öz arzusuna çatdıran zamandır.

16.

Aşiq ilə məşuğun vüsal aləmində, beyin və ürək yalnız həzz almağla, ruha sığal çəkməklə məşğul olur.

17.

Məhəbbət həzz, ləzzət mənbəyidir.

18.

Könüllərin də qaranlıq gecələri olur.
Yar-yara qovuşanda işıqlar yanır.

19.

Ceyranı Ceyran edən onun tərtəmiz nəfsidir.

20.

Məhəbbət çox ağır şəxsiyyətdir. Burada hər yerə çox səbirlə getmək lazımdır.

21.

Məhəbbətə əyilməlisən.

22.

Məhəbbət körpə uşaq kimidir. Doyunca yeyib, yatandan sonra oyanır.

23.

Məhəbbətdə qarşındakını özündən ağıllı hesab elə, öpüşdən əvvəl fikirləş.

24.
Məhəbbətin şahidi, ondan doğulan uşaqlar, bir də yazılan kitablardır.

25.
Ehtiras məhəbbət deyil. Ehtirasın cavabı rüsvayçılıqdır.

26.
Sevgililər cavanlıq almasını bir yerdə yeməlidirlər.

27.
Məhəbbətdə macara-hənək-hənək, sonu ya dəyənək, ya bəyənəkdir.

28.
Məhəbbət döyüşü sevməz. Əyişi bəyənər.

29.
Məhəbbət bir toyxanadır. Hər kəs öz döşəyində bəydir.

30.
Məhəbbətdə kişi olmaq çətin, nakişi olmaq asandır.

31.
Sevgilisini və evini qoruya bilməyən elini də qoruya bilməz.

32.
Bir həqiqi vüsal, min xəyali vüsaldan təsirlidir.

33.
Məhəbbətdə iztirabdan, dərddən şəxsiyyətin böyüklüyündən Məcnun olan da var. Ərə gedib, peşimançılıqdan öz Məcnunu ilə birlikdə ölən Leyli də var.

34.
Macəralarda daha çox aşıqlanma olur. Məharəti olan məşuqələr, əldən ələ düşən şəxsiyyətsiz aşiqləri bişib ətdən ayrılmış aşıq kimi,

zağlayıb, bir-birinə ötürürlər. **Zağlanmış** aşıqlar da hamının qarşısında gah öz məşuqələri, gah da özgə məşuqələri üçün **alçı, toxan, cik, böyk, mil, til** və s. formalarda **oynayırlar**.

35.
Məhəbbət əsərlərindən «Yusif və Züleyxa»da var, «Leyli və Məcnun»da var. «Dekameron» da var.

36.
Məhəbbətdə **ölən** məcnunlara ağlayırlar. **Gülən** məcnunlara gülürlər.

37.
Məhəbbət ölümə də ölümsüzlüyə də apara bilər.

38.
Ədəbiyyat və incəsənət adamlarına məhəbbət mövzularını şəxsiyyətlər və şəxsiyyətsizlər verirlər.

39.
Məhəbbətdə nizam, intizam əsas şərtdir.

40.
Məhəbbətin meyarı bərabərlikdir.

41.
Məhəbbətdə **ən qüdrətli tərəf** sevəndir.

42.
Ən gözəl həkim məhəbbətdir. Məhəbbət ən əlacsız xəstəliyi də müalicə edə bilər.

43.
Ən adi məhəbbətin də yiyəsi var.

44.
Məhəbbət hər gün calxanıb, durulur.
O, hər gün ölə-ölə dirilir.

45.
Məhəbbətin dadı öpüşdən başlayır.

46.
Məhəbbətdə ən yaxşı elçi ilk baxışlardır.

47.
Məhəbbətdə adı çıxanın canı çıxır.

48.
Məhəbbət olsa, küldən tonqal qalamaq olar.

49.
Məhəbbətdə geriyə qayıtmaq və unudulmaq bədbəxtlikdir.

50.
Məhəbbətin acığı dünyanın başında ildırım şaqqıldadar.

51.
Məhəbbət baharda çiçəkləyən meyvə bağına, göylərdə süzən durna qatarına oxşayır.

52.
Məhəbbət qanadlıdır. O, iki adam arasında olur.

53.
Məhəbbətdə sevilən kəs Tanrının, Vətənin və Günəşin zərrəsidir.

54.
Məhəbbət ən bahalı fransız ətrinə bənzəyir. Tərpəndikcə xoş qoxusu havalanır.

55.
Məhəbbətin gecəsi gündüzü yoxdur. Zaman həmişə onun quludur.

56.
Məhəbbətin üzü gecələr ulduz dolu mavi göylərə, gündüz dan üzündə qızılı, qırmızılı, şəfəqlərə bənzəyir.

57.
Məhəbbət həzzlə bağlı hisslərin orkestridir.

58.

Məhəbəttlə məşğul olmaq pul saymaq kimidir. O, həmişə gizlinliyi sevir.

59.
Məhəbbət ürəyin və gözün işığıdır.

60.
Məhəbbətə bais olanın intiqamını Allah alır.

61.
Məhəbbət ürəyi böyüdür. Böyük ürək də böyük çanta kimidir. Sevilənlər öləndə özləri ilə istədiklərindən aldıqları həzzi apara bilirlər. Onlar xoşbəxt adamlar **yatan kimi** rahat ölürlər.

62.
Məhəbbətdə xəyanət ürəyi üşüdür, onu çatladır. Inam **qırılanda** məhəbbət ölür.

63.
Məhəbbətdə xəyanət görən, daha inamla sevməz.

64.
Məhəbbət uzun illərin dərrakəli halal qazancıdır.
Öz qazancının üstündən xətt çəkən ağıllı deyil.

65.
Sevişdik ayrıldıq. Zəhmət sənə, məhəbbət mənə qaldı.

66.
Məhəbbət saf havadır. Xoş ovqatdır. Sağlamlıqdır. Saf candır. Kim sağlamlığı xəstəliyə, iztiraba dəyişər?

67.
Məhəbbət bir güldür. Min gülün içindən çox diqqətlə seçilmiş tək Qızılgüldür. Qızılgül xarabalıqda bitməz.

68.
Pul qiymətlidir, yoxsa məhəbbət?
Məhəbbətlə pul qazanmaq olar. Pulla məhəbbət qazanmaq olmaz.

69.
Ən varlı kəs, sağlamlığı və məhəbbəti olandır.

70.
Elm ağılın cövhəridir. Elmi olmayan məhəbbəti anmaz.

71.
Səviyyəsizlərlə **eyşə girənin** öz səviyyəsi yoxdur.

72.
Məhəbbətdə natəmiz tərəfdən üzülmək xoşbəxtlikdir. Belədə üç gün üzülürsən, sonra ovunub, sevinirsən.

73.
Sevənlər öz vaxtlarını bir-birilərinin həyatına və işinə sərf edirlərsə, bu ilahi məhəbbətdir. Məhəbbətdə sevmirəm – yəni vaxt sərf eləmək istəmirəm.

74.
Məhəbbət Hacı Əhməd əliylə tutulmaz.

75.
Məhəbbətdə qadınlar daha təhlükəli mövqe tuturlar.

76.
Qadının heysiyətini saya salmayan kişi uduzur.

77.
Məhəbbətin yolu qıl körpüsündən keçir. Burada **büdrəyən yıxılır**.

78.
Məhəbbətdə xoşbəxtliyin əsas şərtləri bunlardır:
Bərabərlik, halallıq, yaxınlıq, sağlam, səmimi duyğular, qarşılıqlı güzəştlər və qayğılar.

79.
Tanrı ruhu bədəndə, toxumu torpaqda, məhəbbəti ürəkdə pərvazlandıra-pərvazlandıra böyüdür.

80.
Eşqinlə nəyi axtarırsansa, məhəbbətində o, sənsən…

81.
Bu dünyada sevgililərin vüsalı, o biri dünyadakı cənnətlə vəhdət kimidir.

82.
Məhəbbətdə həsrətin naləsi segaha, xəyanəti zəminxarə, düşüncəsi rasta bənzəyir. Məhəbbətdə çoxunu sevmək sevgisizlik əlamətidir.

83.
Məhəbbətdə hər iki sevgilidən anadan-gəlmə ardıcıl virtiolluq tələb olunur.

84.
Eşqin milləti olmaz. Eşqə düşənlər hər ölkədə Tanrının övladıdır.

85.
Məhəbbət ona düçar olanların ürəyinin hərarətini artırır, bədənini xoş, mülayim temperaturda saxlayıb, sevənlərin sözlərinə sığal, baxışlarına tumar bəxş edir.

86.
Məhəbbətin himi inam, kərpicləri təmizlik, palçığı-suvağı ləyaqət və zəriflik, tavanı etibar, qapısı hərarət, pəncərəsi rəngarənglik, ömrü əbədiyyət, xatirələri həzz, keyf, ləzzət və məstanəlikdir.

87.
Halal eşqə qatılan haram ehtiras gözə düşən qum dənəsi kimidir. O qum, çıxmayınca məhəbbət bərqərar olmaz. Məhəbbətdə əxlaqsızlıq ağaca düşən qurd kimidir. O, insanı içindən çürüdür.

88.
Eşq Tanrı sınağıdır. Eşqə dikilən xain gözləri, araya girənləri xəcalətli göz yaşları gözləyir.

89.

Tanrı bəşəriyyətin cəminə bərabər bir qüvvədir. O, məhəbbət bəxş etdiyi aşiqlərin eşqini də məxsusi olaraq cəmiyyətdə sınaqdan keçirir.

90.
iki aşiqdən biri halala, digəri harama meyilli olar. Halal haramı üstələyəndə məhəbbət qalib gələr, əksinə olanda hər iki aşiqin aqibəti tarı-mar olar.

91.
Məhhəbətdə Ediliyalarla aşiq olanlar Balaş kimi yaman günlərə qalar. Eşqində yanılıb, elmiylə yaşayanlar Sevil kimi qayalaşıb ucalar.

92.
Adəm öz Tanrısına olan böyük eşqiylə məhəbbətiylə dünyaya bir də gələcəyinə inamla, daima qurub, yaradırdı. O, öz eşqi, öz əməliylə yer üstündə Cənnət büsatı qururdu. Iblis isə bu dünyaya bir daha gələcəyinə xeyirxahlıqlara gah inanırdı, gah da şübhə edirdi. Odur ki, o, gah Adəm kimi Cənnət büsatı qururdu, gah da qurduğunu yandırıb, külə döndərirdi. Oddan kül, küldən od törədirdi. Tanrı Adəmdəki eşqi, inamı, əməli görüb, onu ucaltmaq istədi. Ətrafdakıların hamısını ona baş əyməyə çağırdı. Hamı Adəmə baş əydi. Iblisdən başqa. Tanrı Cənnət büsatı qurub, yaradan Adəmə baş əyməyən Iblisi Cənnətdən ona görə Cəhənnəmə qovdu ki, başqa uca mövqedə, vəzifədə olanlar da bilsinlər ki, üstünlük mövqedə, vəzifədə, yekəxanalıqda deyil, quruculuqda, yaradıcılıqda, istedada, qabiliyyətdə, ardıcıl zəhmətdə, sədaqətli məhəbbətdə, nəticəsi mənfəətli əməkdədir.

93.
Məhəbbətin də ömrü var. Münasibətlər pozulanda, ürək sınanda, məhəbbət ölür.

94.
Məhəbbətdə bicanəlik insanı el içində xar eliyər. Ona hər gün nəzarət və nəvaziş gərəkdir. Məhəbbətdə «sevirəm», yəni qayğı göstərirəm, vaxt sərf eləyirəm, öyrənirəm – deməkdir.

95.

Sevənlərin ürəyi körpə uşaq kimidir. O, adamı düşmən qapısına da aparar.

96.

Sınan ürək, ölən insan kimidir. Ölümə əlac yoxdur. Məhəbbətdə səhv kosmonavtın səhvinə bənzəyir. Burada səhv edənlər yerə çırpılıb həlak olurlar.

97.

Ürək nəinki öz sevdiyini, hətta sevdiyinə oxşayanı da sevər.

98.

Məhəbbətdə məhəbbət məqsədsiz, cəza məqsədli olur. Eşqin hakimi ürəkdir. Məhəbbət sağlam və uzun ömürlü yaşayışa aparır.

99.

Ürəkdə yaşayan eşq ölməz. Məhəbbətdə ürəyin saflığı əsas şərtdir.

100.

Eşqsiz ürək ayaq üstə gəzən ölü kimidir.

101 .

Ürəkdən axan göz yaşlarının damlaları böyük olar. Ürək ağlayanda göz yaşları üzə yayılar. Məhəbbətdə xəyanətin kinini ancaq vüsal damcıları yuyub, təmizləyə bilər.

***2002-2003***

_______Milli Kitabxana_______

# M Ü N D Ə R İ C A T

***Ön söz***

***Yarı yuxuda gördüm***

***Yara müjdələrim var***

***Əzizim***

***Əziziyəm***

***Əzizinəm***

***Mən aşiq***

***Mən aşiqəm***

***Yar yara qovuşanda***

***Əzizova Nəzakət Məhərrəm qızı***

**МНЕ ВОЗЛОБЛЕННАЯ ПРИСНИЛАСЬ**

●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●

Yığılmağa verilmişdir 13.02.2004. Çapa imzalanıb 19.03.2004.
Sifariş № 69. Sayı 500. Hesab nəşr vərəqi 5,5. Fiziki çap vərəqi 8,5.
Formatı 60x84 $^{1}/_{16}$. Əla növ kağız. Qiymәti müqavilə ilə.

●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●●